RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 148 (9603) 17 iyul 2024-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Azərbaycan islam həmrəyliyini möhkəmləndirən ölkədir



Son illərdə Azərbaycanın həm Avropanın, həm də Asiyanın müxtəlif regionlarında yerləşən dövlətləri ilə ikitərəfli əlaqələri ölkəmizi qitələrarası qovşağa çevirib. Eyni zamanda ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin vacib istiqamətlərindən biridir.

Eləcə də Avrasiyanın bir çox ölkəsi siyasi və iqtisadi çəkisi getdikcə daha da artan Azərbaycanla əməkdaşlıqlarını dərinləşdirməkdə maraqlıdır. Buna görədir ki, Azərbaycanın sıx dostluq və qardaşlıq əlaqələri qurduğu, qarşılıqlı münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksələn ölkələrin sayı artır.

Son illərdə isə türk dünyası və islam ölkələri ilə əlaqələr özünün yüksəliş mərhələsinə qədəm qoyub. Prezident İlham Əliyev ölkəmizin xarici siyasətini dəyərləndirərkən türk dünyası ilə münasibətlərin daha da möhkəmləndiyini, islam ölkələri ilə əlaqələrin getdikcə daha da gücləndiyini bildirir. Bu ölkələrdən biri də qardaş Pakistandır.

Bəllidir ki, iki ölkə arasında möhkəm dostluq və qardaşlıq təməlləri üzrə qurulmuş strateji tərəfdaşlıq münasibətləri yüksək səviyyədədir. Hər iki ölkə həm ikitərəfli, həm də çoxtərəfli platformalarda bir-birinə daim dəstək göstərir və əlaqələr bütün sahələrdə sürətlə inkişaf edir.

Azərbaycan və Pakistan arasında əməkdaşlıqda dost ölkələrimizin bir-birinin haqq işini fəal şəkildə müdafiə etməsi xüsusi yer tutur. Vaxtilə Ermənistan Azərbaycan ərazilərini işğal etdiyinə görə Pakistan bu ölkə ilə diplomatik əlaqələr qurmayan və onun müstəqilliyini tanımayan dövlətlərdən biridir.

İlham Əliyevin iyulun 11-12-ni əhatə edən dövlət səfəri isə Azərbaycan və Pakistan arasındakı strateji tərəfdaşlıq münasibətlərinin daha da gücləndirilməsi və bütün sahələr üzrə əməkdaşlığın hərtərəfli genişləndirilməsi baxımından tarixi önəm kəsb etdi.

Pakistan Azərbaycanın müstəqilliyini ilk tanıyan (12 dekabr 1991-ci il) dövlətlərdən biri olub. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il iyunun 9-da qurulub. Həmin dövrdən sonra iki ölkə arasında əlaqələr daim inkişaf etdirilib və bugünkü strateji müttəfiqlik səviyyəsinə yüksəlib. 1993-cü ilin martında Pakistanın Bakıda, 1997-ci ilin avqustunda isə Azərbaycanın İslamabadda səfirlikləri təsis edilib.

6

## Prezident İlham Əliyev bir neçə mühüm sənədi imzaladı



Prezident İlham Əliyev "Dövlət qulluğu haqqında" və "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edib.

2-4

## Əbədi müttəfiqlik

### Azərbaycan və Pakistan arasında imzalanmış sənədlər münasibətləri yeni səviyyəyə yüksəldəcək



Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Prezident İlham Əliyevi İslamabadın hava limanındaca şəxsən yüksək səviyyədə qarşılaması, keçirilən görüşlər, imzalanan sənədlər, dostluq və qardaşlığa əsaslanan bəyanatlar bu müttəfiqliyin əbədi olacağından xəbər verir. Dövlət başçısının Pakistan İslam Respublikasına dövlət səfəri çox mühüm hadisələrlə yadda qaldı. Pakistanla Azərbaycan arasında qardaşlıq münasibətlərinin təməli bu gün deyil, çoxdan qoyulub. İkitərəfli və çoxtərəfli münasibətlərdə Azərbaycan və Pakistan hər zaman bir-birini dəstəkləyir. Pakistan Ermənistanın işğalçılıq siyasətinə görə onunla heç bir diplomatik münasibət qurmayan dövlətlərdən biridir və bu addım ölkəmiz tərəfindən yüksək qiymətləndirilib. Dövlətimiz də öz növbəsində Cammu və Kəşmir məsələsində birmənalı dəstəyini Pakistandan heç vaxt əsirgəməyib. Prezident İlham Əliyev də öz çıxışında qeyd etdi ki, Kəşmirdəki qardaşlarımızla çiyin-çiyinə dayanacağıq, beynəlxalq hüquqa sadiq qalmağa davam edəcəyik, ədalətin tərəfində olacağıq.

O qeyd edib ki, səfər çərçivəsində imzalanan sənədlər yüksək səviyyədə olan ikitərəfli münasibətləri daha yeni bir səviyyəyə qaldıracaq. Bu görüşdən sonra əminliklə deyə bilərik ki, qardaş ölkələr arasındakı investisiyalar və ticarət dövriyyəsi dəfələrlə artacaq.

6

## Milli Məclisə seçkilərdə ödənişsiz seçkiqabağı təşviqat aparılacaq media subyektləri müəyyənləşib

Milli Məclisə seçkilərlə əlaqədar ödənişsiz seçkiqabağı təşviqat aparılacaq media subyektləri müəyyənləşib.

Mərkəzi Seçki Komissiyasından AZƏRTAC-a bildirilib ki, 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə seçkiqabağı təşviqat aparmaq məqsədilə ölkə üzrə birmandatlı seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına aşağıda göstərilən media subyektlərində ödənişsiz efir vaxtı və dərc üçün yer ayrılacaq:

- İctimai Televiziya və Radio Yayımları Şirkəti;
- "Azərbaycan" qəzeti;
- "Xalq qəzeti";
- "Respublika" qəzeti;
- "Bakinski raboçi" qəzeti.

Yuxarıda göstərilən qurumlar, o cümlədən digər televiziya və radio yayımçıları və dövri nəşrlərin redaksiyaları seçkiqabağı təşviqat üçün ödənişli efir vaxtı və yaxud dərc üçün yer ayrılmasının mümkünlüyünə dair qərar qəbul etdikdə, bu barədə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müvafiq bildirişlər göndərməli, efir vaxtının verilməsinə və dərc üçün yerin ayrılmasına görə ödənişin əsasları, şərtləri və məbləği barəsində məlumatları seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərc olunmasından sonra ən geci 30 gün keçənədək (2024-cü il iyulun 28-dək) dərc etməlidirlər.

## Azərbaycan və Tatarıstan neftçiləri bir-birinin təcrübəsindən faydalanacaqlar




"SOCAR ilə bizim çox sıx əməkdaşlığımız var. Biz indi "Bibiheybət" yatağında işləri aparmağa hazırlaşırıq, burada SOCAR-dan olan həmkarlarımızla birlikdə mövcud texnologiyaların tətbiqi ilə məşğul olacağıq". "Tatneft"in rəhbəri Nail Maqanov Almetyevskdə keçirilən V Beynəlxalq Neft-Qaz Gənclər Forumunun iştirakçıları ilə neft şirkətlərinin ənənəvi "Bərabərhüquqlu dialoq" sammiti zamanı belə deyib. Şirkətin rəhbəri nəzərə çatdırıb ki, " Bibiheybət" Azərbaycanın ən qədim yataqlarından biridir. Həmçinin əlavə edib ki, "Tatneft" Türkiyədə də SOCAR ilə birgə işləyir, neft-kimyanın inkişafı və neft emalı zavodlarının yenidən qurulması sahəsində fəal iş aparır: "Biz həmkarlarımızla bu sahələr üzrə birgə işləməkdən məmnunluq duyuruq".

10

## Avropa iqtisadiyyatı tənəzzüldədir

### Yanlış yanaşma tezliklə daha ağır nəticələrə gətirib çıxaracaq

Avropadan hasilatın geri çəkilməsi prosesi sürətlə getsə də, görünür, heç kim bundan narahat deyil. Onilliklər boyu sol-liberal təlqinlər rifahın sənaye və ticarət artımı ilə deyil, yenidən bölüşdürülməsi yolu ilə yaradıldığına kor-koranə inanan bir nəsil formalaşdırıb. Hətta əksinə, sol təmayüllü liberallar və "yaşıl siyasətçilər" arasında ciddi şəkildə inananlar var ki, sənaye istehsalının azalması müsbət haldır, çünki bu, $CO_2$ emissiyalarını azaldır.

Ortnerin fikrincə, belə bir təsəvvür yaranır ki, avropalılar ruhi xəstələrin hakimiyyəti ələ keçirdikləri dəlixanada yaşayırlar və yoxsullaşmanın onların əsas siyasi məqsədləri olduğunu bəyan edirlər. Təəssüf ki, bu yanaşma xəstə təxəyyülün məhsulu deyil, əslində çoxdan reallığa çevrilib.

9



# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1127-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 8.1.3-cü maddəyə "Şurasının Aparatı" sözlərindən sonra ", Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyi" sözləri əlavə edilsin.

2. 11-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 11. **İnzibati və yardımçı vəzifələrin təsnifatı**

11.1. İnzibati vəzifələrin aşağıdakı təsnifatları vardır:

11.1.1. inzibati vəzifələrin ali təsnifatı:

11.1.1.1. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri;

11.1.1.2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Azərbaycan Respublikası Birinci vitse-prezidentinin fəaliyyətini təmin edən struktur bölmənin rəhbəri;

11.1.1.3. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların rəhbərləri;

11.1.1.4. Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini həyata keçirən orqanın Aparatının rəhbəri;

11.1.1.5. Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri;

11.1.1.6. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Aparatının rəhbəri və Azərbaycan Respublikası Ali Məhkəməsi Aparatının rəhbəri;

11.1.2. inzibati vəzifələrin birinci təsnifatı:

11.1.2.1. Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə və ya ona bərabər tutulan digər struktur bölmə rəhbəri;

11.1.2.2. Azərbaycan Respublikası Prezidentinin köməkçisi;

11.1.2.3. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə və ya ona bərabər tutulan digər struktur bölmə rəhbəri;

11.1.2.4. Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi;

11.1.2.5. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi;

11.1.2.6. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi;

11.1.2.7. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Azərbaycan Respublikası Birinci vitse-prezidentinin fəaliyyətini təmin edən struktur bölmə rəhbərinin müavini;

11.1.2.8. Azərbaycan Respublikası Birinci vitse-prezidentinin köməkçisi;

11.1.2.9. Azərbaycan Respublikası vitse-prezidentinin köməkçisi;

11.1.2.10. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların rəhbərlərinin müavinləri;

11.1.2.11. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə və ya ona bərabər tutulan digər struktur bölmə rəhbərinin müavini;

11.1.2.12. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini;

11.1.2.13. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini;

11.1.2.14. Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini həyata keçirən orqanın Aparatı rəhbərinin müavini və həmin orqanın Aparatında şöbə və ya ona bərabər tutulan digər struktur bölmə rəhbəri;

11.1.2.15. Azərbaycan Respublikası Milli Məclisi Aparatı rəhbərinin müavini və Azərbaycan Respublikası Milli Məclisinin Aparatında şöbə və ya ona bərabər tutulan digər struktur bölmə rəhbəri;

11.1.2.16. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin aparatları rəhbərlərinin müavinləri, habelə həmin dövlət orqanlarının aparatlarında şöbə və ya ona bərabər tutulan digər struktur bölmə rəhbəri;

11.1.2.17. 1-ci kateqoriya dövlət orqanları aparatlarının rəhbərləri;

11.1.3. inzibati vəzifələrin ikinci təsnifatı:

11.1.3.1. Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin köməkçisi;

11.1.3.2. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanlarda struktur bölmə (şöbə) rəhbəri və onun müavini;

11.1.3.3. Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini həyata keçirən orqanın Aparatında şöbə və ya ona bərabər tutulan digər struktur bölmə rəhbərinin müavini;

11.1.3.4. Azərbaycan Respublikası Milli Məclisinin Aparatında şöbə və ya ona bərabər tutulan digər struktur bölmə rəhbərinin müavini;

11.1.3.5. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin aparatlarında şöbə və ya ona bərabər tutulan digər struktur bölmə rəhbərinin müavini;

11.1.3.6. 1-ci kateqoriya dövlət orqanlarının aparatları rəhbərlərinin müavinləri və həmin orqanların aparatlarında struktur bölmə (şöbə) rəhbəri;

11.1.3.7. Azərbaycan Respublikası Baş nazirinin müşaviri, köməkçisi;

11.1.3.8. Azərbaycan Respublikası Milli Məclisi sədrinin müşaviri, köməkçisi;

11.1.3.9. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi və Azərbaycan Respublikası Ali Məhkəməsi sədrlərinin müşavirləri, köməkçiləri;

11.1.3.10. Naxçıvan Muxtar Respublikasında 2-ci kateqoriya dövlət orqanları aparatlarının rəhbərləri;

11.1.3.11. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müşaviri, köməkçisi;

11.1.3.12. müvafiq icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən rəhbərləri;

11.1.3.13. Azərbaycan Respublikasının xarici ölkədə ticarət nümayəndəsi;

11.1.3.14. müvafiq icra hakimiyyəti orqanı rəhbərinin müavini;

11.1.4. inzibati vəzifələrin üçüncü təsnifatı:

11.1.4.1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında mütəxəssis;

11.1.4.2. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində mütəxəssis;

11.1.4.3. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyində mütəxəssis;

11.1.4.4. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanlarda mütəxəssis;

11.1.4.5. Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini həyata keçirən orqanda mütəxəssis;

11.1.4.6. Azərbaycan Respublikası Baş naziri müavininin köməkçisi;

11.1.4.7. Azərbaycan Respublikası Milli Məclisinin Aparatında mütəxəssis;

11.1.4.8. Azərbaycan Respublikası Milli Məclisi sədri müavininin köməkçisi;

11.1.4.9. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin aparatlarında mütəxəssis;

11.1.4.10. 1-ci kateqoriya dövlət orqanlarında struktur bölmə (şöbə) rəhbərinin müavini;

11.1.4.11. 2-ci kateqoriya dövlət orqanları aparatlarının rəhbərləri və onların müavinləri;

11.1.4.12. Naxçıvan Muxtar Respublikasında 2-ci kateqoriya dövlət orqanları aparatları rəhbərlərinin müavinləri və həmin dövlət orqanlarında struktur bölmə (şöbə) rəhbəri;

11.1.4.13. müvafiq icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən rəhbərlərinin müavinləri;

11.1.4.14. müvafiq icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərləri (bu Qanunun 11.1.3.12-ci maddəsi nəzərə alınmaqla);

11.1.4.15. Azərbaycan Respublikası Hesablama Palatası sədrinin və Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) müşavirləri, köməkçiləri;

11.1.5. inzibati vəzifələrin dördüncü təsnifatı:

11.1.5.1. 1-ci kateqoriya dövlət orqanlarında mütəxəssis;

11.1.5.2. 2-ci kateqoriya dövlət orqanlarının aparatlarında struktur bölmə (şöbə) rəhbəri və onun müavini;

11.1.5.3. Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyi rəhbərinin müavini;

11.1.5.4. müvafiq icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri rəhbərlərinin müavinləri (bu Qanunun 11.1.4.13-cü maddəsi nəzərə alınmaqla);

11.1.5.5. müvafiq icra hakimiyyəti orqanları yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət agentlikləri və dövlət xidmətləri aparatlarının rəhbərləri və onların müavinləri;

11.1.5.6. Naxçıvan Muxtar Respublikasında 2-ci kateqoriya dövlət orqanlarının aparatlarında struktur bölmə (şöbə) rəhbərinin müavini;

11.1.5.7. müvafiq icra hakimiyyəti orqanları rəhbərlərinin müşavirləri, köməkçiləri;

11.1.5.8. Azərbaycan Respublikası Audiovizual Şurası sədrinin köməkçisi;

11.1.5.9. Naxçıvan Muxtar Respublikası Baş nazirinin müşaviri, köməkçisi;

11.1.5.10. Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) regional mərkəzinin rəhbəri və onun müavini;

11.1.5.11. müvafiq icra hakimiyyəti orqanı rəhbərinin müavini;

11.1.6. inzibati vəzifələrin beşinci təsnifatı:

11.1.6.1. 2-ci kateqoriya dövlət orqanlarında mütəxəssis;

11.1.6.2. müvafiq icra hakimiyyəti orqanları yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət agentlikləri və dövlət xidmətləri rəhbərlərinin müşavirləri, köməkçiləri;

11.1.6.3. Naxçıvan Muxtar Respublikasında 3-cü kateqoriya müvafiq icra hakimiyyəti orqanları aparatlarının rəhbərləri;

11.1.6.4. 3-cü kateqoriya dövlət orqanlarında struktur bölmə (şöbə) rəhbəri və onun müavini;

11.1.6.5. 4-cü kateqoriya dövlət orqanlarının - müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, müvafiq icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların, müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan orqanların rəhbərləri;

11.1.7. inzibati vəzifələrin altıncı təsnifatı:

11.1.7.1. 3-cü kateqoriya dövlət orqanlarında mütəxəssis;

11.1.7.2. 4-cü kateqoriya müvafiq icra hakimiyyəti orqanının Aparatında struktur bölmə (şöbə) rəhbəri və onun müavini;

11.1.7.3. 4-cü kateqoriya dövlət orqanlarının - müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, müvafiq icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların, müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan orqanların rəhbərlərinin müavinləri;

11.1.7.4. 5-ci kateqoriya dövlət orqanlarının - müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, onların yanında, tabeliyində olan orqanların yerli bölmələrinin rəhbərləri və onların müavinləri;

11.1.8. inzibati vəzifələrin yeddinci təsnifatı:

11.1.8.1. 4-cü və 5-ci kateqoriya dövlət orqanlarının - müvafiq icra hakimiyyəti orqanının, müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, müvafiq icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların, rayon (şəhər) məhkəmələrinin, rayon (şəhər) prokurorluqlarının və hərbi prokurorluqlarının, müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan orqanların, müvafiq icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, onların yanında, tabeliyində olan orqanların yerli bölmələrində mütəxəssis;

11.1.8.2. müvafiq icra hakimiyyəti orqanları yanında olan orqanların rəhbərləri, onların müavinləri və həmin orqanlarda mütəxəssis, müvafiq icra hakimiyyəti orqanlarının inzibati ərazi dairələri üzrə nümayəndələri və sahə inzibati ərazi dairələri nümayəndələri, onların müavinləri və mütəxəssislər.

11.2. Yardımçı vəzifələrin aşağıdakı təsnifatları vardır:

11.2.1. yardımçı vəzifələrin birinci təsnifatı - ali kateqoriya dövlət orqanlarında texniki vəzifələr;

11.2.2. yardımçı vəzifələrin ikinci təsnifatı - 1-ci kateqoriya dövlət orqanlarında texniki vəzifələr;

11.2.3. yardımçı vəzifələrin üçüncü təsnifatı - 2-ci və 3-cü kateqoriya dövlət orqanlarında texniki vəzifələr;

11.2.4. yardımçı vəzifələrin dördüncü təsnifatı - 4-cü və 5-ci kateqoriya dövlət orqanlarında texniki vəzifələr.

11.3. Dövlət orqanları aparatlarının və digər struktur qurumlarının adları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2024-cü il*

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1166-VIQD nömrəli Qanununun tətbiqi və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1166-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 11.1.3.12-ci (ikinci halda), 11.1.4.13-cü (ikinci halda), 11.1.5.5-ci (ikinci halda) və 11.1.6.2-ci (ikinci halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 11.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının, həmçinin 11.1.1.4-cü, 11.1.2.14-cü, 11.1.3.3-cü və 11.1.4.5-ci maddələrində nəzərdə tutulmuş Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini həyata keçirən orqanın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.3. həmin Qanunun 11.1.1.2-ci və 11.1.2.7-ci maddələrində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Azərbaycan Respublikası Birinci vitse-prezidentinin fəaliyyətini təmin edən struktur bölmənin səlahiyyətlərini Azərbaycan Respublikası Prezidenti Administrasiyasının struktur bölməsi - Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyi həyata keçirir;

1.4. həmin Qanunun 11.1.1.3-cü, 11.1.2.10-cu, 11.1.3.2-ci və 11.1.4.4-cü maddələrində nəzərdə tutulmuş Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların səlahiyyətlərini Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti, 11.1.1.3-cü, 11.1.2.10-cu, 11.1.3.2-ci (bölmə (şöbə) rəhbərinə münasibətdə) və 11.1.4.4-cü maddələrində nəzərdə tutulmuş Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların səlahiyyətlərini isə həmçinin Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidməti həyata keçirirlər;

1.5. həmin Qanunun 11.1.3.12-ci (birinci halda), 11.1.4.13-cü (birinci halda), 11.1.4.14-cü, 11.1.5.4-cü, 11.1.5.5-ci (birinci halda) və 11.1.6.2-ci (birinci halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları həyata keçirirlər;

1.6. həmin Qanunun 11.1.3.14-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Bakı Şəhər İcra Hakimiyyəti həyata keçirir;

1.7. həmin Qanunun 11.1.5.7-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları və onlara bərabər tutulan orqanlar (Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası, Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyi) həyata keçirirlər;

1.8. həmin Qanunun 11.1.5.11-ci (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla) və 11.1.7.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

1.9. həmin Qanunun 11.1.6.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları həyata keçirirlər;

1.10. həmin Qanunun 11.1.6.5-ci və 11.1.7.3-cü maddələrində nəzərdə tutulmuş:

1.10.1 müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, müvafiq icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanlar, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri həyata keçirirlər;

1.10.2. müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan orqanların səlahiyyətlərini Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlar həyata keçirirlər;

1.11. həmin Qanunun 11.1.7.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, onların yanında, tabeliyində olan orqanların yerli bölmələrinin səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların yerli bölmələri həyata keçirirlər;

1.12. həmin Qanunun 11.1.8.1-ci maddəsində nəzərdə tutulmuş:

1.12.1. müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

1.12.2. müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, müvafiq icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanlar həyata keçirirlər;

1.12.3. müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan orqanların səlahiyyətlərini Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlar həyata keçirirlər;

1.12.4. müvafiq icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, onların yanında, tabeliyində olan orqanların yerli bölmələrinin səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların yerli bölmələri həyata keçirirlər;

1.13. həmin Qanunun 11.1.8.2-ci maddəsində nəzərdə tutulmuş:

1.13.1. müvafiq icra hakimiyyəti orqanları yanında olan orqanların səlahiyyətlərini yerli icra hakimiyyəti başçılarının yanında olan orqanlar həyata keçirirlər;

1.13.2. ikinci halda müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1166-VIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 28 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 may tarixli 74 nömrəli Fərmanı) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.1-ci bənddə "11.1.5.2-1-ci (ikinci halda), 11.1.6.1-1-ci" sözləri "11.1.3.12-ci (ikinci halda), 11.1.4.13-cü (ikinci halda), 11.1.5.5-ci (ikinci halda), 11.1.6.2-ci" sözləri ilə əvəz edilsin;

3.2. 3.2-ci bənddə "11.4-cü maddəsinin ikinci hissəsində" sözləri "11.3-cü maddəsində" sözləri ilə, "11.1.1.1-ci, 11.1.2.1-ci, 11.1.3.2-ci və 11.1.4.3-cü" sözləri "11.1.1.4-cü, 11.1.2.14-cü, 11.1.3.3-cü və 11.1.4.5-ci" sözləri ilə əvəz edilsin;

3.3. 3.5-ci bənddə "11.1.1.1-ci, 11.1.2.2-ci, 11.1.3.3-cü və 11.1.4.2-ci" sözləri "11.1.1.3-cü, 11.1.2.10-cu, 11.1.3.2-ci və 11.1.4.4-cü" sözləri ilə, "11.1.1.1-ci, 11.1.2.2-ci (müavinə və bölmə rəhbərlərinə münasibətdə) və 11.1.4.2-ci" sözləri "11.1.1.3-cü, 11.1.2.10-cu, 11.1.3.2-ci (bölmə (şöbə) rəhbərinə münasibətdə) və 11.1.4.4-cü" sözləri ilə əvəz edilsin;

3.4. 3.9.2-ci yarımbənddə və 3.22-2-ci bənddə "avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələri" sözləri "olan orqanlar" sözləri ilə əvəz edilsin;

3.5. 3.10-cu bənddə "11.1.1.1-ci və 11.1.2.1-ci" sözləri "11.1.1.2-ci və 11.1.2.7-ci" sözləri ilə əvəz edilsin;

3.6. 3.11-ci bənd ləğv edilsin;

3.7. 3.12-ci bənddə "11.1.3.7-ci" sözləri "11.1.3.14-cü" sözləri ilə əvəz edilsin;

3.8. 3.12-1-ci bənddə "11.1.5.2-1-ci (birinci halda) və 11.1.6.1-1-ci" sözləri "11.1.3.12-ci (birinci halda), 11.1.4.13-cü (birinci halda), 11.1.4.14-cü, 11.1.5.4-cü, 11.1.5.5-ci (birinci halda) və 11.1.6.2-ci" sözləri ilə əvəz edilsin;

3.9. 3.13-cü bənddə "11.1.5.4-cü" sözləri "11.1.5.11-ci" sözləri ilə əvəz edilsin və həmin bənddən "və 11.1.8.2-ci maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının" sözləri çıxarılsın;

3.10. 3.14-cü bənddə "11.1.6.2-ci" sözləri "11.1.6.3-cü" sözləri ilə əvəz edilsin;

3.11. 3.15-ci bəndin birinci abzasında "11.1.6.4-cü" sözləri "11.1.6.5-ci" sözləri ilə əvəz edilsin;

3.12. 3.18-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.18. həmin Qanunun 11.1.8.2-ci maddəsində nəzərdə tutulmuş:

3.18.1. müvafiq icra hakimiyyəti orqanları yanında olan orqanların səlahiyyətlərini yerli icra hakimiyyəti başçılarının yanında olan orqanlar həyata keçirirlər;

3.18.2. ikinci halda müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;";

3.13. 3.22-4-cü bəndə "Qanunun" sözündən sonra "11.1.5.7-ci maddəsində," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyul 2024-cü il*

# E.D.Qurbanovun Oğuz Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Eyvaz Daşdəmir oğlu Qurbanov Oğuz Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyul 2024-cü il*

# C.T.Əbdul-Qədirovun Oğuz Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Cavid Teyrun oğlu Əbdul-Qədirov Oğuz Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyul 2024-cü il*

# İ.M.Məmmədovun 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında media sahəsində səmərəli fəaliyyətinə görə İbrahim Məmməd oğlu Məmmədov 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyul 2024-cü il*

# "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 21, maddə 590; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 23 aprel tarixli 1142-VIQD nömrəli və 7 may tarixli 1146-VIQD nömrəli qanunları) 3-cü maddəsinin ikinci hissəsinin yeddinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

"yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçot onun ailə üzvləri üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunmuş qaydada saxlanılır.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyun 2024-cü il*

# "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 605 (Cild I); 2024, № 1, maddələr 2, 11) aşağıdakı dəyişikliklər edilsin:

1. 14-1.2-ci maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"İmtahanda iştirak ödənişlidir. İmtahanda iştirak etmək üçün ödənişin məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.".

2. 14-1.4-cü maddəyə "sonradan" sözündən sonra "bu Qanunun 14-1.3-cü maddəsinə uyğun olaraq" sözləri əlavə edilsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2024-cü il*

# Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 14-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1110-VIQD nömrəli və 21 may tarixli 1154-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 13.2-ci və 13.5-ci maddələrdə "Nikaha" sözü "Bu Məcəllənin 13.5-1-ci maddəsində göstərilən hal istisna olmaqla, nikaha" sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 13.5-1-ci və 13.5-2-ci maddələr əlavə edilsin:

"13.5-1. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və ya konsulluq idarələrində nikaha daxil olmaq istəyən Azərbaycan Respublikasının vətəndaşları bu Məcəllənin 13.1-ci maddəsində nəzərdə tutulmuş xəstəliklər üzrə tibbi müayinədən öz vəsaitləri hesabına müraciət etdikləri diplomatik nümayəndəliyin (konsulluq idarəsinin) akkreditə olunduğu, yaxud yerləşdiyi xarici dövlətdə seçdikləri tibb müəssisəsində keçə bilərlər.

13.5-2. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və ya konsulluq idarələrində nikaha daxil olmaq barədə verilmiş ərizəyə bu Məcəllənin 13.5-1-ci maddəsində nəzərdə tutulan tibb müəssisələri tərəfindən verilmiş tibbi müayinədən keçdiklərini təsdiq edən sənəd əlavə olunur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2024-cü il*

# "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1199-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 iyun tarixli 1380 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində göstərilən xidmətlərin və həmin xidmətləri göstərən dövlət orqanlarının (qurumlarının) siyahısı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1199-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin ikinci hissəsinin səkkizinci abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 3-cü maddəsinin ikinci hissəsinin səkkizinci abzasında "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin ikinci hissəsinin səkkizinci abzasına uyğun olaraq, yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçotun onun ailə üzvləri üçün saxlanılması qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1199-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 iyun tarixli 1380 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 595 (Cild I) ilə təsdiq edilmiş "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində göstərilən xidmətlərin və həmin xidmətləri göstərən dövlət orqanlarının (qurumlarının) siyahısı"na aşağıdakı məzmunda 5.2-1-ci bənd əlavə edilsin:

| | |
|---|---|
| 5.2-1. | yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçotun onun ailə üzvləri üçün saxlanılması barədə müraciətlərin qəbulu |

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyul 2024-cü il*

# "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1187-VIQD nömrəli Qanununun tətbiqi və "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1187-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununun 14-1.2-ci maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 14-1.2-ci maddəsinin üçüncü cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1187-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 68 (Cild I); 2024, № 1, maddə 26) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "maddəsində" sözündən sonra ", 14-1.2-ci maddəsinin üçüncü cümləsində" sözləri əlavə edilsin;

3.2. 2.2-ci bənddə birinci halda "maddəsində" sözü "maddəsinin birinci cümləsində" sözləri ilə əvəz edilsin;

3.3. aşağıdakı məzmunda 2.2-2-ci bənd əlavə edilsin:

"2.2-2. həmin Qanunun 14-1.2-ci maddəsinin üçüncü cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyul 2024-cü il*

# Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu, 14-cü və 23-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Ailə Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1110-VIQD və 21 may tarixli 1154-VIQD nömrəli qanunları) 164-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında "qeyd olunması" sözləri "qeydə alınması" sözləri ilə əvəz edilsin;

1.2. 164.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"164.4. Ərizə verən şəxslərə vətəndaşlıq vəziyyəti aktının qeydə alınması haqqında müvafiq şəhadətnamə verilir.";

1.3. aşağıdakı məzmunda 164.6-cı maddə əlavə edilsin:

"164.6. Vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınması haqqında şəhadətnamələrdə göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınması haqqında müvafiq şəhadətnamədə göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi həmin şəhadətnamənin təqdim edilməsinə bərabər tutulur.".

**Maddə 2.** "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 18, maddə 244; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) 3-cü maddəsinə aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

"Şəxsiyyət vəsiqəsində göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Şəxsiyyət vəsiqəsində göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi şəxsiyyət vəsiqəsinin təqdim edilməsinə bərabər tutulur.".

**Maddə 3.** "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 364 (Cild I); 2024, № 1, maddə 18) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2-ci maddənin birinci hissəsinin otuz üçüncü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda otuz dördüncü abzas əlavə edilsin:

**"elektron xidmət** - dövlət orqanları (qurumları) tərəfindən səlahiyyətlərinin icrası zamanı digər dövlət orqanlarına (qurumlarına), bələdiyyələrə, fiziki və hüquqi şəxslərə göstərilən və müvafiq hüquqi nəticənin yaranması, yaxud xidmət istifadəçisinə zəruri informasiyanın verilməsi ilə tamamlanan dövlət xidmətlərinin informasiya texnologiyalarından istifadə edilməklə tərəflər arasında bilavasitə təmas olmadan (xidmətin məqsədləri üçün belə təmasın tələb edildiyi hallar istisna olmaqla) elektron qaydada həyata keçirilməsi forması.";

3.2. IV fəslin adına **"TEXNOLOGİYALARI"** sözündən sonra ", **ELEKTRON XİDMƏTLƏR"** sözləri əlavə edilsin;

3.3. 14-cü maddə üzrə:

3.3.1. üçüncü hissədə ", dövlət informasiya sistemlərinin yaradılması müvafiq icra hakimiyyəti orqanları" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

3.3.2. aşağıdakı məzmunda dördüncü-yeddinci hissələr əlavə edilsin:

"Dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) dövlət informasiya ehtiyatının və sisteminin təşkilinin texniki və səmərəlilik baxımından məqsədəuyğunluğu barədə rəyi (bundan sonra - məqsədəuyğunluq barədə rəy) nəzərə alınmaqla, həmin orqanın (qurumun) müəyyən etdiyi texniki tələblər, eləcə də beynəlxalq standartlar və Azərbaycan Respublikasının bu sahədə münasibətləri tənzimləyən normativ hüquqi aktları əsasında həyata keçirilir. Dövlət informasiya ehtiyatları və sistemləri, habelə elektron xidmətlərlə bağlı layihələrə məqsədəuyğunluq barədə rəy verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

Dövlət informasiya ehtiyatının və sisteminin istifadəyə verilməsi həmin informasiya ehtiyatı və sistemi dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrinə daxil edildikdən və Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya edildikdən sonra həyata keçirilir.

Dövlət informasiya ehtiyatlarının və sistemlərinin, habelə elektron xidmətlərin qeydiyyatının həyata keçirilməsi məqsədilə vahid reyestr aparılır. Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrinin aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

Elektron xidmətlər göstərən dövlət informasiya ehtiyatları və sistemləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təhlükəsizlik meyarları üzrə monitorinq olunmalı, mühafizə olunan telekommunikasiya kanalları ilə təmin edilməli və ildə bir dəfədən az olmayaraq təhlükəsizlik üzrə auditi aparılmalıdır. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) informasiya təhlükəsizliyi tələblərinə cavab verməsi barədə müsbət rəy alınmadan dövlət informasiya ehtiyatları və sistemləri vasitəsilə elektron xidmətlərin göstərilməsinə yol verilmir.";

3.4. aşağıdakı məzmunda 14-1-ci və 14-2-ci maddələr əlavə edilsin:

**"Maddə 14-1. Elektron xidmətlərin təşkili və göstərilməsi**

14-1.1. Dövlət orqanları (qurumları) elektron xidmətlərin təşkilini və göstərilməsini "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa və dövlət xidmətlərinin həyata keçirilməsi sahəsində münasibətləri tənzimləyən digər normativ hüquqi aktlara, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi texniki tələblərə uyğun olaraq təmin edirlər.

14-1.2. Elektron xidmətlərin təşkili müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) bu Qanunun 14-cü maddəsinin dördüncü hissəsində qeyd olunan qaydaya uyğun olaraq verdiyi məqsədəuyğunluq barədə rəyi nəzərə alınmaqla həyata keçirilir. Elektron xidmətlər məqsədəuyğunluq barədə müsbət rəy alındıqdan və ya rəydə qeyd edilən təkliflər əsasında təkmilləşdirmələr aparıldıqdan, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) dövlət informasiya ehtiyatı və sisteminin informasiya təhlükəsizliyi tələblərinə cavab verməsi barədə müsbət rəy alındıqdan, dövlət informasiya ehtiyatı və sistemi mühafizə olunan telekommunikasiya kanalları ilə təmin edildikdən, elektron xidmət dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrinə daxil edildikdən və Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya olunduqdan sonra həmin sistem vasitəsilə göstərilir.

14-1.3. Elektron xidmətlərin təşkili və göstərilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 14-2. Elektron xidmətlərin təşkili və göstərilməsi, habelə dövlət informasiya ehtiyatlarının və sistemlərinin təşkili və fəaliyyəti üzrə tələblərə uyğunluğun təmin edilməsi**

14-2.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) elektron xidmətlərin təşkili və göstərilməsinə, texnoloji avadanlığa və proqram təminatına, habelə dövlət informasiya ehtiyatlarının və sistemlərinin təşkili və fəaliyyətinə, o cümlədən formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsinə, texnoloji avadanlığa və proqram təminatına dair tələblərin tətbiqi ilə bağlı məsələlər üzrə dövlət orqanlarına (qurumlarına) yazılı və şifahi şəkildə izahlar verir, habelə qarşıya çıxan çətinliklərin aradan qaldırılmasına dair metodiki kömək göstərir.

14-2.2. Bu Qanunun 14-2.1-ci maddəsində qeyd olunan tələblərə riayət edilməsi vəziyyətinin öyrənilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) dövlət orqanlarına (qurumlarına) göndərdiyi sorğular 5 (beş) iş günündən gec olmayaraq cavablandırılmalıdır.

14-2.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) elektron xidmətlərin təşkili və göstərilməsi, habelə dövlət informasiya ehtiyatlarının və sistemlərinin təşkili və fəaliyyəti üzrə qiymətləndirilməni müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən qaydada həyata keçirir. Dövlət orqanları (qurumları) qiymətləndirilmənin aparılmasına zəruri şərait yaratmalı, o cümlədən normativ hüquqi aktların tələblərinə uyğun olmasına nəzarət etmək məqsədilə dövlət informasiya sisteminə və ehtiyatına çıxış, habelə onların texnoloji infrastrukturu ilə tanışlıq (baxış) və test etmə imkanlarını təmin etməlidir.

14-2.4. Dövlət orqanları (qurumları) bu Qanunun 14-2.1-ci maddəsində qeyd olunan tələblərin pozulması hallarının aradan qaldırılmasına dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) göstərişlərini yerinə yetirməlidir.".

**Maddə 4.** "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 480 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 5.6-cı maddəyə "yazılı" sözündən sonra "(o cümlədən Elektron Hökumət İnformasiya Sistemi üzərindən)" sözləri əlavə edilsin;

4.2. 8-ci maddə üzrə:

4.2.1. 8.2-ci maddənin birinci abzasına "yazılı" sözündən sonra "(o cümlədən Elektron Hökumət İnformasiya Sistemi üzərindən)" sözləri əlavə edilsin;

4.2.2. aşağıdakı məzmunda 8.6-cı maddə əlavə edilsin:

"8.6. Bu Qanunun 3.2-ci maddəsində qeyd edilən hallar, habelə Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunmuş qaydada fərdi məlumatların məcburi şəkildə toplanılması və işlənilməsi istisna olmaqla, fərdi məlumatların toplanılmasına və işlənilməsinə subyektlərin razılığının alınması və geri çağırılması mərkəzləşdirilmiş qaydada Elektron Hökumət İnformasiya Sistemi üzərindən təmin edilir.";

4.3. aşağıdakı məzmunda 9.7.1-1-ci maddə əlavə edilsin:

"9.7.1-1. subyektin yazılı (o cümlədən Elektron Hökumət İnformasiya Sistemi üzərindən) razılığı olduqda;";

4.4. 13-cü maddə üzrə:

4.4.1. 13.1-ci maddəyə "yazılı" sözündən sonra "(o cümlədən Elektron Hökumət İnformasiya Sistemi üzərindən)" sözləri əlavə edilsin;

4.4.2. 13.3-cü maddənin birinci cümləsinə "tərəfindən" sözündən sonra "yazılı surətdə (o cümlədən Elektron Hökumət İnformasiya Sistemi üzərindən)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyun 2024-cü il*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135; Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1099-VIQD nömrəli, 29 mart tarixli 1116-VIQD nömrəli, 5 aprel tarixli 1127-VIQD nömrəli, 19 aprel tarixli 1134-VIQD nömrəli və 7 may tarixli 1148-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 54.2-ci maddənin birinci cümləsinə "184.8," rəqəmlərindən sonra "184.17 (səlahiyyətlərinə aid edilmiş inzibati xətalara münasibətdə)," sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 405-1-ci və 451-1-ci maddələr əlavə edilsin:

**"Maddə 405-1. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının tamamilə ödənilməməsi və ya ödənilmiş nizamnamə kapitalı barədə məlumatın verilməməsi**

405-1.1. Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş müddətdə məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının tamamilə ödənilməməsinə görə -

vəzifəli şəxslər min manat məbləğində, hüquqi şəxslər iki min manat məbləğində cərimə edilir.

405-1.2. Məhdud məsuliyyətli cəmiyyətin tamamilə ödənilmiş nizamnamə kapitalı barədə məlumatın "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş müddətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) verilməməsinə görə -

vəzifəli şəxslər beş yüz manat məbləğində, hüquqi şəxslər min manat məbləğində cərimə edilir.";

**"Maddə 451-1. Qeydiyyata alınmadan tütün məmulatının istehsalı fəaliyyəti ilə məşğul olma**

"Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada qeydiyyata alınmadan tütün məmulatının istehsalı fəaliyyəti ilə məşğul olmağa görə -

vəzifəli şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə, hüquqi şəxslər on min manatdan on iki min manatadək məbləğdə cərimə edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2024-cü il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1168-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1168-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 405-1.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 405-1.2-ci maddəsində "orqan (qurum)" dedikdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1168-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151,157) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.1-ci bəndə "395.1-1," rəqəmlərindən sonra "405-1.2," rəqəmləri əlavə edilsin;

3.2. 4.24-cü, 4.31-ci, 4.34-1-ci, 4.36-cı, 4.41-ci, 4.43-1-ci, 4.45-ci, 5.6-2-ci, 5.18-ci, 5.18-1-ci, 5.19-cu, 5.21-ci, 5.22-ci, 5.41-ci, 5.44-cü, 5.45-ci və 5.51-ci bəndlərdən "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında" sözləri çıxarılsın;

3.3. aşağıdakı məzmunda 4.31-1-ci bənd əlavə edilsin:

"4.31-1. həmin Məcəllənin 405-1.2-ci maddəsində "orqan (qurum)" dedikdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;";

3.4. 4.48-1-ci bənddən "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında" və "ya müvafiq olaraq, Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti," sözləri çıxarılsın;

3.5. 5.46-cı bəndə "Məcəllənin" sözündən sonra "405-1," rəqəmləri, "449-1," rəqəmlərindən sonra "451-1," rəqəmləri əlavə edilsin və həmin bənddən "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında" sözləri çıxarılsın.

4. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 671 (Cild I) 2.6-cı bəndindən "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında" və "və ya müvafiq olaraq, Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti" sözləri çıxarılsın.

5. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 4 iyun tarixli 83 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 6-cı hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. birinci abzasdan "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında" sözləri çıxarılsın;

5.2. 6.0-cı bəndə "430.1" rəqəmlərindən əvvəl "405-1," rəqəmləri, "449-1," rəqəmlərindən sonra "451-1," rəqəmləri əlavə edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 542 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 30 may tarixli 77 nömrəli və 12 iyun tarixli 99 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Əsasnaməsi"nin 5.1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"5.1. Xidmətin Aparatı, onun strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar, habelə Naxçıvan Muxtar Respublikasının aidiyyəti qurumu Xidmətin vahid sistemini təşkil edir. Xidmət öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyul 2024-cü il*

# "Respublika Qan Bankı" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qan və qan komponentlərinin donorluğu və qan xidməti sahəsində fəaliyyətin səmərəliliyini daha da artırmaq məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində "Respublika Qan Bankı" (bundan sonra - Qan Bankı) publik hüquqi şəxs yaradılsın.

2. Müəyyən edilsin ki:

2.1. Qan Bankı qan və qan komponentlərinə olan tələbatın ödənilməsi sahəsində fəaliyyət göstərən, qan və qan komponentlərinin tədarükünü, emalını, yoxlanılmasını, saxlanılmasını və bölüşdürülməsini təmin edən publik hüquqi şəxsdir;

2.2. Qan Bankının fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

2.3. Qan Bankının fəaliyyətinə cari rəhbərliyi icraçı direktor həyata keçirir.

3. Qan Bankının təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. Qan Bankının yenidən təşkili və ləğv edilməsi;

3.1.2. Qan Bankının idarəetmə orqanlarının yaradılması;

3.2. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə:

3.2.1. bu Fərmanın 3.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi:

5.1. Qan Bankının nizamnaməsini iki ay müddətində təsdiq etsin;

5.2. Qan Bankının dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

5.3. Qan Bankı dövlət qeydiyyatına alındıqdan sonra onun strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini bir ay müddətində təsdiq etsin;

5.4. bu Fərmanın 2.1-ci bəndi nəzərə alınmaqla, Milli Hematologiya və Transfuziologiya Mərkəzinin nizamnaməsində, strukturunda və işçilərinin say həddində dəyişiklik edilməsi üçün zəruri tədbirlər görsün;

5.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Qan Bankı dövlət qeydiyyatına alındığı günədək Milli Hematologiya və Transfuziologiya Mərkəzinin qan xidməti sahəsində fəaliyyət göstərən struktur bölmələri fəaliyyətini həmin Mərkəzin tabeliyində davam etdirsinlər.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyul 2024-cü il*

# "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 11-ci, 15-ci və 26-cı bəndlərini rəhbər tutaraq, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740 (Cild I); 2024, № 1, maddələr 10, 16; Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1154-VIQD nömrəli Qanunu) 18.71-ci maddəsində "ekspertizasına aid edilən obyektlər barədə ekspert" sözləri "ekspertizasının" sözü ilə əvəz edilsin.

**Maddə 2.** "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 70 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1169-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.0.22-ci və 1.0.23-cü maddələrdə ismin müvafiq hallarında "qeydiyyat vəsiqəsi" sözləri ismin müvafiq hallarında "vəsiqə" sözü ilə əvəz edilsin;

2.2. 6-2-ci maddə üzrə:

2.2.1. 6-2.2.5-ci maddədə "qeydiyyat vəsiqəsinin" sözləri "vəsiqənin" sözü ilə əvəz edilsin;

2.2.2. 6-2.4-cü maddənin ikinci cümləsində "11 (on bir)" sözləri "14 (on dörd)" sözləri ilə əvəz edilsin;

2.2.3. 6-2.5-ci maddənin ikinci cümləsində "eyni zamanda ərizəçiyə" sözləri "ərizəçiyə eyni zamanda" sözləri ilə əvəz edilsin;

2.2.4. 6-2.11-ci maddənin ikinci cümləsində "2 (iki)" sözləri "5 (beş)" sözləri ilə əvəz edilsin;

2.3. 11.3-cü maddənin ikinci cümləsində "qeydiyyat vəsiqəsinin" sözləri "dövlət qeydiyyatı haqqında vəsiqənin" sözləri ilə əvəz edilsin;

2.4. 16-1.4-cü maddədə "qeydiyyatına alınmasını təsdiq edən qeydiyyat vəsiqəsinin" sözləri "qeydiyyatı haqqında vəsiqənin" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 812 (Cild I); 2024, № 4, maddə 365; Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1127-VIQD nömrəli, 19 aprel tarixli 1135-VIQD nömrəli, 23 aprel tarixli 1142-VIQD nömrəli və 31 may tarixli 1169-VIQD nömrəli qanunları) 29.1-ci maddəsinin ikinci hissəsində "qeydiyyatına alınmasını təsdiq edən qeydiyyat vəsiqəsinin" sözləri "qeydiyyatı haqqında vəsiqənin" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Media haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 90 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1117-VIQD nömrəli və 19 aprel tarixli 1137-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 54.3-cü maddənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd bu Qanunun 54.2-ci maddəsində nəzərdə tutulan müddətdə Şuraya təqdim edilmədikdə, Şura tərəfindən bu Qanunun 58.2-ci maddəsində göstərilən tədbirlər görülür.";

4.2. 55.7-ci maddənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd bu Qanunun 55.6-cı maddəsində nəzərdə tutulan müddətdə Şuraya təqdim edilmədikdə, Şura tərəfindən bu Qanunun 58.2-ci maddəsində göstərilən tədbirlər görülür.";

4.3. 58.1.12-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 58.1.13-cü maddə əlavə edilsin:

"58.1.13. dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd bu Qanunun 54.2-ci və 55.6-cı maddələrində nəzərdə tutulan müddətdə Şuraya təqdim edilmədikdə.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyun 2024-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" 2024-cü il 28 iyun tarixli 1201-VIQD nömrəli qanunlarının icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238 (Cild I); 2024, № 3, maddə 262; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 may tarixli 63 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 6-cı hissənin "Göstərdiyi xidmətlər" sütununun 2-ci bəndində "ekspertizasından keçirilməli olan obyektlər barədə ekspert" sözləri "ekspertizası" sözü ilə əvəz edilsin.

2. 8-ci hissənin "Göstərdiyi xidmətlər" sütununun 3-cü bəndində "reyestrinə daxil edilməsi" sözləri "reyestrində qeydiyyatdan keçirilməsi" sözləri ilə əvəz edilsin.

3. 14-cü hissənin "Göstərdiyi xidmətlər" sütununun 2-ci bəndində "qeydiyyat vəsiqəsi" sözləri "vəsiqə" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyul 2024-cü il*

# "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1193-VIQD nömrəli Qanununun tətbiqi və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli 729 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1193-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin üçüncü hissəsində, dördüncü hissəsinin birinci və ikinci cümlələrində, altıncı hissəsinin ikinci cümləsində, yeddinci hissəsinin birinci və ikinci cümlələrində, 14-1.1-ci maddəsində, 14-1.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 14-1.3-cü, 14-2.1-ci, 14-2.2-ci maddələrində, 14-2.3-cü maddəsinin birinci cümləsində (hər iki halda) və 14-2.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 14-2.3-cü maddəsinin birinci cümləsində (ikinci halda) nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirir;

1.3. həmin Qanunun 14-cü maddəsinin üçüncü hissəsində, dördüncü hissəsinin ikinci cümləsində, altıncı hissəsinin ikinci cümləsində və 14-1.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 14-cü maddəsinin dördüncü hissəsinin birinci cümləsində, 14-1.1-ci maddəsində, 14-1.2-ci maddəsinin birinci cümləsində, 14-2.1-ci, 14-2.2-ci maddələrində, 14-2.3-cü maddəsinin birinci cümləsində (birinci halda) və 14-2.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 14-cü maddəsinin yeddinci hissəsinin birinci və ikinci cümlələrində və 14-1.2-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. beş ay müddətində:

2.1.1. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 14-2.3-cü maddəsinin birinci cümləsinə uyğun olaraq, elektron xidmətlərin təşkili və göstərilməsi, habelə dövlət informasiya ehtiyatlarının və sistemlərinin təşkili və fəaliyyəti üzrə qiymətləndirilmənin həyata keçirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

2.1.2. aşağıdakı normativ hüquqi aktları müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.1.2.1. həmin Qanunun 14-cü maddəsinin dördüncü hissəsinin ikinci cümləsinə uyğun olaraq, dövlət informasiya ehtiyatları və sistemləri, habelə elektron xidmətlərlə bağlı layihələrə texniki və səmərəlilik baxımından məqsədəuyğunluq barədə rəy verilməsi qaydasını;

2.1.2.2. həmin Qanunun 14-cü maddəsinin altıncı hissəsinin ikinci cümləsinə uyğun olaraq, dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrinin aparılması qaydalarını;

2.1.2.3. həmin Qanunun 14-1.3-cü maddəsinə uyğun olaraq, elektron xidmətlərin təşkili və göstərilməsi qaydalarını;

2.2. "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1193-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1193-VIQD nömrəli Qanunundan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

4. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli 729 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 390 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bənddə "20-1.3-cü maddəsində" sözləri "14-cü maddəsinin üçüncü hissəsində, dördüncü hissəsinin birinci və ikinci cümlələrində, altıncı hissəsinin ikinci cümləsində, yeddinci hissəsinin birinci və ikinci cümlələrində, 14-1.1-ci maddəsində, 14-1.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 14-1.3-cü, 14-2.1-ci, 14-2.2-ci maddələrində, 14-2.3-cü maddəsinin birinci cümləsində (hər iki halda), 14-2.4-cü, 20-1.3-cü maddələrində" sözləri ilə əvəz edilsin;

4.2. 2.1-1-ci bəndə "abzasında," sözündən sonra "14-2.3-cü maddəsinin birinci cümləsində (ikinci halda)," sözləri əlavə edilsin;

4.3. aşağıdakı məzmunda 2.1-2-ci bənd əlavə edilsin:

"2.1-2. həmin Qanunun 14-cü maddəsinin üçüncü hissəsində, dördüncü hissəsinin ikinci cümləsində, altıncı hissəsinin ikinci cümləsində və 14-1.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

4.4. 2.2-ci bənddə ", 13-1.3-cü maddəsində və 14-cü maddəsinin üçüncü hissəsində" sözləri "və 13-1.3-cü maddəsində" sözləri ilə əvəz edilsin;

4.5. 2.3-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.4-cü və 2.5-ci bəndlər əlavə edilsin:

"2.4. həmin Qanunun 14-cü maddəsinin dördüncü hissəsinin birinci cümləsində, 14-1.1-ci maddəsində, 14-1.2-ci maddəsinin birinci cümləsində, 14-2.1-ci, 14-2.2-ci maddələrində, 14-2.3-cü maddəsinin birinci cümləsində (birinci halda) və 14-2.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

2.5. həmin Qanunun 14-cü maddəsinin yeddinci hissəsinin birinci və ikinci cümlələrində və 14-1.2-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyul 2024-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 340 **QƏRAR** Bakı şəhəri, 15 iyul 2024-cü il

**"Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamının 2.1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 992 (Cild I); 2024, № 1, maddə 92, № 4, maddə 459) 2-ci hissəsində "iyulun" sözü "oktyabrın" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Müdafiə Nazirliyinin rəhbər heyəti Qazaxıstanın hərbi gəmilərindən birini ziyarət edib





**Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyətinin Qazaxıstana səfəri davam edir.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, general-polkovnik Z.Həsənov rəhbərlik etdiyi nümayəndə heyəti, qazaxıstanlı həmkarı general-polkovnik Ruslan Jaksılıkov və "Birləşdik-2024" beynəlxalq əməliyyat-taktiki komanda-qərargah təliminin iştirakçı dövlətlərinin Müdafiə nazirliklərinin rəhbərlikləri ilə birgə Qazaxıstanın hərbi gəmilərindən birini ziyarət edib. Gəmi ilə səfər zamanı raket-artilleriya gəmisinin və heyətin əsas fəaliyyət istiqamətləri ilə bağlı müdafiə nazirlərinə məruzə edilib. Qonaqlar hərbi dənizçilərin nümunəvi çıxışlarını izləyiblər.

Sonra nümayəndələr Qazaxıstan Hərbi Dəniz Qüvvələrinin Dalğıc mərkəzinə gələrək burada yaradılan şəraitlə tanış olub, silahlanmada olan kiçik və iriçaplı silahlara, texniki avadanlıqlara baxış keçiriblər.

Daha sonra hərbi hissələrdən biri ziyarət olunub. Qonaqlara burada yaradılan şəraitlə bağlı ətraflı məlumat verilib və hərbi hissənin ərazisindəki təlim trenajorları nümayiş etdirilib.

# Beynəlxalq Miqrasiya Təşkilatının nümayəndəsi məcburi köçkünlərin doğma yurdlarına qayıtmaları üçün aparılan işlər barədə məlumatlandırılıb

**İyulun 16-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı missiyasının rəhbəri Troy Duli ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı missiyanın rəhbəri etimadnamə məktubunun surətini nazir Ceyhun Bayramova təqdim edib.

Nazir Troy Duliyə fəaliyyəti müddətində uğurlar arzulayıb.

Görüşdə Azərbaycan ilə Beynəlxalq Miqrasiya Təşkilatı arasında əməkdaşlıq perspektivləri, eləcə də cari ildə ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq işlərindən irəli gələn məsələlər müzakirə olunub.

Nazir Ceyhun Bayramov ölkəmizin Beynəlxalq Miqrasiya Təşkilatı ilə sıx əməkdaşlığının mövcud olduğunu qeyd edərək, xüsusilə miqrasiya sahəsində qanunvericiliyin və institutların təkmilləşdirilməsi üzrə birgə layihələrin icrasının məmnunluq doğurduğunu bildirib.

Keçmiş Ermənistan-Azərbaycan münaqişəsinə toxunan nazir münaqişə nəticəsində ölkəmizin genişmiqyaslı miqrasiya problemi ilə üzləşdiyini, Ermənistandan və Azərbaycanın işğal olunmuş ərazilərindən 1 milyona yaxın azərbaycanlının qaçqın və məcburi köçkün düşdüyünü xatırladıb. Postmünaqişə dövründə məcburi köçkünlərin doğma yurdlarına qayıtmaları üçün aparılan işlər barədə məlumat verilib.

Ölkəmizin cari ildə COP29-a evsahibliyi edəcəyini xatırladan nazir Ceyhun Bayramov iqlim dəyişikliyinin əlaqədar olduğu bir sıra sahələr, o cümlədən miqrasiya istiqaməti üzrə əməkdaşlığın vacibliyini vurğulayıb. Bu istiqamətdə Beynəlxalq Miqrasiya Təşkilatı ilə əməkdaşlığa hazır olduğumuz diqqətə çatdırılıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# *Metyu MİLLER:* "Biz Azərbaycanla Ermənistan arasında sülhün mümkünlüyünə inanırıq"

**"Dövlət katibi Entoni Blinkenin də Azərbaycan və Ermənistan xarici işlər nazirləri ilə görüşü zamanı açılışda dediyi kimi, tərəflər inanılmaz irəliləyiş əldə ediblər və uzun yol qət ediblər".**



AZƏRTAC-ın məlumatına görə, bu sözləri Dövlət Departamentinin sözçüsü Metyu Miller mətbuat konfransı zamanı deyib. O bildirib ki, ABŞ-nin davam edə biləcək işi onları irəli addımlamağa sövq etməkdir. "Sülh sazişi hər iki xalq və ümumilikdə regionda sülh, stabillik və təhlükəsizlik üçün çox vacibdir. Biz inanırıq ki, sülh mümkündür, lakin bu tərəflərin çətin qərarlar qəbul etməsini, kompromisə getməsini tələb edir. Bu son fikir ayrılığını həll etmək və sazişə nail olmaq üçün tərəflərə təkan verməyə davam edəcəyik", - deyə Dövlət Departamentinin rəsmisi bildirib.

# BMT-də Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinin icrası üzrə 4-cü Könüllü Milli Hesabatı təqdim olunub

**İyulun 15-də BMT-nin Nyu Yorkdakı mənzil-qərargahında qurumun Yüksək Səviyyəli Siyasi Forumu keçirilib. AZƏRTAC-ın verdiyi məlumata görə, iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinin icrası üzrə 4-cü Könüllü Milli Hesabatını təqdim edib.**





Hesabatda Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olmaq istiqamətində Azərbaycan Hökuməti tərəfindən həyata keçirilmiş tədbirlər, əldə olunmuş uğurlar, o cümlədən DİM-ə investisiyaların cəlb olunması mexanizmi, işğaldan azad olunmuş ərazilərin bərpası, yenidən qurulması, bu ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası, eyni zamanda dayanıqlı və inklüziv inkişaf sahəsində həyata keçirilən tədbirlər haqqında geniş məlumat öz əksini tapıb. Sahib Məmmədov bildirib ki, Azərbaycan ərazisi dünyada ən çox minadan çirklənmiş 5 ölkə sırasındadır: "Minalar işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası prosesinə mane törətməklə yanaşı, Azərbaycan vətəndaşlarının mina qurbanına çevrilməsinə səbəb olur. Bu məqsədlə Prezident İlham Əliyevin təşəbbüsü ilə 18-ci DİM irəli sürülüb və tərəfimizdən bu təşəbbüsün reallaşdırılması üçün 18-ci dayanıqlı inkişaf məqsədinin layihəsi hazırlanaraq yerli və beynəlxalq ictimaiyyətə təqdim olunub. 4-cü Könüllü Milli Hesabatda 18-ci DİM-in mahiyyəti və məqsədi ətraflı izah olunub".

Sahib Məmmədov deyib ki, hesabat 2030-cu il gündəliyində göstərilmiş DİM-in icrası ilə bağlı yerli və qlobal çağırışların yumşaldılması istiqamətində vacib fəaliyyət planı təqdim edilir.

Nazir müavini əlavə edib ki, Azərbaycanın DİM ilə bağlı qətiyyətli öhdəliyi "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində göstərilmiş milli inkişaf gündəliyinə daxil edilib. Qeyd olunub ki, DİM-ə uyğun olaraq son 10 ildə Azərbaycanda dayanıqlı artım müşahidə olunub, minimum əməkhaqqı 3 dəfə, orta aylıq gəlirlər 2 dəfə və minimum təqaüd 2,4 dəfə artıb.

Bildirilib ki, ekoloji davamlılıq Azərbaycanın inkişaf siyasətinin əsas hissələrindən birini təşkil edir və enerji keçidi Azərbaycanın "yaşıl iqtisadiyyat"a keçid gündəliyində mərkəzi mövqedə durur. "Azərbaycanın hədəfi 2026-cı ilə kimi elektrik enerjisi istehsalı sahəsində bərpaolunan enerjinin payını 24 faizə çatdırmaqdır. Bu rəqəmin 2030-cu ilə kimi 30 faiz olması planlaşdırılır. Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrə əsasən, Azərbaycan istixana effekti yaradan qaz emissiyalarının həcmini 40 faiz azaltmağı qarşısına məqsəd qoyub. Bununla yanaşı, biz Qarabağ və Şərqi Zəngəzuru xalis sıfır emissiya zonasına çevirməyi hədəfləmişik. Azərbaycan bu il COP29 tədbirinə evsahibliyi edəcək. Bu baxımdan, nəzərəçarpan nəticələrə nail olmaq üçün qlobal dialoqun və əməkdaşlığın asanlaşdırılmasındakı rolumuzu həlledici hesab edirik", - deyə nazir müavini qeyd edib.

O bildirib ki, Azərbaycan dayanıqlı inkişafla bağlı öhdəliklərinə sadiqdir və qlobal tərəfdaşlarla birlikdə çiçəklənən və dayanıqlı gələcək naminə işləməyə hazırdır.

Daha sonra Sahib Məmmədov Yüksək Səviyyəli Siyasi Forum iştirakçılarının Könüllü Milli Hesabatla bağlı suallarını cavablandırıb.

# BMT-də ölkəmizin mina təhlükəsizliyi sahəsində fəaliyyətinə dair konfrans keçirilib

**BMT-nin Nyu York şəhərində yerləşən mənzil-qərargahında Yüksək Səviyyəli Siyasi Forum çərçivəsində "Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq və heç kəsi kənarda qoymamaq naminə mina və partlamamış hərbi sursat fəaliyyətləri" adlı paralel tədbir keçirilib.**





AZƏRTAC xəbər verir ki, tədbir Azərbaycanın İqtisadiyyat Nazirliyinin, Laos Xarici İşlər Nazirliyinin, BMT İnkişaf Proqramının, Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyanın (UNESCAP) birgə təşkilatçılığı ilə baş tutub.

Laosun Baş nazirinin müavini, xarici işlər naziri Salemsay Kommasit bildirib ki, partlamamış hərbi sursat və minalar Laosda inkişafa mane olur, müharibənin qalıqlarının aradan qaldırılmasında ciddi təhlükə yaradır. Onun sözlərinə görə, ölkənin hazırda üçdəbiri partlamamış hərbi sursatla çirklənib.

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov Laos və Azərbaycanın UNESCAP tərəfindən irəli sürülmüş Könüllü Milli Hesabat tvinninq təşəbbüsü çərçivəsində əməkdaşlıq etdiyini bildirib. Onun sözlərinə görə, konfransın mövzusu Azərbaycan, o cümlədən bəşəriyyət üçün əhəmiyyət kəsb edir. Nazir müavini əlavə edib ki, Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) icrasında qarşıya çıxan əsas problemlərdən biri beynəlxalq sülh və rifahın təmin olunması sahəsində qlobal təşəbbüslərə kölgə salan mina problemi məsələsidir. Bu baxımdan o, Azərbaycanın adının dünyanın 5 ən çox minalanmış ölkələri siyahısına daxil edildiyini vurğulayıb: "Bu minalar Azərbaycanda insan təhlükəsizliyi üçün böyük təhdid təşkil etməyə davam edir. Təxminən 3400 azərbaycanlı mina partlayışının qurbanı olub. Onlardan təxminən 600-ü ölümlə nəticələnib. Mina partlayışına görə həyatını itirənlərdən 358-i uşaq, 30-u qadındır".

Sahib Məmmədov bildirib ki, ərazilərin minalarla çirklənməsi əhalinin həyat və yaşayışını təhlükə altına alır, yüz minlərlə məcburi köçkünün öz evlərinə qayıtmasına mane törədir. O əlavə edib ki, bərpa istiqamətində minasızlaşdırmanın vacib rolunu qəbul edən Azərbaycan 18-ci milli Dayanıqlı İnkişaf Məqsədini irəli sürüb.

İqtisadiyyat Nazirliyinin Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri Hüseyn Hüseynov 18-ci milli Dayanıqlı İnkişaf Məqsədinin məqsəd və hədəfləri barədə geniş təqdimatla çıxış edib.

BMT Baş katibinin köməkçisi, BMT İnkişaf Proqramının (UNDP) Avropa və MDB üzrə regional direktoru İvana Zivkoviç təmsil etdiyi qurumun Azərbaycanda aktiv komandasının fəaliyyət göstərdiyini qeyd edib. Onun sözlərinə görə, komanda mina məsələsi də daxil olmaqla sıx gündəliyə malikdir. UNDP rəsmisi, həmçinin Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) ilə bu yaxınlarda beynəlxalq mina fəaliyyətinə dair konfrans keçirdiklərini əlavə edib. "UNDP mina çirklənməsi və partlamamış hərbi sursatlarla mübarizə aparan ölkələri dəstəkləyir. Bu dəstəyə ən yaxşı təcrübələrlə bağlı informasiya mübadiləsi, süni intellekt, dron, peyk kimi yeni texnologiyalarla bağlı məlumat paylaşımı, heyvanların, o cümlədən itlərin mina fəaliyyətlərinə cəlb olunması sahəsində təcrübə mübadiləsi daxildir. Azərbaycanın da bu sahədə çox yaxşı təcrübəsi var. Mən buna şəxsən şahid olmuşam. ANAMA və UNDP arasında Mükəmməllik Mərkəzi yaradılıb. Bu mərkəz gələcək dövrlər üçün fəaliyyətləri inkişaf etdirir və ilkin mərhələdə Azərbaycana, növbəti mərhələdə isə regionda və dünyanın digər bölgələrində yerləşən ölkələrə dəstək məqsədi daşıyır. Əməkdaşlığımızdan böyük gözləntilərimiz var", - deyə BMT Baş katibinin köməkçisi bildirib.

Azərbaycanın əmək və əhlinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov mina qurbanlarının sosial müdafiəsi barədə danışıb və nazirliyin onların həyat şəraitinin inkişafı və təminatı sahəsində əhəmiyyətli addımlar atdığını qeyd edib. Nazir müavini bildirib ki, minadan əziyyət çəkən insanların sosial ödənişlərinin artırılması və sosial müavinətlərin təyin edilməsi üçün vacib qanunvericilik təşəbbüsləri irəli sürülüb. "Bu baxımdan, 10 yeni sosial müavinət təyin edilib. 2018-ci ildə 4 sosial islahatlar paketi həyata keçirilib. Artırılmış sosial müavinətlər əhalinin ən həssas təbəqəsinə yönləndirlir. Onların əhatəsi 60 faiz artaraq 880 min insanı əhatə edib", - deyə Anar Kərimov bildirib.

Nazir müavini əlavə edib ki, mina qurbanları sosial sığorta proqramı çərçivəsində birdəfəlik təzminatla təmin olunurlar. Təzminatın məbləği mina insidenti nəticəsində baş vermiş xəsarətin dərəcəsindən asılıdır. O, həmçinin vurğulayıb ki, mina qurbanları müxtəlif tibbi və fiziki sosial reabilitasiya xidmətlərindən yararlanmaq şansına malikdirlər. Bu baxımdan 700 yataq yerinə malik 14 reabilitasiya mərkəzinin yaradıldığını qeyd edib.

Sonda Azərbaycan nümayəndə heyəti tədbir iştirakçılarının suallarını cavablandırıb.

# Azərbaycan və İran arasında diplomatik əlaqələrin normallaşması bölgənin sabitlik və əməkdaşlıq ruhu baxımından vacibdir

**"Azərbaycan və İran arasında münasibətlərin normallaşması və diplomatik əlaqələrin yenidən lazımi səviyyəyə gətirilməsini, bölgənin sabitlik və əməkdaşlıq ruhu baxımından vacib hesab edirik".**




AZƏRTAC xəbər verir ki, bu sözlər Türkiyə Xarici İşlər Nazirliyinin (XİN) açıqlamasında əksini tapıb.

Türkiyə XİN açıqlamasında İrandakı səfirliyimizin fəaliyyətinin bərpasını məmnuniyyətlə qarşıladığını vurğulayıb.

# Azərbaycanın xarici siyasətinin uğurları

## Azərbaycan islam həmrəyliyini möhkəmləndirən ölkədir



**Son illərdə Azərbaycanın həm Avropanın, həm də Asiyanın müxtəlif regionlarında yerləşən dövlətləri ilə ikitərəfli əlaqələri ölkəmizi qitələrarası qovşağa çevirib. Eyni zamanda ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin vacib istiqamətlərindən biridir.**

Eləcə də Avrasiyanın bir çox ölkəsi siyasi və iqtisadi çəkisi getdikcə daha da artan Azərbaycanla əməkdaşlıqlarını dərinləşdirməkdə maraqlıdır. Buna görədir ki, Azərbaycanın sıx dostluq və qardaşlıq əlaqələri qurduğu, qarşılıqlı münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksələn ölkələrin sayı artır.

Son illərdə isə türk dünyası və islam ölkələri ilə əlaqələr özünün yüksəliş mərhələsinə qədəm qoyub. Prezident İlham Əliyev ölkəmizin xarici siyasətini dəyərləndirərkən türk dünyası ilə münasibətlərin daha da möhkəmləndiyini, islam ölkələri ilə əlaqələrin getdikcə daha da gücləndiyini bildirir. Bu ölkələrdən biri də qardaş Pakistandır.

Bəllidir ki, iki ölkə arasında möhkəm dostluq və qardaşlıq təməlləri üzrə qurulmuş strateji tərəfdaşlıq münasibətləri yüksək səviyyədədir. Hər iki ölkə həm ikitərəfli, həm də çoxtərəfli platformalarda bir-birinə daim dəstək göstərir və əlaqələr bütün sahələrdə sürətlə inkişaf edir.

Azərbaycan və Pakistan arasında əməkdaşlıqda dost ölkələrimizin bir-birinin haqq işini fəal şəkildə müdafiə etməsi xüsusi yer tutur. Vaxtilə Ermənistan Azərbaycan ərazilərini işğal etdiyinə görə Pakistan bu ölkə ilə diplomatik əlaqələr qurmayan və onun müstəqilliyini tanımayan dövlətlərdən biridir.

İlham Əliyevin iyulun 11-12-ni əhatə edən dövlət səfəri isə Azərbaycan və Pakistan arasındakı strateji tərəfdaşlıq münasibətlərinin daha da gücləndirilməsi və bütün sahələr üzrə əməkdaşlığın hərtərəfli genişləndirilməsi baxımından tarixi önəm kəsb etdi.

### 32 illik uğurlu diplomatik münasibətlər

Pakistan Azərbaycanın müstəqilliyini ilk tanıyan (12 dekabr 1991-ci il) dövlətlərdən biri olub. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il iyunun 9-da qurulub. Həmin dövrdən sonra iki ölkə arasında əlaqələr daim inkişaf etdirilib və bugünkü strateji müttəfiqlik səviyyəsinə yüksəlib. 1993-cü ilin martında Pakistanın Bakıda, 1997-ci ilin avqustunda isə Azərbaycanın İslamabadda səfirlikləri təsis edilib.

Prezident İlham Əliyev Pakistanla əlaqələrin inkişafına xüsusi önəm verir və ölkənin ali siyasi rəhbərliyi ilə qarşılıqlı inam və etimada əsaslanan yüksəksəviyyəli münasibətlər saxlayır. Bu da ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf dinamikasına mühüm təkan verir və müxtəlif sahələrdə əməkdaşlığın genişlənməsində xüsusi rol oynayır. Dövlət başçısının 2005-ci il aprelin 12-13-də Pakistana rəsmi səfəri, eləcə də 2017-ci il 28 fevral-1 mart tarixlərində İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Zirvə toplantısında iştirak etmək üçün dost ölkəyə işgüzar səfəri ikitərəfli əlaqələrdə yeni səhifə açıb, əməkdaşlığın yeni inkişaf perspektivlərini müəyyənləşdirib.

Pakistan İslam Respublikası Prezidentinin 2015-ci ildə Azərbaycana rəsmi, 2019-cu ildə işgüzar səfərləri və dost ölkənin Baş nazirinin 2016-cı və 2023-cü illərdə rəsmi səfərləri Azərbaycan-Pakistan əlaqələrini daha da möhkəmləndirib, qarşılıqlı əməkdaşlığın müxtəlif sahələr üzrə inkişafına mühüm töhfə verib. 2015-ci il martın 11-14-də Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin Azərbaycana rəsmi səfəri zamanı imzalanan "Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafına böyük töhfə verib.

Azərbaycan və Pakistan arasında müqavilə-hüquq bazası kifayət qədər genişdir. İndiyə qədər 38 sənəd imzalanıb, 25 sənəd layihəsinə isə hazırda baxılmaqdadır.

İlham Əliyevin bu səfəri zamanı isə iki dost ölkə arasında müxtəlif sahələri əhatə edən 15 sənəd imzalanıb.

### Azərbaycandan başqa heç bir ölkə bunu etməyib

1995-ci ilin oktyabrında Bakıda "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında hökumət səviyyəsində Azərbaycan-Pakistan Birgə Komissiyasının yaradılması haqqında Protokol" imzalanıb, 2000-ci ildə isə Birgə Komissiyanın 1-ci iclası keçirilib. Bununla da iki ölkə arasında iqtisadi münasibətlərin əsası qoyulub.

Azərbaycan ilə Pakistan arasında iqtisadi və ticarət sahələrində aktivlik ikitərəfli münasibətlərin səviyyəsinə uyğun deyil. Bununla belə bu sahədə də əməkdaşlığın inkişaf etdirilməsi üçün böyük potensial var. 2023-cü ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 27 milyon ABŞ dolları təşkil edib. Pakistan tərəfi Azərbaycan şirkətlərinin bu ölkəyə sərmayə qoymasında çox maraqlıdır.

Hazırda Azərbaycanda 3600-dən çox Pakistan şirkəti qeydiyyata alınıb və onlar sənaye, kənd təsərrüfatı, tikinti, ticarət, nəqliyyat və xidmət sahələrində aktiv fəaliyyət göstərirlər. Pakistan şirkətləri işğaldan azad edilmiş ərazilərdə yenidənqurma və bərpa işlərində iştirak üçün də müraciət ediblər. Azərbaycan Pakistan ilə iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsini vacib hesab edir.

Prezident İlham Əliyevin tapşırığı ilə, Pakistandan idxal olunan düyü məhsullarının idxal rüsumu birtərəfli güzəşt tətbiq edilməklə 2027-ci il dekabrın 31-dək 15 faizdən 0 faizə endirilib.

İyulun 11-də İslamabadda İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə keçirilən geniş tərkibdə görüşdə bu məsələyə xüsusi olaraq toxunulub.

Şahbaz Şərif buna görə İlham Əliyevə təşəkkür edərək bildirib: "Pakistanın xeyrinə böyük lütfünüzə - düyü ixracına görə mən necə təşəkkür etməyə bilərəm. Heç bir gömrük rüsumu yoxdur, düyü ixracı rüsumdan tamamilə azad olunub. Azərbaycandan başqa heç bir ölkə bunu etməyib. Məhz buna görə biz bu unikal əlaqələrdən bu qədər məmnunuq".

### Bu dostluq, qardaşlıq yeni deyil

Baş nazir onu da bildirib ki, Azərbaycan xalqı Pakistan xalqını sevir. Qarşılıqlı olaraq Pakistan xalqı da Azərbaycan xalqına çox minnətdardır. Bu, sanki bir qəlbdə döyünən iki ürəkdir. Bu dostluq, qardaşlıq yeni deyil, onillikləri əhatə edir. Pakistan həmişə hər məsələdə Azərbaycanın yanında olub və Azərbaycan da hər zaman bütün hallarda Pakistanın yanındadır.

Şahbaz Şərif hətta Azərbaycana səfəri zamanı onun şərəfinə verilən ziyafətdə yediyi yeməyin dadını da unutmayıb: "2023-cü ildə məni Azərbaycana dəvət etdiyiniz çox yaxşı xatirimdədir. Səxavətiniz və çox səmimi qonaqpərvərliyinizlə bağlı o xoş anları hələ də xatırlayıram. Nahar zamanı ləziz yeməyiniz hələ də xatirimdədir. Kaş onun dadına bir də baxa bilərdim. Lakin bunun üçün Sizin möhtəşəm ölkənizi yenə də ziyarət etməliyəm. İnşallah, noyabr ayında gələcəyəm".

O, Pakistanın Qarabağ məsələsində həmişə Azərbaycanın mövqeyini dəstəklədiyini və heç vaxt bu dəstəyi dayandırmadığını vurğulayıb. Baş nazir hesab edir ki, bu, dostluq və qardaşlıq münasibətlərinin gücüdür. İlham Əliyevin Pakistana səfəri isə mövcud vəziyyəti daha da gücləndirəcək, münasibətləri transformasiya edəcək.

### Tərəfdaşlığımızın təməlini qardaşlıq təşkil edir

Geniş tərkibli görüşdə çıxış edən Prezident İlham Əliyev isə bildirdi ki, tərəfdaşlığımızın təməlini qardaşlığımız, Pakistan və Azərbaycan xalqlarının bir-birinə münasibətdə qardaşlıq hissləri təşkil edir. İki qardaş ölkə həmişə çətin zamanlarda bir-birinin yanında olub. 2020-ci ildə Vətən müharibəsi zamanı Pakistan öz bəyanatları ilə Azərbaycana açıq şəkildə siyasi dəstək verən ölkələrdən biri idi və Azərbaycanın ərazi bütövlüyü ilə bağlı mövqeyini birmənalı şəkildə ifadə edirdi.

Azərbaycanın da Cəmmu və Kəşmirlə bağlı mövqeyi yaxşı məlumdur. Azərbaycan BMT Təhlükəsizlik Şurasının bu məsələ ilə bağlı qətnamələrinin yerinə yetirilməsini dəstəkləyir: "Haqq Sizin tərəfinizdədir, ədalət, beynəlxalq hüquq Sizin tərəfinizdədir. Azərbaycan öz mövqeyini birmənalı şəkildə ifadə edən və öz mövqeyini müdafiə edən ölkələrdən biridir".

### Azərbaycan-Pakistan əlaqələri yüksək inkişaf dövrünü yaşayır

İyulun 12-də İslamabadda İlham Əliyevin Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdari ilə geniş tərkibdə görüşü olub. Görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olmasından məmnunluq ifadə edildi. Pakistanın və Azərbaycanın daim bir-birini dəstəkləməsi, xüsusilə torpaqlarımız otuz il ərzində işğal altında olduğu dövrdə Pakistanın ölkəmizə siyasi dəstəyi, Azərbaycanın haqlı və ədalətli mövqeyini müdafiə etməsi, beynəlxalq hüququn prinsiplərini rəhbər tutması yüksək qiymətləndirildi. Hazırda ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı. Prezident Asif Əli Zərdari Azərbaycanın COP29-a evsahibliyi etməsi münasibətilə Prezident İlham Əliyevi təbrik etdi. Dövlətimizin başçısı da Pakistan Prezidentini COP29-a dəvət etdi. Söhbət zamanı ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin, investisiya sahəsində əməkdaşlığın daha da genişləndirilməsi məsələləri müzakirə olundu.

Səfər çərçivəsində İlham Əliyev iyulun 12-də İslamabadda Pakistan Hərbi Hava Qüvvələrinin Nur Xan bazasının ərazisindəki "Milli Aerokosmik Elm və Texnologiya Parkı"nda hərbi sərgi ilə tanış oldu.

Əminliklə deyə bilərik ki, bu gün Azərbaycan-Pakistan münasibətləri hər iki ölkənin dövlət rəhbərlərinin səyləri nəticəsində özünün ən yüksək inkişaf dövrünü yaşayır. Azərbaycanın Vətən müharibəsində qələbəsi və antiterror tədbirləri nəticəsində öz suverenliyini tam bərpa etməsi ilə Cənubi Qafqazda yaranan yeni reallıqlar və əməkdaşlıq imkanları ikitərəfli və çoxtərəfli əlaqələrin dərinləşməsi istiqamətində yeni perspektivlər açır. Prezident İlham Əliyevin Pakistana dövlət səfəri ölkələrimiz arasındakı ikitərəfli münasibətlərə yeni məzmun və keyfiyyət gətirərək, qarşılıqlı əməkdaşlığın daha geniş sahələri əhatə etməsini və uzunmüddətli dövrdə dərinləşməsini təmin edəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Əbədi müttəfiqlik

### Azərbaycan və Pakistan arasında imzalanmış sənədlər münasibətləri yeni səviyyəyə yüksəldəcək

**"Prezident İlham Əliyevin Pakistan İslam Respublikasına dövlət səfəri Prezidentin təyyarəsi hələ qardaş ölkəyə enmədən beynəlxalq arenada böyük rezonansa səbəb oldu. Pakistanın qırıcılarının Azərbaycan liderinin təyyarəsini müşayiət etməsini əks etdirən kadrların yayılması hər kəsin diqqət mərkəzində oldu".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Müşfiq Cəfərov deyib. Deputat bildirib ki, Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Prezident İlham Əliyevi İslamabadın hava limanındaca şəxsən yüksək səviyyədə qarşılaması, keçirilən görüşlər, imzalanan sənədlər, dostluq və qardaşlığa əsaslanan bəyanatlar bu müttəfiqliyin əbədi olacağından xəbər verir. Dövlət başçısının Pakistan İslam Respublikasına dövlət səfəri çox mühüm hadisələrlə yadda qaldı. Pakistanla Azərbaycan arasında qardaşlıq münasibətlərinin təməli bu gün deyil, çoxdan qoyulub. İkitərəfli və çoxtərəfli münasibətlərdə Azərbaycan və Pakistan hər zaman bir-birini dəstəkləyir. Pakistan Ermənistanın işğalçılıq siyasətinə görə onunla heç bir diplomatik münasibət qurmayan dövlətlərdən biridir və bu addım ölkəmiz tərəfindən yüksək qiymətləndirilib. "Dövlətimiz də öz növbəsində Cammu və Kəşmir məsələsində birmənalı dəstəyini Pakistandan heç vaxt əsirgəməyib. Prezident İlham Əliyev də öz çıxışında qeyd etdi ki, Kəşmirdəki qardaşlarımızla çiyin-çiyinə dayanacağıq, beynəlxalq hüquqa sadiq qalmağa davam edəcəyik, ədalətin tərəfində olacağıq", - deyə deputat xatırladıb.

O qeyd edib ki, səfər çərçivəsində imzalanan sənədlər yüksək səviyyədə olan ikitərəfli münasibətləri daha yeni bir səviyyəyə qaldıracaq. Bu görüşdən sonra əminliklə deyə bilərik ki, qardaş ölkələr arasındakı investisiyalar və ticarət dövriyyəsi dəfələrlə artacaq.

Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli formatından danışan deputat bildirib ki, 44 günlük müharibə zamanı bu üçtərəfli format sınaqdan uğurla keçərək özünü təsdiqləyib: "Azərbaycan üçün Türkiyə və Pakistanın mənəvi-siyasi dəstəyi böyük əhəmiyyət kəsb edir. Bu dəstəyin müharibədən sonrakı dövrdə də davam etməsi cəmiyyətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Azərbaycan-Pakistan özəl sektor tərəfdaşlıqlarının təşviqi investisiyaların artmasına kömək edəcək

**Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artması müxtəlif dövlətlərlə münasibətlərə müsbət təsir göstərir, onları strateji tərəfdaşlıq səviyyəsinə qaldırır. Bu ölkələrdən biri də Azərbaycanın sıx dostluq və qardaşlıq əlaqələri olan Pakistandır. İkitərəfli əlaqələr siyasi, iqtisadi və humanitar sahələrdə fəal inkişaf edir.**



Ötən həftə Prezident İlham Əliyevin Pakistana olan dövlət səfəri ölkələr arasında strateji tərəfdaşlığın möhkəmləndirilməsində mühüm addımdır. Səfər çərçivəsində əməkdaşlığın müxtəlif sahələrini əhatə edən bir sıra sənədlər imzalanıb, Pakistan liderləri ilə ikitərəfli görüşlər keçirilib. Azərbaycan ilə Pakistan arasında qardaşlıq və dostluq münasibətlərinin möhkəmləndirilməsi hər iki dövlətin milli maraqlarına cavab verir. Çünki rəsmi Bakı və İslamabad arasında strateji dialoq onların dünya və regional arenalarda, bütün Avrasiya geosiyasi məkanında təsirini gücləndirməyə kömək edir.

Mövzu ilə bağlı AZƏRTAC-ın suallarını Pakistanın Qlobal və Strateji Araşdırmalar Mərkəzinin (CGSS) icraçı direktoru Xalid Teymur Əkrəm cavablandırıb.

*- İyulun 11-12-də Prezident İlham Əliyev Pakistanda səfərdə olub. Səfərin nəticələrini necə qiymətləndirirsiniz və bu səfər ölkələr arasında iqtisadi əlaqələrin inkişafına necə təsir edəcək?*

- Prezident İlham Əliyevin Pakistana səfəri ikitərəfli əlaqələrin möhkəmləndirilməsində mühüm mərhələ oldu. Ticarət, texnologiya və turizm sahələrində əsas sazişlərin imzalanması iqtisadi əməkdaşlığın artırılmasına yönəlib. İkitərəfli investisiyaların 2 milyard dollara çatdırılması öhdəliyi əhəmiyyətli qarşılıqlı artım potensialını vurğulayır. Bu səfər texnoloji mübadilə və turizmin inkişafına təkan verir, Azərbaycan və Pakistan arasında güclü iqtisadi tərəfdaşlığı təşviq edir.

*- Rəsmi Bakı ilə İslamabad arasında iqtisadi əlaqələrin hazırkı səviyyəsini necə qiymətləndirirsiniz?*

- Bakı ilə İslamabad arasında iqtisadi əlaqələrin hazırkı səviyyəsi sabitdir və sürətlə inkişaf edir. Azərbaycan və Pakistan arasında ticarət dövriyyəsi iki dəfədən çox artaraq 2020-ci ildəki 13,283 milyon dollardan 2022-ci ildə 28,1 milyon dollara çatıb, 2023-cü ildə isə 100 milyon dolları ötüb. Pakistan düyüsü üçün xüsusi qaydaların tətbiqi qərarı ikitərəfli ticarəti artırmaq istəyini əks etdirir. Preferensial Ticarət Sazişi və Tranzit Ticarət Sazişi başa çatdıqdan sonra hər iki ölkə ticarətini liberallaşdırmaq və genişləndirməkdə davam edir. Proqnoz nikbindir, bu da iqtisadi əməkdaşlığın yaxşı perspektivlərindən xəbər verir.

*- Prezident İlham Əliyevin Pakistana səfəri zamanı bir sıra mühüm sazişlər və anlaşma memorandumları imzalanıb. Bunlar ölkələrimiz arasında münasibətlərin inkişaf səviyyəsinə necə təsir edəcək?*

- Prezident İlham Əliyevin Pakistana səfəri zamanı müxtəlif sektorlar, o cümlədən ticarət, turizm, elm və texnologiya, mədəni mübadilə sahələrində 15 mühüm saziş və anlaşma memorandumu imzalanıb. Bu sazişlər Azərbaycan və Pakistan arasında strateji tərəfdaşlığı əhəmiyyətli dərəcədə genişləndirəcək və gücləndirəcək. Onlar güclü tərəfdaşlıq nümayiş etdirərək gələcək əməkdaşlıq və birgə müəssisələr üçün möhkəm zəmin yaradır. Bu əməkdaşlıq iki ölkə arasında əlaqələrin daha da möhkəmlənməsinə, qarşılıqlı fayda üçün yeni imkanlar yaradacaq.

*- Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif deyib ki, "məqbul və faydalı olan sahələrdə əməkdaşlığa, birgə sərmayəyə keçməyin vaxtı çatıb". İqtisadiyyatımızın hansı sahələri Pakistanı maraqlandıra bilər?*

- Baş nazir Şahbaz Şərif qarşılıqlı faydalı sahələrdə əməkdaşlıq və birgə investisiyaların zəruriliyini vurğuladı. Əsas sektorlara enerji, kənd təsərrüfatı, informasiya texnologiyaları və infrastruktur daxildir. Hər iki ölkənin liderləri arasında aparılan geniş tərkibli danışıqlar ticarətin genişləndirilməsi, investisiyaların təşviqi və yeni imkanların araşdırılmasına diqqət yetirməklə ikitərəfli münasibətlərin yaxşılaşdırılmasına yönəlib. Hər iki ölkə iqtisadi əlaqələri dərinləşdirməyə və strateji əməkdaşlıq vasitəsilə qarşılıqlı rifaha nail olmağa sadiqdir.

*- Azərbaycan düyü ixracı baxımından Pakistana böyük xidmət göstərib. İki ölkə arasında ticarətdə hansı mal növləri liderlik edir?*

- Azərbaycan Pakistandan düyü idxalını əhəmiyyətli dərəcədə dəstəklədi, onu 15 faizlik idxal rüsumundan azad etdi. İki ölkə arasında aparıcı ticarət malları arasında Pakistanın pambıq toxumları, meyvələr, idman malları və kimyəvi maddələr var. Hər iki ölkə növbəti onillikdə mütərəqqi və qarşılıqlı faydalı əlaqələri inkişaf etdirməyə sadiqdir. Bu strategiya ticarəti genişləndirmək, mövcud əlaqələri gücləndirmək, birgə inkişafı və əməkdaşlığı təşviq etmək məqsədi daşıyır.

*- Səfər zamanı tərəflər ikitərəfli ticarətin genişləndirilməsi barədə razılığa gəliblər, güzəştli ticarət sazişi imzalanıb. Bu saziş beynəlxalq ticarətdə tərəflərə belə sazişdə iştirak etməyən üçüncü ölkələrə nisbətən müəyyən üstünlüklər verir. Sizcə, tərəflər ticarət dövriyyəsini artırmaq üçün hansı addımları atmalıdırlar?*

- Ölkələr arasında Preferensial Ticarət Sazişi imzalandı. Bu sazişdə Pakistan və Azərbaycan qarşılıqlı faydalı layihələrə ikitərəfli investisiyaların 2 milyard dollara çatdırılması məqsədini vurğuladılar. Hazırkı 100 milyon dollardan ikitərəfli investisiyaların artırılmasına dair razılaşma inkişaf və tərəqqi yolunda irəliyə doğru müsbət addımdır. Ölkələrimiz ticarət dövriyyəsini artırmaq üçün bu yaxınlarda imzalanmış güzəştli ticarət sazişinin həyata keçirilməsinə diqqət yetirməlidirlər. Addımlara tariflərin aşağı salınması, gömrük prosedurlarının sadələşdirilməsi, logistika və nəqliyyat əlaqələrinin yaxşılaşdırılması daxildir. Özəl sektor tərəfdaşlıqlarının və birgə müəssisələrin təşviqi də investisiyaların artmasına kömək edəcək.

*- Səfər zamanı enerji, infrastruktur, rabitə və bir çox digər sahələrdə bir sıra layihələrə baxış keçirilib. Son illər ölkələrimiz arasında hansı mühüm iqtisadi layihələr həyata keçirilib?*

- Son illər Pakistan və Azərbaycan iqtisadi əməkdaşlıqda, xüsusilə enerji sahəsində mühüm irəliləyişlər əldə ediblər. "Pakistan LNG Limited" (PLL) və Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) mayeləşdirilmiş təbii qazın ilk yükünü 2023-cü ilin dekabrında uğurla çatdırıb. Hər iki ölkə həmçinin bərpaolunan enerji layihələrini və Pakistanda neft emalı zavodunun tikintisi ilə bağlı potensial əməkdaşlığı araşdırır. Hazırda Azərbaycan Pakistana neft-kimya məhsulları və karbamid gübrələri tədarük edir və bu ixracı genişləndirməyi planlaşdırır. Bundan əlavə, ölkələr ticarəti şaxələndirməyə, informasiya texnologiyaları, kənd təsərrüfatı, nəqliyyat və təhsil sahələrində əməkdaşlığı genişləndirməyə çalışırlar.

*- Bu ilin noyabrında Bakıda keçiriləcək COP29-dan gözləntiləriniz nədir? Ölkələrimiz "yaşıl enerji"nin inkişafı sahəsində necə əməkdaşlıq edə bilər?*

- Bakıda keçiriləcək COP29 inkişaf etməkdə olan ölkələr, o cümlədən Pakistan üçün əlamətdar hadisədir. Baş nazir Məhəmməd Şahbaz Şərif Prezident Əliyevin rəhbərliyinə inamını ifadə edərək, iqlim məsələlərində mənalı nəticələr gözlədiyini bildirib. Pakistan ortaq fürsət və məsuliyyət kimi COP29-un Azərbaycanda keçirilməsini dəstəkləyir. Hər iki ölkə davamlı təşəbbüsləri təşviq etmək üçün "yaşıl enerji"nin inkişafı üzrə əməkdaşlıq edir. Azərbaycanın COP29-a evsahibliyi etməkdə əldə etdiyi uğur Pakistanın qarşılıqlı nailiyyəti kimi qiymətləndiriləcək.



## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Milli Məclisə seçkilərdə deputatlığa namizədlərin qeydə alınmasının əsasları, qaydaları və qeydə alınmış namizədin statusu

**Suverenliyimizin və ərazi bütövlüyümüzün tam bərpa olunmasından sonra 2024-cü il sentyabrın 1-də keçiriləcək Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər istər ölkə daxilində, istərsə də xaricdə böyük maraq və diqqətlə qarşılanır. Seçkilərin təyin olunmasından qısa zaman keçməsinə baxmayaraq, 22 siyasi partiyanın səlahiyyətli nümayəndəsinin, eləcə də maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin Mərkəzi Seçki Komissiyasında (MSK) qeydə alınması, namizədliyi özü və siyasi partiyalar tərəfindən irəli sürülən şəxslərin sayı bunu deməyə əsas verir.**



Seçki prosesi bir-birinin ardınca gələn ayrı-ayrı mərhələlərdən ibarətdir. Hər bir mərhələnin də özünəməxsus xüsusiyyətləri var. Belə mərhələlərdən biri də namizədlərin qeydə alınmasıdır. Seçki prosesinin bu mərhələsi deputatlığa namizədliyin irəli sürülməsinin təsdiq olunmasından sonrakı hüquqi prosedurları özündə əks etdirir. Bunlar, ilk növbədə, deputatlığa irəli sürülmüş namizədin müdafiəsi üçün seçici imzalarının toplanması, onun rəsmiləşdirilməsi, namizədin qeydə alınması üçün zəruri olan digər seçki sənədlərinin hazırlanması və müvafiq seçki komissiyasına təqdim olunmasını əhatə edir. Sözügedən addımların atılması, o cümlədən bu prosesin məntiqi nəticəsi kimi namizədin qeydə alınması Seçki Məcəlləsinin 56-60, 147 və 148-ci maddələri, eyni zamanda MSK-nın "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər zamanı təsdiq edilmiş deputatlığa namizədin müdafiəsi üçün seçici imzalarının toplanması və dairə seçki komissiyasına təqdim edilməsi qaydaları haqqında" təlimatı ilə tənzimlənir.

Deputatlığa namizədin qeydə alınması üçün zəruri olan ilk seçki hərəkəti namizədin müdafiəsi üçün seçici imzalarının toplanmasıdır ki, seçki qanunvericiliyi bununla bağlı bir sıra qaydalar müəyyənləşdirib. Yeri gəlmişkən qeyd edək ki, bu qaydaların pozulması namizədin qeydə alınmasından imtinaya səbəb ola bilər.

Seçki Məcəlləsinin tələbinə görə, hər bir namizədin müdafiəsi üçün müvafiq seçki dairəsinin ərazisindən azı 450 seçici imzası toplanmalıdır. Qanunvericiliyə görə bir seçici birdən artıq namizədin müdafiəsi üçün imza ata bilər. Namizədin müdafiəsi üçün imza etmək könüllüdür və seçicinin hər hansı bir vasitə ilə bu hüququnu reallaşdırmasına mane olmaq qadağandır. Eyni zamanda bunu da bilmək vacibdir ki, seçiciləri imzaya görə mükafatlandırmaq yolverilməzdir. Həmin qadağalara əməl olunmaması müvafiq məhkəmə tərəfindən təsdiqlənərsə, bu, toplanmış imzaların etibarsız sayılması və namizədin qeydiyyatından imtina üçün əsas ola bilər. Seçici imzalarını namizədin özü, səlahiyyətli nümayəndələri, həmçinin Azərbaycan Respublikasının 18 yaşına çatmış aktiv seçki hüququ olan hər bir vətəndaşı toplaya bilər. Lakin dövlət orqanlarının, bələdiyyə qurumlarının, mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslərin imza toplanmasında iştirakına yol verilmir.

Namizədin müdafiəsi üçün seçici imzaları tədris müəssisələrində, yaşayış yerlərində, eləcə də qanunla seçkiqabağı təşviqat aparılmasının qadağan edilmədiyi digər yerlərdə toplana bilər.

Məlumat üçün bildirək ki, dairə seçki komissiyaları imza vərəqələrini və digər seçki sənədlərini müəyyən olunmuş müddətdə hər gün saat 9:00-dan 18:00-a qədər qəbul edir. Sənədlər qəbul olunarkən imza vərəqələri olan hər bir qovluq möhürlə təsdiqlənir, təqdim olunmuş imza vərəqələrinin və imzaların sayının seçici imzalarının toplanmasının yekunu haqqında protokolla uyğunluğu yoxlanılır, daxil olma tarixi və vaxtı göstərilməklə sənədlərin qəbulu barədə yazılı arayış tərtib edilir. Arayış dairə seçki komissiyasının katibi və imza vərəqlərini, digər seçki sənədlərini dairə seçki komissiyasına təqdim edən şəxs tərəfindən imzalanır, təsdiqlənir və bir nüsxəsi seçki sənədlərini təqdim edən şəxsə verilir.

Artıq iyulun 13-dən etibarən namizədin qeydə alınması üçün müvafiq sənədlərin dairə seçki komissiyalarına təqdim olunmasına başlanılıb. İmza vərəqələri seçki qanunvericiliyinə uyğun olaraq doldurulduqdan sonra namizədin qeydə alınması üçün digər seçki sənədləri ilə birlikdə avqustun 2-si saat 18:00-dək aidiyyəti dairə seçki komisssiyasına təqdim edilməlidir. Digər seçki sənədləri dedikdə, qanunvericiliklə tələb olunan seçici imzalarının toplanması haqqında MSK-nın müəyyənləşdirdiyi formada tərtib edilmiş yekun protokolun 2 nüsxəsi, irəli sürülmüş namizədin öhdəlik ərizəsindəki məlumatlarda dəyişikliklər barədə bildiriş, namizədin seçkilərin təyin edildiyi gündən əvvəlki birillik dövrü əhatə edən gəlirlərinin miqdarı və mənbələri haqqında məlumat, gəlirlər barədə məlumatların alındığı təşkilatlardan həmin gəlirlərin illik cəmi barədə arayış, mülkiyyət hüququ əsasında namizədə məxsus əmlak barədə məlumat, seçici imzalarının toplanması üçün sərf edilmiş vəsait haqqında məlumatlar da göstərilməklə namizədin ilkin maliyyə hesabatı nəzərdə tutulur.

MSK-nın 2024-cü il 29 iyun tarixli 15/55 saylı Qərarına əsasən, namizədliyin qeydə alınması məsələsinə MSK-da baxılması zərurəti yarandığı halda imza vərəqələrindəki imzaların və digər məlumatların düzgünlüyünün yenidən yoxlanılması üçün komissiya nəzdində işçi qrupu yaradılıb. Qrupun tərkibinə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin ekspertləri, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikası Maliyyə Nazirliyi, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Əmlak Məsələləri Dövlət Xidməti, habelə Hesablama Palatasının mütəxəssisləri sırasından ekspertlər daxil edilib. Eyni zamanda dairə seçki komissiyalarında da deputatlığa namizədin qeydə alınması üçün təqdim edilmiş imza vərəqələrində olan imzaların və digər sənədlərdəki məlumatların düzgünlüyünü yoxlamaq məqsədilə ekspertlərdən ibarət işçi qrupu yaradılıb. Hər bir deputatlığa namizədin imza vərəqələrində və digər seçki sənədlərində olan məlumatların yoxlanılması nəticələri haqqında müvafiq ekspert rəyləri hazırlanır və həmin rəylər əsasında işçi qrupunun rəhbəri tərəfindən protokol və qərar layihəsi tərtib edilir, imzalanır, namizəd barəsində qərar qəbul olunması üçün dairə seçki komissiyasına təqdim edilir.



Dairə seçki komissiyaları imza vərəqələrini və namizədin qeydə alınması üçün lazım olan digər sənədləri qəbul etdikdən sonra 7 gün müddətində namizədin qeydə alınıb-alınmaması barədə əsaslandırılmış qərar qəbul etməlidir.

Düzgün imzaların sayı 450-dən az deyildirsə, digər təqdim olunan seçki sənədləri həqiqəti əks etdirirsə, seçki qanunvericiliyinə uyğun tərtib edilibsə, düzgün rəsmiləşdirilibsə, bu, namizədin qeydə alınmasına əsas verir.

Təqdim edilmiş sənədlərdə səhvlər və pozuntular varsa və bunlar qəsdən edilməyibsə, namizəd və ya səlahiyyətli nümayəndələr tərəfindən düzəlişlərin edilməsi yolu ilə aradan götürülə bilərsə, dairə seçki komissiyası namizədi və ya siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsini 24 saat müddətində bu haqda xəbərdar edir və onun tərəfindən müvafiq düzəlişlər edildikdən sonra namizədi qeydə alır. Qeydə alınmış namizədlərə dairə seçki komissiyası tərəfindən qeydiyyat vəsiqəsi verilir, qeydiyyatdan sonra 24 saat müddətində onlar haqqında məlumatlar mediaya təqdim olunur.

Namizədin qeydə alınmasından imtinaya əsaslar Seçki Məcəlləsinin 60-cı maddəsi ilə tənzimlənir. Bu əsaslara seçici imzalarını toplayarkən Seçki Məcəlləsinin tələblərinin pozulması, namizədin qeydə alınması üçün təqdim etdiyi sənədlərin düzgün rəsmiləşdirilməməsi və ya olmaması, seçici imzalarının lazımi saydan az olması halları daxildir. Namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun seçki fondunun yaradılması qaydasının və müvafiq seçki fondunun vəsaitinin xərclənməsi qaydasının pozulması, habelə Seçki Məcəlləsinin 55-ci maddəsinin tələblərinin xəbərdarlıq ediləndən və ya cərimə tətbiq olunandan sonra sözügedən subyektlər tərəfindən yenidən pozulması da qeydiyyatdan imtinaya səbəb ola bilər.

Qeydə alınmış namizədlərin statusu - bərabərliyi, fəaliyyətinin təminatları və seçkilərdə iştirakının şərtləri Seçki Məcəlləsinin 69 - 71-ci maddələrində öz əksini tapıb. Qeydə alınmış bütün namizədlər onların statusları nəzərə alınmaqla bərabər hüquqa malikdirlər və bərabər vəzifələr daşıyırlar.

Milli Məclisə seçkilər zamanı dövlət orqanlarında, bələdiyyə qulluğunda və ya mediada çalışan qeydə alınmış namizədlər seçki kampaniyasında iştirak etdikləri müddətdə xidməti vəzifələrini yerinə yetirməkdən azad edilirlər. Amma bu qayda Milli Məclisin deputatlarına şamil edilmir. Qeydə alınmış namizədin işlədiyi, oxuduğu, hərbi xidmətdə olduğu idarənin, təşkilatın müdiriyyəti, hərbi hissənin komandiri namizədin qeydə alındığı gündən seçkilərin nəticələrinin rəsmi dərc edildiyi günədək ərizəsində göstərilən müddət üçün onu işdən, tədrisdən, xidmətdən ödənilməyən məzuniyyət verilməsi əsasında istənilən gün və vaxt azad etməlidir. Bu halda müvafiq seçki komissiyası seçkilərin hazırlanması və keçirilməsi üçün büdcədən ayrılmış vəsait hesabına namizədə orta aylıq əməkhaqqı məbləğində, lakin minimum əməkhaqqının 20 mislindən çox olmayan haqq ödəməlidir.

Qeydə alınmış namizədə pul kompensasiyası əsas iş və ya xidmət yeri üzrə əvəzi ödənilməyən məzuniyyətin verilməsi barədə əmrə əsasən xidməti vəzifədən azad edildiyi dövr üçün ödənilir. Qeydə alınmış namizədə Seçki Məcəlləsi ilə müəyyən edilmiş nəqliyyat xərcləri ödənilir. Taksi və sifarişli nəqliyyat reyslərindən istifadə xərcləri isə ödənilmir. Qeydə alınmış namizədin seçkilərdə iştirakı müddəti qeydə alındığı gündən başlayaraq, işlədiyi ixtisas üzrə əmək stajına daxil edilir.

Qeydə alınmış namizəd Seçki Məcəlləsinin 70.1-ci maddəsində göstərilən müddətdə işdən, xidmətdən, təhsil müəssisəsindən çıxarıla bilməz, öz razılığı olmasa başqa işə keçirilə bilməz, habelə ezamiyyətə göndərilə, hərbi xidmətə və ya toplanışa çağrıla bilməz. Eyni zamanda Azərbaycan Respublikası baş prokurorunun razılığı olmadan törətdiyi əmələ görə cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula bilməz və ya məhkəmə qaydasında müəyyənləşdirilən inzibati tənbeh tədbirlərinə məruz qala bilməz.

Qeydə alınmış namizədlər müvafiq dairə seçki komissiyasından hüdudları, ünvanı və telefonları göstərilməklə seçki məntəqələrinin, məntəqə seçki komissiyalarının siyahısını və səsvermə yerlərinin ünvanlarını ala bilərlər.

Namizədlər qeydə alınmış digər namizədlərin, siyasi partiyaların, seçicilərin və ictimai təşkilatların hüquqlarına hörmət bəsləməli, seçki kampaniyası zamanı digər namizədlərin öz siyasi ideyalarını və baxışlarını azad və sərbəst yaymaq hüquqlarına hörmətlə yanaşmaqla bərabər, onların seçicilərlə azad ünsiyyət yaratmalarına mane olmamalıdırlar.

Əminliklə vurğulamaq olar ki, seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi üçün reallaşdırılan layihələr və atılan addımlar deputatlığa namizədlərin sərbəst fəaliyyəti üçün də hərətəfli şərait və geniş imkanlar yaradır.

***Etibar QULİYEV,***
***Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü***

# Siyasi partiyalar seçkilərdə iştirak üçün fəallıqlarını artırırlar

**Vətəndaşların siyasi mədəniyyət səviyyəsinin, siyasi fəallığının artırılmasında seçkilər mühüm əhəmiyyət daşıyır. Seçkilərin istənilən forması - bələdiyyə seçkilərindən tutmuş, prezident seçkilərinə, istərsə də refendumlar və ya konstitusion dəyişikliklər ümumilikdə ictimaiyyətdə sosial və siyasi fəallığa səbəb olur.**



Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkədə dəfələrlə seçkilər keçirilib. Hər növbəti seçki prosesi özüylə yeniliklərə və müasir seçki metodlarından istifadəyə səbəb olub, demokratik seçki prinsipləri daha da təkmilləşib.

2024-cü il Azərbaycan dövlətçilik tarixində həm də seçkilər ili kimi qalacaq. Bu il fevralın 7-də bütün ölkə ərazisində nöbvədənkənar prezident seçkiləri keçirildi. Bu seçkini xüsusi əhəmiyyətli edənsə ərazi bütövlüyü tam təmin edilmiş ölkədə keçirilməsi idi. Sentyabrın 1-də isə ölkəmizdə parlament seçkiləri keçiriləcək. Hazırda seçkilərə hazırlıq mərhələsidir. Dövlət hakimiyyətinin və yerli özünüidarə orqanlarının yalnız xalqın iradəsi əsasında təşkil edilməsi və fəaliyyət göstərməsi cəmiyyətdə siyasi sabitliyə təminat verir, milli özünüdərk hisslərini inkişaf etdirir. Bütün bunlar isə seçki hüququnun vətəndaşların digər konstitusion hüquqları içərisində xüsusi yerə malik olduğunu göstərir. Ölkəmizdə həyata keçirilən konstitusion hüquqi islahatlar nəticəsində insan hüquq və azadlıqlarının, o cümlədən vətəndaşların seçki hüququnun daha səmərəli həyata keçirilməsi üçün geniş imkanlar yaradılıb.

Azərbaycan xalqı öz müqəddəratını müəyyən etmək hüququnu bilavasitə ümumxalq səsverməsi (referendum) və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir. Seçkilərdə iştirak etməklə xalq onu təmsil etmək hüququnu seçdiyi şəxslərə verir. Azərbaycan Respublikasında vətəndaşların seçkilərdə iştirakı azad və könüllülük prinsipinə əsaslanır. Qeyd edək ki, beynəlxalq prinsiplərə əsasən seçkilər bəzi ölkələrdə hüquq, bəzi ölkələrdə isə vəzifə kimi müəyyənləşdirilib. Seçkilərin vəzifə kimi müəyyən edildiyi ölkələrdə seçkilərdə iştirak məcburidir, iştirak etməyən vətəndaşlar üçün qanunvericilikdə nəzərdə tutulmuş cəza tədbirləri tətbiq edilir. Ölkəmizdə isə seçki vətəndaşların hüquqları kimi müəyyənləşdirildiyindən seçkilərdə iştirak könüllüdür, iştirak etməyən vətəndaşlar üçün heç bir məsuliyyət nəzərdə tutulmayıb. Seçkilərə hazırlıq mərhələsində dairə seçki komissiyalarının sədrləri üçün müşavirələr keçirilir. Mərkəzi Seçki Komissiyasında keçirilən növbəti müşavirədə MSK sədri Məzahir Pənahov parlament seçkilərinin əhəmiyyətindən danışarkən qeyd edib ki, bundan öncə prezident seçkiləri suveren Azərbaycanın bütün ərazilərində keçirildiyindən Zəfər seçkisi adlandırılıb: "Parlament seçkiləri də Azərbaycanın bütün ərazilərində keçiriləcək və olduqca vacib prosesdir".

Xatırladaq ki, seçkini müşahidə etmək üçün Azərbaycana bütün qitələrdən nümayəndə heyətləri gəlir. Dövlət başçısının tapşırığı ilə Azərbaycanda 1000 məntəqədə veb-kameralar quraşdırılıb. Dünyanın istənilən nöqtəsindən MSK-nın saytında seçkiləri veb-kameralar vasitəsilə izləmək olur və veb-kameralar vasitəsilə seçkiləri müşahidə edənlərin sayı ildən-ilə artır. O da məlumdur ki, tələbləri pozan seçki komissiyaları cəzalandırılacaq.

Azərbaycan yeganə ölkədir ki, seçkilərdə media subyektləri heç bir qurumdan icazə almadan seçkilərin işıqlandırılması prosesinə sərbəst şəkildə qoşulurlar. Parlament seçkilərinin demokratik keçirilməsi üçün ölkəmizdə 125 seçki dairəsi üzrə 6400-dən artıq seçki məntəqəsində hər cür şərait yaradılıb. Ötən prezident seçkilərində işğaldan azad edilmiş ərazilərdə 26 seçki məntəqəsi fəaliyyət göstərib. Parlament seçkilərində isə seçki məntəqələrinin sayı artırılmaqla seçkilər daha geniş tərkibdə keçiriləcəkdir.

Demokratik prinsipləri əsas götürən ölkələrdə seçkilərdə əsas meyar şəffaflığın təmin edilməsidir. Ölkəmizdə bu istiqamətdə ildən-ilə irəliləyişlər var. Müvafiq səlahiyyətli şəxslər tərəfindən ötən illərdə baş vermiş çatışmazlıqların aradan qaldırılması ilə bağlı ciddi tapşırıqlar verilib. Bu da ümumi seçki prosesi ilə bağlı siyasi iradəni ifadə edir. Ümumilikdə isə seçki mühitinin qiymətləndirilməsi zamanı bir neçə məqama diqqət yetirmək lazımdır. Onlardan biri seçkilərin keçirilməsinin beynəlxalq standartlara uyğunluğudur. Bu məqsədlə Azərbaycanda müxtəlif mexanizmlər yaradılıb. Seçkiyə gedən şəxslərin, seçicilərin şəffaf barmaq izlərinin alınması mexanizmi tətbiq olunur. Seçki məntəqələrində müşahidə kameralarının quraşdırılması təmin edilir. Beynəlxalq və xarici müşahidəçilər seçkini izləmək üçün dəvət olunurlar. Bir neçəsi müşahidədə iştirakla bağlı artıq öz razılığını bildirib.

2024-cü il iyulun 10-da Mərkəzi Seçki Komissiyasında dairə seçki komissiyalarının sədrləri üçün keçirilmiş müşavirədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev 28 iyun 2024-cü il tarixinə olan məlumata əsasən, ölkə üzrə seçicilərin sayının 6 334 444 nəfər olduğunu vurğulamışdır. Xatırladaq ki, ölkə üzrə keçirilən son seçkilərdə - 7 fevral 2024-cü il tarixli prezident seçkilərində seçicilərin sayı 6 254 556 nəfər olub.

Seçkilərə qatılmaq istəyən vətəndaşlar, xüsusilə siyasi partiyalar kifayət qədər fəallıq göstərirlər. Seçki mühitini müsbət qiymətləndirən Abşeron rayon sakini, Əməkdar müəllim Həqiqət Süleymanova əminliklə bildirir ki, bu seçki də maraqlı məqamlarla yadda qalacaq. Seçkilərdə medianın, ictimaiyyətin fəal iştirakı üçün də imkanlar genişdir. Kifayət qədər media subyektləri fəaliyyət göstərir. Ötən illərdə biz seçkilərlə bağlı media platformalarının yaradıldığının şahidi olmuşuq. Yəqin ki, bu istiqamətdə bu il də eyni addımlar atılacaq. Parlament seçkiləri də prezident seçkiləri kimi daha mühüm bir məqamla yadda qalacaq. Bu da Azərbaycanın ərazi bütövlüyü təmin olunduqdan sonra keçirilən ilk parlament seçkiləridir. Bu fakt çox böyük əhəmiyyət kəsb edir. Vətəndaşların ruh yüksəkliyi seçici fəallığını daha da artırır. Azərbaycanda yeni dövrün tələbinə uyğun parlamentin formalaşdırılması zamanın tələbidir. Milli Məclisə növbədənkənar seçkilər zamanı müstəqillik dövründə ilk dəfə olaraq Qarabağ və Zəngəzuru təmsil edən millət vəkilləri məhz bu ərazilərdə keçirilən seçkilər nəticəsində mandat alacaqlar.

Biz bunu prezident seçkilərində də gördük, inanıram ki, parlament seçkiləri də belə olacaq. Müsbət mənəvi məqamlar insanlar üçün çox əhəmiyyətlidir. Bütün bunlar onu deməyə əsas verir ki, seçki hüququndan istifadə üçün vətəndaşlara geniş imkanlar yaradılıb. Bu da bütün ölkə ərazisində keçiriləcək parlament seçkilərinin əhəmiyyətini xeyli artıracaq.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***




# İşlər intensiv xarakter alıb

**"COP29-la bağlı işlər intensiv surətdə aparılır". Bunu ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva "COP29-la bağlı beynəlxalq təşəbbüslər" müsabiqəsi ilə əlaqədar keçirilən brifinqdə deyib. O bildirib ki, iqlim dəyişmələri çox mürəkkəb prosesdir.**



"Çox təəssüf ki, son zamanlar iqlim dəyişmələri əhəmiyyətinə və təsir dairəsinə görə böyük bir problemə çevrilib. İqlim dəyişmələrinin təsirlərinin azaldılması, istilik effekti yaradan qazların emissiyalarının azaldılması, eyni zamanda artıq baş vermiş və proqnozlaşdırılan iqlim dəyişmələrinə uyğunlaşma fəaliyyətinin daha da gücləndirilməsi məqsədilə Azərbaycana bütün ölkələrdən dövlət və hökumət başçıları səfər edəcəklər. Hazırda COP29-la bağlı intensiv işlər davam etdirilir.

COP29 Təşkilat Komitəsində dövlət qurumları ilə yanaşı, vətəndaş cəmiyyətinin, qeyri-hökumət təşkilatlarının, akademik dairələrin nümayəndələri təmsil olunurlar. Bu prosesin davam etdirilməsi, hazırda qeyri-hökumət təşkilatlarının (QHT) səsini eşitmək, onların ideyalarını nəzərə almaq üçün, eyni zamanda onların COP29 prosesinə töhfə vermələrinə şərait yaratmaq məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi ilə birlikdə "COP29-la bağlı beynəlxalq təşəbbüslər" qrant müsabiqəsi keçirməyi qərara alıb", - deyə U.Tağıyeva qeyd edib.

Xatırladaq ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyası bu ilin noyabrında Azərbaycanda keçiriləcək. Bununla bağlı qərar ötən il dekabrın 11-də Dubayda keçirilən COP28 plenar iclasında qəbul edilib. İki həftə ərzində dünyanın mərkəzinə çevrilən Bakı 70-80 minə yaxın xarici qonaq qəbul edəcək.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası 1992-ci ilin iyununda Rio-de-Janeyroda keçirilən Yer Sammitində insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq üçün imzalanmış sazişdir. "COP" (Conference of Parties) abbreviaturası İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ən yüksək qanunverici orqan olan "Tərəflərin Konfransı" mənasını verir.

Konvensiyada 198 ölkə iştirak edir. Tərəflər başqa cür razılaşmırsa, COP hər il keçirilir. İlk COP tədbiri 1995-ci ilin martında Berlində baş tutdu və onun katibliyi Bonnda yerləşir.

# Cənubi Koreya COP29-da uğurlu nəticələrin əldə olunacağına inanır

**"COP29-da çox vacib gündəlik kimi xüsusilə inkişaf etməkdə olan ölkələr üçün iqlim maliyyələşməsini müzakirə edəcəyik. Çox əminəm ki, Azərbaycanın güclü liderliyi ilə biz noyabrda keçiriləcək COP29-da iqlim maliyyələşməsi məsələsində xüsusilə inkişaf etməkdə olan və həssas ölkələr üçün uğurlu nəticələr əldə edə biləcəyik".**




Bu sözləri AZƏRTAC-a Cənubi Koreya xarici işlər nazirinin iqlim məsələləri üzrə müavini xanım Hyun Kim söyləyib. O, iqlim dəyişikliyinin qlobal çağırış olduğunu və elə qlobal fəaliyyət də tələb etdiyini deyib. Bildirib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransının bütün üzvləri bu istiqamətdə birlikdə səylə çalışmalıdırlar.

Ölkəmizi noyabrda COP29 konfransına evsahibliyinə görə təbrik edən Cənubi Koreya rəsmisi Azərbaycana, COP29-un təşkilatçılarına uğurlar arzulayıb.

# *Cou CİNFEN:* "Əminəm ki, Azərbaycanın sədrliyi ilə möhtəşəm COP29 tədbirinin şahidi olacağıq"

**"Azərbaycan Prezidentinin liderliyi ilə rəhbər şəxslər, müvafiq dövlət qurumları COP29-a ciddi hazırlaşırlar. Mən çox müsbət fikirdəyəm və əminəm ki, biz Bakıda Azərbaycanın sədrliyi ilə möhtəşəm COP29 tədbirinin şahidi olacağıq".**



Bu fikirləri AZƏRTAC-a Çinin Biomüxtəlifliyin Qorunması və Yaşıl İnkişaf Fondunun baş katibi Cou Cinfen səsləndirib.

O, COP29-da bütün dünya ölkələrinin fəal iştirak edəcəyinə ümid bəslədiyini deyib.

Təmsil etdiyi fondun dövlət orqanları, akademik təşkilatlar və özəl sektorla birlikdə Çinin COP29 tədbirində iştirakına məsul qurumlardan biri olduğunu vurğulayan Cou Cinfen deyib: "Biz COP29 çərçivəsində "yaşıl" və "mavi" tematik guşələr təşkil edəcəyik. COP29 konfransının uğurla keçməsini və onun iqlim məsələlərinin həllinə böyük inkişaf gətirməsini səbirsizliklə gözləyirik".

# Tullantıların təkrar emalı "yaşıl gələcəy"in təminatına dəstək verir

## Qarabağın və Şərqi Zəngəzurun bərpasında dağıdılmış tikililərin qalıqlarından səmərəli istifadə olunur

**Qlobal iqlim dəyişikliyi tullantıların artması, ətraf mühitin çirklənməsi, torpaqların səhralaşması və təmiz içməli su çatışmazlığına səbəb olur. Təbii ki, bu proses bütün dünyanı narahat etdiyi kimi, Azərbaycanda da əlaqədar qurumların gərəkli tədbirlər görməsini tələb edir.**





Vəziyyətdən çıxmağın optimal variantlarından biri tullantıların təkrar emalıdır. Təkrar emal təbii sərvətlərimizi qorumağa kömək edir, ekoloji cəhətdən təmiz və "yaşıl planet"in yaranmasında çox böyük rol oynayır. Üstəlik, bu proses təbii ehtiyatları gələcək nəsil üçün qoruyur, istehsal olunan tullantıların miqdarını azaldır və zibilxanaların həddindən artıq yüklənməsinin qarşısını alır. Təkrar emal yeni iş yerlərinin yaranmasına yol açır, xammal "ovunu" məhdudlaşdırır. Bütün bunlar Azərbaycanda ekoloji siyasətin əsas istiqamətləri olmaqla yanaşı, həm də ətraf mühitin mühafizəsinə və təbii sərvətlərdən səmərəli istifadəyə təkan verir. Nəticədə ölkə ərazisində yüksəkkeyfiyyətli ekoloji mühit və "yaşıl eneji" məkanı yaranır.

Məlumdur ki, ətraf mühiti çirkləndirən əsas faktorlardan biri də plastik qablaşdırma tullantılarıdır. Həmin tullantılar təbiətdə yüz illər ərzində parçalanmır, miqdarı isə ilbəil artır. Araşdırmalar göstərir ki, bu tullantılar düzgün idarə olunmadığından ətraf mühiti çirkləndirir, kənd təsərrüfatı torpaqlarının dərin qatlarına keçərək bitkilərin normal inkişafını ləngidir və məhsuldarlığın aşağı düşməsinə səbəb olur. Fikrimizi faktların dili ilə davam etdirsək, ortaya belə bir mənzərə çıxır: ötən əsrin ortalarında dünya üzrə təxminən 1,5 milyon ton plastik məhsul istehsal olunub. Həmin göstərici 1990-cı ildə təxminən 67 dəfə artaraq 100 milyon tona çatıb. 2015-ci ilə qədər isə bu rəqəm 3 dəfədən çox artıb və təxminən 322 milyon tona bərabər olub. Plastik məmulat istehsalının belə sürətlə artması plastik tullantıların daha böyük templə çoxalmasına təkan verib.

Bu gün plastik tullantıların yaranması tempinin azalması istiqamətində mühüm addımlar atılır. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji siyasət şöbəsinin müdiri Faiq Mütəllimov deyir: "Hazırda plastik tullantıların azaldılması və təkrar emalı üçün fəaliyyət planı həyata keçirilir. Bu plana əsasən, 37 şəhər və rayonda 250-dən çox tullantı konteynerləri quraşdırılıb. Burada əsas məqsəd plastik tullantıların çeşidlənməsi və təkrar emala verilməsidir. Müxtəlif layihələr çərçivəsində bu proses davam edir. Bakı şəhəri Nərimanov rayonunda əvvəlcə pilot layihə kimi iki fərqli konteyner yerləşdirilib. Bu konteynerlər təkrar emalı mümkün olan tullantılar üçün nəzərdə tutulub. Tullantılar çeşidləmə zavoduna gedir, orada daha dəqiq kateqoriyalara bölünür. Azərbaycanda çeşidləmə praktikası yeni olsa da, təkrar emalda maraqlı olan şirkətlər kifayət qədərdir".

Daha bir fakta müraciət edək. Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2023-cü ildə ölkədə 4086,1 min ton tullantı əmələ gəlib. Bunun 66,6 faizini bərk məişət tullantıları, 33,4 faizini isə müəssisələrin istehsal fəaliyyəti nəticəsində yaranmış müxtəlif növ tullantılar təşkil edib. Ötən il yaranmış 2719,6 min ton bərk məişət tullantılarının 79,4 faizi zərərsizləşdirilməsi məqsədilə poliqonlara daşınıb, 19,5 faizi enerji əldə edilməsi məqsədilə istifadə olunub, 1,1 faizi ölkə daxilində satılıb. Məişət tullantılarından istifadə hesabına 223,0 milyon kVt saat və ya 2022-ci illə müqayisədə 8,6 faiz çox elektrik enerjisi istehsal edilib. Sənayedə və iqtisadiyyatın digər sahələrində əvvəlki illərdə yaranan qalıqlar daxil olmaqla, ötən il istehsalat tullantılarının 22,9 faizi müəssisələrdə xammal kimi istifadə edilib, 19,9 faizi ölkə daxilində satılıb, 1,6 faizi ixrac olunub, 8,5 faizi zərərsizləşdirilməsi məqsədilə poliqonlara daşınıb, 47,1 faizi isə müəssisələrdə qalıb.

Tullantıların təkrar emalı və istifadəyə verilməsi işğaldan azad edilmiş Qarabağ ərazilərində də həyata keçirilir. Bu, Qarabağın yenidən qurulmasında, bərpasında bir yenilikdir. Ötən ildən Qarabağ və Şərqi Zəngəzurda tullantıların idarə olunması sisteminin quraşdırılması üçün ilkin addımlar atılıb. Azərbaycanda ilk dəfə olaraq Ağdam rayonunda tikinti-söküntü tullantılarının təkrar emalına başlanılıb. Tullantılardan, dağıdılmış tikililərin qalıqlarından təkrar emal nəticəsində əldə olunan materiallar daha çox yol tikintisi üçün yararlıdır. Həmin materiallar yol yataqları və tametaltı özül kimi istifadə olunur. Bu da sıfır tullantıya nail olmaq fürsəti yaradır. Qeyd edək ki, dağıntıların idarə olunması çox ciddi işdir. Ekologiyaya zərər vurmadan milyonlarla kub dağıntını tikinti materialına çevirmək iqtisadiyyata da xeyir verir.

Əslində, bu proses dünya təcrübəsində illərdir mövcuddur və xeyli də gəlirli sahə hesab olunur. Hələ 1992-ci ildə Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü ilə Rio-de-Janeyro şəhərində keçirilmiş beynəlxalq konfransda səsləndirilmişdi ki, dünyanın gələcək inkişafı ilk növbədə ekoloji problemlərin necə həll edilməsindən asılı olacaq. Məhz həmin tədbirdə dünyada mövcud olan ətraf mühit problemlərinin həlli yolları çox ciddi şəkildə nəzərdən keçirilmiş və mühüm qərarlar, o cümlədən artıq bütün beynəlxalq ekoloji təşkilatların proqram sənədinə çevrilmiş "Dayanıqlı inkişaf" konsepsiyası qəbul edilmişdi. Bu konsepsiyada iqtisadi inkişafın ekoloji tarazlıqla vəhdət təşkil etməsi, üstünlüyün ətraf mühitin qorunmasına verilməsi, ekoloji problemlərin ilk növbədə həll olunması, gələcək nəsillərin imkanları məhdudlaşdırılmadan çağdaş nəsillərin rifahının yaxşılaşdırılması ön xəttə çəkilmişdi. Konsepsiyada tullantıların təkrar emal olunması da yer almışdı. Məhz həmin konsepsiyadan çıxış edərək Qarabağda tullantıların yığılması, çeşidlənməsi və təkrar emalı üçün strategiya hazırlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi, "Təmiz şəhər" ASC-nin təşkilatçılığı ilə Bakıda keçirilən "Yaşıl dünya naminə həmrəylik: dayanıqlı gələcək üçün tullantıdan dəyərə" beynəlxalq forumunda çıxış edən ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayevin sözlərinə görə, işğaldan azad edilmiş ərazilərdə tullantıların müasir idarəetmə sisteminin qurulması üzərində fəal iş aparılır: "Tullantıların xammal kimi təkrar istifadəsi vacibir. Ağdam rayonunda bərpası planlaşdırılan kəndlərdə pilot layihələr həyata keçirilir. Bu ərazilərdə intensiv bərpa-quruculuq işləri aparıldığı üçün özəl sektorun diqqətinin artırılması da vacibdir".

Bütün bunlar onu deməyə əsas verir ki, artıq Qarabağda dağıntı və tullantılar çay yataqlarına tökülməyəcək, onların müasir dünya standartlarına uyğun istifadə olunması həyata keçiriləcək. Bu da BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına töhfə olaraq diqqətlərdən yayınmayacaq. Bu, həm də təkrar emal nəticəsində işğaldan azad edilmiş ərazilərdə uğur əldə olunmaqla yanaşı, ətraf mühitin qorunması, ekoloji problemlərin həlli və "yaşıl" gələcəyin təmini istiqamətində mühüm addım olacaq.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Bakıda keçirilən sammitdə Böyük Britaniyanın nümayəndə heyətinə kimin rəhbərlik edəcəyi məlum olub

**Böyük Britaniyanın enerji təhlükəsizliyi və sıfır emissiyalar üzrə dövlət katibi Ed Milibend BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak edəcək.**

"The Guardian" xəbər verir ki, "Ed Milibend COP29 iqlim sammitində iştirak etmək üçün noyabrda Azərbaycana gələcək. O, iqlim üzrə mühüm beynəlxalq danışıqlarda Böyük Britaniyanın nümayəndə heyətinə rəhbərlik edəcək və bütün dünyadan siyasi liderlərlə görüşəcək", - nəşr yazır.

Nəşrin məlumatına görə, Bakıda keçiriləcək sammitin gündəliyinin əsas bəndi istixana qazlarının emissiyasını azaltmaqda və ekstremal təbii şəraitin nəticələrinin öhdəsindən gəlməkdə inkişaf etməkdə olan ölkələrə kömək göstərmək məqsədilə onlar üçün iqlim maliyyələşdirməsi olacaq. "Ed Milibdendin COP və bu çoxtərəfli danışıqlarla əlaqədar bütün məsələlər üzrəə təsdiqlənmiş iş təcrübəsi var", - deyə "The Guardian" BMT-nin iqlim dəyişmələri üzrə Komissiyasının keçmiş icraçı katibi ("Global Optimism" analitik mərkəzinin hazırkı təsisçi tərəfdaşı) Kristian Fiqeresdən sitat gətirir.

# BMT-nin "təmiz enerji" layihələri nümayiş etdiriləcək

**BMT-nin Avropa İqtisadi Komissiyası və Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Yüksək Səviyyəli Çempionları Qərbi Balkanlarda, Mərkəzi Asiyada, Qafqazda, Şərqi və Cənub-Şərqi Avropada qabaqcıl mərhələdə yaxşı işlənmiş "təmiz enerji" layihələrinin icrasına başlayıblar.**

Renewables.az-ın "Report"a istinadən xəbərinə görə, bu barədə BMT-nin Avropa İqtisadi Komissiyasının rəsmi saytındakı məlumatda bildirilib.

Qeyd edilib ki, layihələr qarşıdan gələn maliyyə forumunda dövlət və özəl investorlara təqdim olunacaq və Bakıda keçiriləcək COP29-da nümayiş etdiriləcək.

Seçilmiş layihələr ilkin olaraq 9 oktyabr 2024-cü ildə Hamburqda keçiriləcək III Avropa Regional Maliyyə Forumunda təqdim olunacaq. Bu forumun məqsədi dayanıqlı enerjiyə keçidə xüsusi diqqət yetirməklə dövlət və özəl sektorun maliyyəçiləri və layihə tərtibatçıları arasında əməkdaşlığı gücləndirməkdir. Bu tədbirlə sənaye liderləri, regional inkişaf üzrə maliyyə institutları, kommersiya kreditorları, suveren fondları, özəl kapital təminatçıları və xeyriyyəçilər bir araya gələcək.

Məqalə müəllifi qeyd edib ki, maliyyə enerji keçidində mühüm amildir. Kapitalı səfərbər etmək üçün çoxsaylı iqlim layihələrinin təşviqi vacibdir: "Bununla belə, bunun üçün siyasətçilər, maliyyəçilər, layihə tərtibatçıları və texniki yardım təminatçıları arasında daha səmərəli ekosistemlər və əməkdaşlıq lazımdır. Bu geniş regiondan COP28 üçün seçilmiş prioritet layihələr arasında dörd layihə orta hesabla təxminən 55% qismən maliyyələşib".

III Avropa Regional Maliyyə Forumu həmçinin "təmiz enerji", enerji səmərəliliyi, tullantıların enerjiyə çevrilməsi, sənaye karbonsuzlaşdırması və dayanıqlı nəqliyyat sahələrində investisiya imkanlarını araşdıracaq. Müzakirələr litium, nikel, mis və nadir torpaq elementləri kimi kritik xammalların uğurlu aşağı karbon keçidinin və "təmiz enerji" həllərinin həyata keçirilməsində əsas roluna yönəldiləcək.

# "Yaşıl Könüllülər" layihəsi çərçivəsində videoçarx hazırlanıb

**Azərbaycan Könüllülər İctimai Birliyi tərəfindən Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Yaşıl Könüllülər" layihəsi çərçivəsində videoçarx hazırlanıb.**

İctimai Birlikdən AZƏRTAC-a bildirilib ki, "Yaşıl Könüllü" adlı videoçarxda bir pianoçunun barmaqlarının toxunuşu ilə insanlara musiqi zövqü yaşatdığı kimi hər kəsin də ətraf mühitə qayğı ilə yanaşıb estetik zövq yaşatmalarını istəməsindən bəhs edilir.

Layihənin rəhbəri İmaməddin Quliyev, ssenarisi Orxan Cabbarlı, quruluşçu rejissoru Emil Babayev, operatoru İlkin Mehdiyev, montaj işi Arzum Nuruşzadə, pianoçusu Səba Qafarlı, səsləndirəni isə Səma İsalıdır.

Layihənin məqsədi gənclər arasında ekoloji maarifləndirmə işini genişləndirmək, gəncləri ekologiya sahəsində məlumat daşıyıcısı kimi formalaşdırmaqla birgə fəaliyyətə həvəsləndirmək, onları ətraf mühitin qayğısına qalmağa təşviq etməklə asudə vaxtlarının səmərəli keçirilməsinə şərait yaratmaqdan ibarətdir. Eyni zamanda layihə 2024-cü ildə Azərbaycanda elan edilən "Yaşıl dünya naminə həmrəylik ili" və COP29 kimi əhəmiyyətli tədbirlərin keçirildiyi vaxtda ətraf mühitin mühafizəsinə xidmət etməklə keçiriləcək tədbirlərə dəstək olmaq məqsədi daşıyır.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Fransanın problemləri gündən-günə çoxalır



### Makronun bərbad daxili və xarici siyasəti ölkəni ağır duruma salıb

**Azərbaycan və Ermənistan sülhə doğru məqsədyönlü addımlar atırlar. Normallaşma prosesi davam edir. Bu iki ölkə arasında sülh müqaviləsinin imzalanması ilə Cənubi Qafqaz regionuna sabitlik, dinclik gələcəyinə ümidlər artır.**

Öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Azərbaycan işğaldan azad olunmuş ərazilərində "Böyük Qayıdış" Proqramına uyğun olaraq genişmiqyaslı bərpa və yenidənqurma işlərinə başlayıb. Artıq uğurlu nəticələr göz önündədir. Qarabağda və Şərqi Zəngəzurda erməni vandalları tərəfindən işğal müddətində dağıdılmış, yandırılmış, xarabalığa çevrilmiş kəndlər, qəsəbələr, rayonlar, şəhərlər yenidən qurulur, tikilir, bərpa edilir. Keçmiş məcburi köçkünlər öz dədə-baba yurdlarına geri dönürlər. Beləliklə, Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə əməl edərək haqqı, ədaləti bərpa edir,

Azərbaycan və Ermənistanın uzun illər davam etmiş, müharibələrə səbəb olmuş problemlərin həllinə bu qədər yaxın ikən suyu bulandırmağa çalışanların ikili standartlara, müdaxilə cəhdlərinə son qoymamaları təəssüf doğurur. Belə ölkələr sırasında ən çox canfəşanlıq edən isə Fransadır. Emmanuel Makron hökuməti Cənubi Qafqaza yenidən nifaq toxumu səpmək niyyətini müxtəlif bəhanələrlə reallaşdırmağa səy göstərməklə, yaxın görünən sülh danışıqlarını əngəlləməklə, Ermənistanı açıq şəkildə silahlandırmaqla nümayiş etdirir. Halbuki bu ölkənin özünün problemləri həddindən artıqdır. Prezident Emmanuel Makron hökumətinin həyata keçirdiyi bərbad daxili və xarici siyasət nəticəsində Fransanın düşdüyü girdab gündən-günə daha da dərinləşir.

Əslində, bu günlər Fransa üçün əlamətdar olmalıdır. Ölkə otuz iki ildən sonra yenidən Olimpiadaya evsahibliyi edir. Yarışların başlanmasına sayılı günlər qalıb. İndi qədim Parisin küçələri, gəzməli-görməli yerləri turistlərin çoxluğu ilə diqqəti cəlb etməli idi. Ancaq görünən odur ki, mötəbər tədbirə hazırlaşmaq, gələcək qonaqları layiqincə qarşılamaq Fransa üçün ikinci plana keçib. Çünki ölkənin başı daxili problemlərin yaratdığı gərginliklərdən açılmır.

Fransa Milli Assambleyasına növbədənkənar seçkilərdə "Yeni xalq cəbhəsi" solçu koalisiyasının 182 mandata sahib olaraq üstünlüyü ələ almasından sonra çıxılmaz vəziyyətə düşən ölkənin Prezidenti Emmanuel Makron təşviş içərisindədir. Çünki onun rəhbərlik etdiyi "Birlikdə" koalisiyası Avropa Parlamentinə seçkilərdə rüsvayçı məğlubiyyətindən sonra Fransa Milli Assambleyasına növbədənkənar seçkilərdə də uğur qazana bilmədi. "Birlikdə" koalisiyası 168, Jordan Bardellanın "Milli Birlik" Partiyası 143 yer qazandı. Beləliklə, Emmanuel Makron ard-arda iki mühümi seçkini uduzdu. Əlacsız qalan Fransa prezidenti verdiyi ilk açıqlamalarda "heç kimin qalib gəlmədiyini" bəyan etdi. Emmanuel Makron "respublika qüvvələrini" ölkəni idarə etmək üçün "güclü çoxluq" yaratmağa səslədi.

Emmanuel Makronun seçkinin nəticələrini inkar etdiyini bildirən "CGT" Həmkarlar İttifaqının lideri Sofi Bine onun vəziyyəti inkar etməkdən əl çəkməli olduğunu diqqətə çatdırdı: "O, seçkilərdə məğlub olub. Versal sarayına çəkilən XVI Lüdovik kimi davranır. O, ölkənin vətəndaşlarının tələblərini dinləməli və özünü dünyadan bu qədər təcrid etməməlidir".

Fransa prezidentinin verdiyi açıqlamalar yeni seçilmiş parlament assambleyasının toplanacağı gün - 18 iyulda etirazlara çağıran "CGT" Həmkarlar İttifaqı da daxil olmaqla, fransız cəmiyyətinin qəzəbinə səbəb oldu. CGT bəyanatında qeyd etdi ki, hökumətin formalaşdırılmasını tələb etmək üçün etiraz aksiyaları prefekturaların, dövlət orqanlarının və Milli Assambleyanın binası qarşısında keçirilməlidir.

Olimpiya Oyunları isə iyulun 26-dan başlayaraq avqustun 11-dək davam etməlidir. Ancaq ölkədə baş verən hadisələr söyləməyə əsas verir ki, Emmanuel Makron hakimiyyəti Yay Olimpiya Oyunlarında çox ciddi sınaqlarla üzləşəcək.

Beləliklə, Fransa hökumətinin daxili və xarici siyasətindəki uğursuzluqların yaratdığı uçurum dərinləşməkdədir.

Fransanın Afrikadakı siyasətini tənqid etdiyinə görə, Kemi Seba təxəllüsü ilə tanınan publisist Stellio Jill Rober Kapo Kiçini ölkə vətəndaşlığından məhrum edilib. Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib: "Paris hansı günahlarına görə məşhur ictimai xadimi vətəndaşlıqdan məhrum etdi? İstər inanın, istərsə inanmayın, Fransanın Afrikadakı siyasətini tənqid etdiyinə görə. Baxmayaraq ki, hətta Makronun tərəfdarları da Yelisey sarayının Afrika ilə bağlı xarici siyasətini yaltaq epitetlərə layiq kurs adlandıra bilmirlər".

Mariya Zaxarova onu da nəzərə çatdırıb ki, Fransanın "Le Figaro" nəşri publisisti xarici agent adlandırıb: "Nə demokratiya və söz azadlığı ilə bağlı ənənəvi fransız təsəvvürləri, nə də tolerantlıq və insan hüquqlarına hörmət edilməsi üzrə müasir şərhlər Parisi Kemi Sebanın "Neqrofob neokolonializm" adlandırdığı sindromdan xilas edə bilməyib".

Demokratiya maskasını daxili və xarici siyasətində yol verdiyi haqsızlıqlarla, ədalətsizliklərlə, hətta cinayət əməlləri ilə yırtan, əsl simasını göstərən Fransa hökiməti bununla ən böyük zərbəni özünə vurur. Həmin zərbələrin ağrılarını çəkən, ağır vəziyyətə düşən isə yalnız Fransa hökumətinin müstəmləkə altında saxladığı ölkələrin xalqları deyil, həm də fransız xalqıdır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Trampın dəstəkçilərinin sayı artır

### Sabiq prezident əvvəlki əleyhdarını vitse-prezidentliyə namizəd göstərdi

**İyulun 15-də Respublikaçılar Partiyasının Miluoki şəhərində keçirilmiş qurultayında noyabrın 5-nə təyin edilmiş prezident seçkilərinə Donald Trampın namizədliyi rəsmən irəli sürüldü. Yəni Tramp prezidentliyə namizəd olmaq üçün partiyasından yetərincə səs toplaya bildi.**

Ümumiyyətlə, ABŞ-də iyulun 13-də seçki kampaniyası çərçivəsində seçicilərlə görüşdə çıxışı zamanı sui-qəsdə uğrayan Donald Trampın seçkilərdə qalib gələcəyi proqnozlaşdırılır. Ekspertlər bu hadisədən sonra sabiq prezidentin şansının artdığını vurğulayırlar. Onun rəqibi, hazırki prezident, Demokratlar Partiyasından Co Baydenin seçkilərdə rəsmən namizəd olması isə partiyanın avqust ayında keçiriləcək qurultayında məlum olacaq.

Son hadisələrdən sonra Bayden tərəfdaşlarının sırası seyrəlməkdədir, onu hətta ən yaxın dəstəkçiləri də tərk ediblər. Bununla bağlı müxtəlif mülahizələr mövcuddur.




### Sabiq prezidentin müdafiəsi gücləndirilib

Seçki öncəsi kampaniyanın davam etdiyi bir vaxtda, həmçinin Pensilvaniyada Trampa qarşı törədilən sui-qəsdin araşdırılması da davam etdirilir. Sabiq prezidentə qarşı törədilən sui-qəsdin bəzi təfərrüatları da ortaya çıxıb.

Belə ki, atəş səsi eşidilməzdən bir qədər əvvəl mitinq iştirakçıları yaxınlıqdakı binanın damına çıxan şəxsi görüb və yerli polisə xəbərdarlıq ediblər. Polis əlində tüfəng olan terrorçu ilə damın üstünə çıxarkən qarşılaşıb, Tomas Metyu Kruks isə sürətlə Trampa tərəf atəş açıb. İlk atəş açılandan dərhal sonra qarşı damda mövqe tutan snayperlər onu vuraraq öldürüblər.

Məhkəmə ekspertləri hücum zamanı üç ayrı silahdan atəş açıldığını bildirirlər. Qeyd olunur ki, ilk üç atış bir silaha, sonrakı beş atış isə digər silaha uyğundur. Son eşidilən atəş isə üçüncü silahdan açılıb.

ABŞ rəsmiləri Kruksun hücumdan 48 saat əvvəl nə etdiyini də müəyyənləşdiriblər. Məlum olub ki, o, atış poliqonuna gedərək saatlarla orada qalıb və 1,5 metrlik nərdivan, 50 güllə alıb. Ertəsi gün Trampın seçki kampaniyasına gedən və aldığı nərdivanla dama çıxan Kruks daha sonra sui-qəsdə cəhd edib.

Bununla yanaşı, onun telefonunda, evində aparılan araşdırmalar nəticəsində heç bir dəlil tapılmadığı bildirilir. Evində 20-dən çox silah olan Tomasın onların hamısını qanuni yolla aldığı vurğulanır. Sui-qəsdə cəhd edən Tomas 2022-ci ildə Bethel Park liseyini bitirib.

Məlumatlara əsasən, Kruksun adı Respublikaçılar Partiyasının üzvlük siyahısındadır. Hücumu törətdiyi deyilən Tomasın Trampı və onun seçki mitinqini niyə hədəfə aldığı hələlik məlum deyil.

Sui-qəsd cəhdindən sonra ABŞ Məxfi Xidməti hazırda prezidentliyə namizəd olan Donald Trampın mühafizəsini gücləndirib. Bu barədə Məxfi Xidmətin rəisi Kim Çitl bildirib. Çitlin sözlərinə görə, sabiq prezidentin etibarlı mühafizəsini təmin etmək üçün şənbə günündən etibarən təhlükəsizlik tədbirlərinin detallarında dəyişikliklər edilib.

### Tramp seçilərsə, ABŞ-nin vitse-prezidenti kim olacaq?

Hər kəsin Donald Trampdan maraqla gözlədiyi məlumatlardan biri də onun vitse-prezidentliyə namizəd olaraq kimin adını çəkəcəyi idi. Qurultaydan əvvəl o, sosial şəbəkə hesabında paylaşım edərək bu vəzifəyə Respublikaçı Ohayo senatoru Ceyms Devid Vensin namizəd olduğunu açıqlayıb.

Sabiq prezident paylaşımda qeyd edib ki, bir çoxlarının qeyri-adi istedadlarını düşünüb və nəzərdən keçirdikdən sonra ABŞ-nin vitse-prezidenti vəzifəsinə ən uyğun şəxsin Ohayo ştatının senatoru Ceyms Devid Vensin olduğuna qərar verib.

1984-cü il təvəllüdlü Ceyms Devid Vens Ohayoda anadan olub və orta təhsilini başa vurduqdan sonra ABŞ ordusuna qoşulub, 2005-ci ildə İraq müharibəsində dəniz piyadası kimi döyüşüb. Ohayo Dövlət Universitetində bakalavr təhsilini tamamlayan Ceyms daha sonra Yale Hüquq məktəbini bitirib. Əvvəllər tənqidi çıxışları ilə yadda qalan, Trampın əleyhdarı olan, onu "Amerikanın Hitleri" adlandıran Vens 2022-ci ildə Ohayo senatoru seçilərək siyasi arenaya gəlib. O vaxtdan isə "siyasət"ini dəyişərək Donald Trampı dəstəkləməyə başlayıb.

Hazırkı seçki kampaniyasında da Trampın böyük dəstəkçisi olan Vens sui-qəsd cəhdinə Baydenin seçki kampaniyasının səbəb olduğunu bildirmişdi.

Ohayo senatoru ABŞ siyasətində Ukrayna ilə bağlı şərhləri ilə gündəmə gələnlər sırasındadır. O, Ukraynanın müharibədə müvəffəqiyyətli olmaq üçün kifayət qədər hərbçi və texnikaya malik olmadığını qeyd edərək Bayden administrasiyasının bununla bağlı aydın bir planı olmadığını vurğulayıb. O, həmçinin sonda Ukraynanın ərazisinin bir hissəsini Rusiyaya verməli olacağını və müharibəni bitirməsini qəbul etməyin ABŞ-nin xeyrinə olacağını söyləyib.

İsrail-Qəzza məsələsində də senator ABŞ siyasətini tənqid edərək "məhbusların azad edilməsini" təmin edə bilmədiyi üçün Baydenə İsrailə "işi bitirməsinə" icazə verilməli olduğunu bildirib. ABŞ universitetlərində Fələstinə dəstək nümayişlərinə də reaksiya verən Ceyms Devid "Nəyi müdafiə etdiyiniz məni maraqlandırmır. İctimai yerlərimizi zibilliyə çevirə bilməzsiniz. Düşərgələrdən əl çəkin. Qanunları tətbiq edin", - deyərək yenə Amerikanı tənqid edir. İsrailyönlü mövqeyi ilə seçilən Vens ABŞ-nin İsrailə lazımi dəstəyi verməli olduğunu müdafiə edir. Daxili siyasətdə o, mühafizəkar baxışları ilə daha çox tanınır.

Bir sözlə, prezident seçkilərinə dörd aydan az müddət qaldığı bir vaxtda dünyanın diqqəti Amerikadadır. Son baş verən hadisələr isə yalnız siyasətçilər deyil, eyni zamanda dünya ictimaiyyəti arasında da seçkilərlə bağlı müxtəlif fikirlərin, versiyaların səsləndirilməsinə rəvac verib. Bu ərəfədə tanınmış şəxslərin belə Trampa dəstək nümayişi seçkilərin onun xeyrinə nəticələnəcəyi ehtimalını artırır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Hayastanda iki revanşist qüvvə birləşir

### Kilsə Paşinyana qarşı indi də daşnaklarla birgə hərəkət etməyi planlaşdırır

**Hayastanda etirazlar fonunda siyasi böhran gündən-günə kəskinləşir. Bu, həm də sosial-iqtisadi vəziyyətin daha da ağırlaşmasına səbəb olur.**

Revanşistlər baş nazir Nikol Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq üçün dəridən-qabıqdan çıxsalar da, hələ ki, heç bir nəticəyə nail ola bilmirlər. Keçmiş hərbi xunta etirazlarına əsas kimi hakimiyyətin yürütdüyü uğursuz siyasəti göstərir. Onlar iqtidarın xarici siyasətinin ölkəni uçuruma sürüklədiyini, dövlətçiliyin itirilməsi ilə üz-üzə qoyduğunu iddia edirlər.

Bu arada erməni Apostol Kilsəsinin rəhbəri II Qareginlə Daşnaksütyun Partiyasının büro nümayəndəsi (partiyanın idarəedici orqanıdır - red.) Akop Ter-Xaçaturyan görüşüblər. Görüşdə əsas müzakirə mövzusu regional hadisələr, xarici çağırışlar, Ermənistanın qarşısında duran problemlər və daxili siyasi situasiya olub. Tərəflər həmçinin Qarabağ ermənilərinin haqlarının müdafiəsi ilə bağlı proqrama dəstəyi davam etdirəcəklərini bildiriblər. Bundan başqa,



onlar Hayastanla-diaspor arasında əlaqənin gücləndirilməsi gərəkliyini bildiriblər.

Qeyd edək ki, kilsə və daşnaklar son bir ildə müttəfiq kimi hərəkət etməyə başlayıblar. Adətən daşnaklar Eçmiədzinə güvənmir və onun Kilikiya Katalikosluğu ilə hərəkətinə üstünlük verirlər. Qalstanyanın etirazlarından sonra daşnaklar Eçmiədzinlə yaxınlaşaraq Bakı ilə İrəvanın barışıq prosesinə mane olmağa cəhd edirlər. Daşnaklar bu baxımdan diaspor daxilində də Paşinyana qarşı təbliğatı artırıblar və böyük nəticələr əldə ediblər. Akop Ter-Xaçaturyanın katalikosla görüşməsi isə daşnakların bundan sonra da kilsə ilə birgə hərəkət edəcəyini deməyə əsas verir.

Bununla yanaşı, İkinci Qarabağ müharibəsində, daha sonra təxribatlar nəticəsində ölmüş hərbçilərin valideynləri də İrəvanda dövlət qurumlarının qarşısında aksiyalar təşkil edirlər. Hayastan İstintaq Komitəsinin binası qarşısına toplaşan valideynlər komitə sədri ilə görüşmək istəyirlər. Döyüşdə yaralanmış hərbçi Merix Naumyanın atası deyib ki, 44 günlük müharibədə əlil olmuş, amma tibbi-sosial ekspertiza zamanı hüquqlarının pozulmasından şikayət edən xeyli sayda hərbçi var. Müharibədə ağır yaralanmış həmin şəxslər şikayət edirlər ki, ekspertizanın gedişində ekspert komissiyalarının qərarı anormal qaydalarla verilir. Yəni onlar 1-ci qrup olsalar da, 3-cü qrup üzrə əlillik alırlar. Bir çoxu isə ümumiyyətlə, əlil statusu ala bilmir.

Bütün bunların fonunda Hayastanda sosial-iqtisadi durum getdikcə ağırlaşmaqda, ölkədə yaşanan tənəzzül durmadan genişlənməkdədir. Bu əsnada sadə vətəndaşların vəziyyəti daha da pisləşir ki, bu da ölkədə müşahidə olunan sosial narazılığın artmasına rəvac verir. Hazırda əhalinin durumu olduqca acınacaqlıdır. Onlar böyük səfalət içində yaşayır, gündəlik ərzaq almağa pul tapmaqda belə çətinlik çəkirlər. İndi Hayastanda əhalinin böyük əksəriyyəti banklara borcludur. Bank faizləri isə kifayət qədər yüksəkdir.

Bütövlükdə bütün bunlar Hayastanın böyük tənəzzül yaşadığını göstərir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## Avropa iqtisadiyyatı tənəzzüldədir

### Yanlış yanaşma tezliklə daha ağır nəticələrə gətirib çıxaracaq

**Avropanın gələcəyi nikbinlik doğurmur. Bu, ümumi rifah vəd edən Avropa İttifaqının böhranı ilə əlaqələndirilir. Bununla belə, avropalılar hələ də sadəlövhcəsinə inanırlar ki, tərəqqi əmək və məhsuldarlığın artımı hesabına deyil, gəlirlərin yenidən bölüşdürülməsi yolu ilə əldə edilir.**

Avstriyalı analitik Kristian Ortner hesab edir ki, bu kökündən yanlış yanaşma çox tezliklə kədərli nəticələrə gətirib çıxaracaq. Sahibkarların, menecerlərin və iqtisadçıların çoxsaylı xəbərdarlıqları Avropa İttifaqının vətəndaşlarının və seçicilərinin əksəriyyətini hələ də inandıra bilməyib ki, Avropa iqtisadiyyatı çökmək təhlükəsi ilə üz-üzədir və ənənəvi firavanlıq tezliklə itiriləcək. Belə qənaətə gəlinir ki, uzunmüddətli rahat həyat avropalıları tənqidi düşünmə tər-



zindən məhrum edib. Onlar hələ də rifahın yuxarıdan verilmiş hədiyyə olduğuna inanırlar və ağıllarına belə gətirə bilmirlər ki, sadəcə bir neçə yanlış siyasi qərar həyatlarını dərhal alt-üst edə bilər.

İsveçin "Ericsson" holdinqinin idarə heyətinin sədri Börje Ekholm Londonda çıxan "Financial Times" qəzetinə verdiyi müsahibədə qitənin perspektivindən danışarkən bildirib ki, Aİ dövlətlərinin bütün prosesləri tənzimləmək və nəzarətdə saxlamaq istəyi Avropanı iqtisadi baxımdan "əhəmiyyətsiz" edib.

Avropadan hasilatın geri çəkilməsi prosesi sürətlə getsə də, görünür, heç kim bundan narahat deyil. Onilliklər boyu sol-liberal təlqinlər rifahın sənaye və ticarət artımı ilə deyil, yenidən bölüşdürülməsi yolu ilə yaradıldığına kor-koranə inanan bir nəsil formalaşdırıb. Hətta əksinə, sol təmayüllü liberallar və "yaşıl siyasətçilər" arasında ciddi şəkildə inananlar var ki, sənaye istehsalının azalması müsbət haldır, çünki bu, $CO_2$ emissiyalarını azaldır.

Ortnerin fikrincə, belə bir təsəvvür yaranır ki, avropalılar ruhi xəstələrin hakimiyyəti ələ keçirdikləri dəlixanada yaşayırlar və yoxsullaşmanın onların əsas siyasi məqsədləri olduğunu bəyan edirlər. Təəssüf ki, bu yanaşma xəstə təxəyyülün məhsulu deyil, əslində çoxdan reallığa çevrilib. Beynəlxalq investorların bu mənfi tendensiyanı nəzərə almaları və Avropa elminə və istehsalına qoyulan sərmayələri daim azaltmaları buna sübutdur. Son onillik ABŞ və Avropa arasında dərinləşməyə davam edən böyük uçurumu nümayiş etdirib. Əgər 2010-cu ildə ABŞ və Aİ-nin ÜDM-i təxminən bərabər idisə, hazırda ABŞ bu göstərici üzrə Avropanı 30 faiz qabaqlayır. Bütün bunlar onu göstərir ki, Avropanın deqradasiyası davam edir. Bu prosesin orta statistik avropalıya dərhal görünməməsi şüurun və rəsmi təbliğatın ətaləti ilə izah olunur. Qərbi Avropada gənclərə "yaşıl inqilab"ın onlara firavanlıq gətirəcəyi ilə bağlı yalan illüziya verilir.

Qeyd olunduğu kimi, Avropadakı siyasi qüvvələrin heç biri yaxınlaşan təhlükəyə insanların gözünü açmağa çalışmır. Hətta mühafizəkar partiyalar da sosialist dünyagörüşü virusuna yoluxublar və "zəncirlənmiş" məhsuldar qüvvələri azad edə biləcək radikal iqtisadi islahatları rədd edirlər. İndiki Avropa İttifaqında bu, sadəcə olaraq, ağlasığmazdır. Buna görə də aktiv gənc avropalılar öz çantalarını yığıb köhnə qitəni tərk edirlər, çünki onlar şəxsi və peşəkar inkişaf üçün heç bir perspektiv görmürlər.

Alman iqtisadçı alim Henrik Müller "Manager Magazin" nəşrinin səhifələrində əhalini sosial apatiyanın bürüdüyünü qeyd edir. Kasıb olsa da, insanlar dəyişiklikdən qorxur və indiki vəziyyətə təslim olurlar. Bəs bu durğunluğun səbəbi nədir? Professorun fikrincə, insanlar deqradasiya rejimini "yeni normallıq" kimi qəbul edirlər və bioloqların dili ilə desək, sadəcə olaraq sosial anabioz halına düşürlər.

Beynəlxalq təşkilatların nüfuzunun getdikcə azaldığı bir zamanda Aİ ölkələri çətin vəziyyətdədir. Qoca qitənin dünyada rolu getdikcə azalır, Avropa İttifaqı tədricən ifrat sağçı və milli-populist qüvvələrin hakimiyyəti ələ keçirdiyi bürokratik və qeyri-şəffaf bir struktura çevrilir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

# Azərbaycan və Tatarıstan neftçiləri bir-birinin təcrübəsindən faydalanacaqlar

**İndi "Bibiheybət" yatağında "Tatneft" şirkəti də işləyəcək. "Tatneft" Azərbaycanın bu qədim yatağının işlənməsi layihəsinə daxil olacaq və burada SOCAR ( Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) ilə birlikdə texnologiyaların tətbiqi üzərində iş aparacaq.**




SOCAR-la Rusiyanın "Tatneft" Publik Səhmdar Cəmiyyəti (PSC) arasında neft-kimya sahəsində qarşılıqlı fəaliyyətə dair saziş və neft yatağında birgə işlərə dair anlaşma memorandumu hələ bu ilin mart ayında imzalanıb. SOCAR-ın və "Tatneft"in rəhbərlərinin görüşü də olub və şirkətlər arasında insan kapitalının inkişaf etdirilməsi, bu istiqamət üzrə perspektiv birgə hədəflər barədə müzakirələr aparılıb. Bunun ardınca, may ayında isə SOCAR və "Tatneft" arasında əməkdaşlığa dair Yol Xəritəsi imzalanıb. Bu sənədlə şirkətlər arasında neft hasilatı, emalı, neft və neft-kimya məhsullarının satışı, təcrübə mübadiləsi, insan kapitalının inkişafı və digər sahələr üzrə əməkdaşlıq nəzərdə tutulur.

"SOCAR ilə bizim çox sıx əməkdaşlığımız var. Biz indi "Bibiheybət" yatağında işləri aparmağa hazırlaşırıq, burada SOCAR-dan olan həmkarlarımızla birlikdə müxtəlif texnologiyaların tətbiqi ilə məşğul olacağıq". "Tatneft"in rəhbəri Nail Maqanov Almetyevskdə keçirilən V Beynəlxalq Neft-Qaz Gənclər Forumunun iştirakçıları ilə neft şirkətlərinin ənənəvi "Bərabərhüquqlu dialoq" sammiti zamanı belə deyib. Şirkətin rəhbəri nəzərə çatdırıb ki, " Bibiheybət" Azərbaycanın ən qədim yataqlarından biridir. Həmçinin əlavə edib ki, "Tatneft" Türkiyədə də SOCAR ilə birgə işləyir, neft-kimyanın inkişafı və neft emalı zavodlarının yenidən qurulması sahəsində fəal iş aparır: "Biz həmkarlarımızla bu sahələr üzrə birgə işləməkdən məmnunluq duyuruq".

Qeyd edək ki, "Tatneft" Rusiyanın beynəlxalq aləmdə tanınmış və qəbul edilmiş neft şirkətlərindəndir. Bu nəhəng istehsalat kompleksində neft və qaz yataqlarının geoloji kəşfiyyatı və işlənməsi, karbohidrogenlərin hasilatı və emalı, maşınqayırma, neft kimyası, yanacaqdoldurma, şin buraxılışı sahələri birləşib. "Tatneft" eləcə də maliyyə (bank və sığorta) sektoru şirkətlərinin kapitalında iştirak edir.

Şirkət Rusiyanın bir çox ərazisində neft-qaz yataqlarının öyrənilməsi, kəşfiyyatı və karbohidrogenlərin hasilatı ilə məşğul olsa da, əsas fəaliyyət məkanı Tatarıstandır. "Tatneft"in respublikada və onun hüdudlarından kənarda yataqların geoloji cəhətdən öyrənilməsi üçün çoxsaylı lisenziyaları var. Şirkət indiyədək "Yeni Yelxov", "Bavlin", "Boncyuk", "1 May", "Sabaçin" də daxil olmaqla 100-dən çox yataqda iş aparıb. Bununla belə, əsas ehtiyat mənbələri dünyanın ən böyük yataqlarından olan "Romaşkin"də yerləşir. Şirkət ümumi hasilatının böyük hissəsini bu yataqdan əldə edir.

Yataqlarının coğrafi cəhətdən bir-birinə yaxınlığı, özünün emal və generasiya qurğularının, neftin və digər məhsulların satışı üçün logistikasının olması şirkətin biznesinə müsbət təsir göstərir. Belə ki, "Tatneft" dünyanın onlarla ölkəsinə məhsul ixrac edir. Şirkətin neft emalı məhsulları Rusiyanın müxtəlif regionunda satılır. Şirkət neft-qaz hasilatının rentabelliyinin, istehsal həcmlərinin, emal məhsullarının satışının artırılması, əməliyyat xərclərinin azaldılması, sərmayələrin səmərəliliyinin yüksəldilməsi, idarəetmənin təkmilləşdirilməsi üçün daim yeni təşəbbüslər irəli sürür.

Sabit inkişafa və neft hasilatının getdikcə artmasına təkan verən həm də şirkətin böyük istehsalat təcrübəsi, müasir texnologiyalar və elmi-texniki potensialdır. Neft hasilatının biznes-planlaşdırılması, yataqların işlənməsi proseslərinin sürətləndirilməsi və iqtisadi cəhətdən daha səmərəli geoloji-texniki tədbirlərin həyata keçirilməsi üçün burada müxtəlif modellər əsasında modelləşdirmə mərkəzi yaradılıb.

Bir sözlə, "Tatneft"in fəaliyyəti çoxşaxəlidir. Qısaca desək, onun neft quyusundan başlanıb benzindoldurma məntəqəsində sona çatan fəaliyyət zənciri var.

Şirkət digər ölkələrdəki həmkarları ilə əməkdaşlığı getdikcə genişləndirir. "Tatneft" hər il Bakıda keçirilən Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində və Konfransında ilk dəfə 2019-cu ildə iştirak etdi. Beş il əvvəl Bakı Ekspo Mərkəzində adıçəkilən sərgi zamanı şirkətin nümayəndəsi bizimlə söhbətində demişdi:" "Tatneft" əməkdaşlığa açıq şirkətdir. Bir sıra birgə layihələrimiz var və indi yeniləri üzərində də işləyirik. Türkmənistan, Özbəkistan, Qazaxıstan neftçiləri ilə sıx əlaqələrimiz var. Azərbaycanlı həmkarlarımızla da əməkdaşlığı inkişaf etdirmək niyyətindəyik. Açığı, bizi bu sərgiyə SOCAR dəvət edib. Biz SOCAR-ın nümayəndələri ilə Özbəkistanda keçirilən analoji sərgidə tanış olduq. Dəvəti də elə orada aldıq. Düşünürəm ki, əməkdaşlığımız çox faydalı olacaq. Çünki həm Azərbaycan, həm Tatarıstan neft-qaz sektorunda zəngin təcrübə qazanıblar və bilgilərimizin mübadiləsindən hər iki tərəf bəhrələnəcək. Artıq bu sahədə müəyyən razılaşmalara gəlmişik və danışıqları davam etdiririk".

İndi bu əməkdaşlıq artıq öz bəhrəsini verməyə başlayıb. Onu da qeyd edək ki, "Tatneft"in "yaşlı" yataqlara xidmət etmək, onlardan maksimum hasilat almaq sahəsində də zəngin təcrübəsi var. "Bibiheybət" yatağında da məhz bundan istifadə ediləcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Elektrik enerjisi istehsalında "yaşıl enerji"nin payı 15 faizə yüksəlib

**Bu ilin birinci yarısında elektrik enerjisinin istehsalı 13 milyard 557,4 milyon kilovat-saat, ixracı 444 milyon kilovat-saat, idxalı 96,4 milyon kilovat-saat olub.**

AZƏRTAC xəbər verir ki, bu barədə energetika naziri Pərviz Şahbazov məlumat verib.

O bildirib ki, hesabat dövründə İES-lər üzrə 11 milyard 525 milyon kilovat-saat, su da daxil olmaqla bərpaolunan enerji mənbələrindən 950,7 milyon kilovat-saat artımla 2 milyard 32,4 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib.

Nazir vurğulayıb ki, bu dövrdə elektrik enerjisi istehsalında "yaşıl enerji"nin payı 15 faizə yüksəlib.

## Azərbaycanda fərdi sahibkarların sayı 1 milyon 356 mini ötüb

**Cari il iyulun 1-i vəziyyətinə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 1 milyon 356 mini ötüb.**



Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, hesabat dövründə hər dörd fərdi sahibkardan üçü "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq", "Ticarət; nəqliyyat vasitələrinin təmiri", "Nəqliyyat və anbar təsərrüfatı" və "Digər sahələrdə xidmətlərin göstərilməsi" sahələri üzrə qeydiyyatdan keçib. Sahibkarlıqla məşğul olmaq niyyətində olan fərdi sahibkarların əsas hissəsi Bakıda (26,5 faiz), Lənkəran-Astara (10,2 faiz), Qazax-Tovuz (7,9 faiz) və Mərkəzi Aran (7,1 faiz) iqtisadi rayonlarında qeydiyyata alınıb.

Fərdi sahibkarların 77 faizi kişilər, 23 faizi isə qadınlar olub. Qadınlar "Digər sahələrdə xidmətlərin göstərilməsi" fəaliyyət növündə mövcud sahibkarların ümumi sayının 35,7 faizini, "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" fəaliyyət sahəsində 25,7 faizini, "Ticarət; nəqliyyat vasitələrinin təmiri" fəaliyyət sahəsində isə 21,6 faizini təşkil edir. Sahibkar qadınların 28,6 faizi Bakıda, 10,2 faizi Lənkəran-Astara, 9,6 faizi Qazax-Tovuz, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyatdan keçib. Fərdi sahibkarların cins tərkibinin regionlar üzrə say bölgüsündən aydın olur ki, Qazax-Tovuz (28,2 faiz), Naxçıvan Muxtar Respublikası (26,7 faiz), Gəncə-Daşkəsən (25,9 faiz), Bakı (24,8 faiz) iqtisadi rayonlarında qadın sahibkarların payı ölkə üzrə orta göstəricidən yuxarıdır.

## Cari ildə sərnişindaşımada artım qeydə alınıb

**Dəmir yolu nəqliyyatı ilə bu ilin yanvar-iyun aylarında 9,3 milyon ton yük, 3 milyon 849 min sərnişin daşınıb. 2023-cü ilin eyni dövrü ilə müqayisədə yük daşınmasında 1,4 faiz, sərnişin daşınmasında isə 19,2 faiz artım müşahidə olunub.**

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, orta hesabla sutkada 373 vaqon yüklənib, 426 vaqon isə boşaldılıb. Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 17,3 min ton, Qərb istiqaməti üzrə 3,9 min ton, Cənub istiqaməti üzrə isə 0,7 min ton yüklənmə işi yerinə yetirilib. Dəniz nəqliyyatı ilə bu ilin yanvar-iyun aylarında daşınmış yüklərin həcmi 4 milyon 125 min ton təşkil edib və əvvəlki ilin müvafiq dövrünə nisbətən 8,6 faiz azalıb. Yüklərin 48,7 faizini neft yükləri təşkil edib. Dəniz limanları tərəfindən 6 milyon 852 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilib və yüklərin 5 milyon 487 min tonunu və ya 80,1 faizini tranzit yüklər təşkil edib.

Bu il iyul ayının 1-i vəziyyətinə limanlarda qalan yüklərin həcmi 303,8 min ton olub. Dövr ərzində bu nəqliyyat növü ilə daşınmış sərnişinlərin sayı 2023-cü ilin müvafiq dövrünə nisbətən 27,6 faiz artaraq 13,4 min nəfər olub.

Nəqliyyat sektorunda daşımaların həcmində xüsusi çəkisi ən böyük olan avtomobil nəqliyyatı ilə 65,6 milyon ton yük, 848,6 milyon sərnişin daşınıb və əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 7,9 faiz və 8,6 faiz artım qeydə alınıb. Sərnişinlərin 95,3 faizi avtobus, 4,7 faizi isə minik taksilərinin xidmətlərindən istifadə edib. Tük dövriyyəsi 11,1 faiz, sərnişin dövriyyəsi isə 10,0 faiz artıb. Metro nəqliyyatının xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı 4,1 faiz artaraq 113,2 milyon nəfər olub. Hava nəqliyyatı ilə 1 milyon 784 min və ya 44,7 faiz çox sərnişin daşınıb. Daşımaların 99,9 faizi dövlət, 0,1 faizi isə özəl müəssisələrə məxsus nəqliyyat vasitələri ilə həyata keçirilib. Bu nəqliyyat növü ilə yükdaşıma 16,6 faiz artaraq 197,5 min ton olub.

## Banklardakı əmanətlərin 65 faizdən çoxu milli valyutada qoyulub

**Əhalinin banklardakı əmanətlərinin məbləği il ərzində 10,3 faiz artaraq cari il iyun ayının 1-nə milli valyuta ekvivalentində 13 milyard 678,7 milyon manat təşkil edib.**

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, əmanətlərin 65,3 faizi milli, 34,7 faizi xarici valyutada qoyulub, xarici valyutada qoyulmuş əmanətlərin məbləği əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,7 faiz, milli valyutada olan əmanətlərin məbləği isə 16,2 faiz artıb.

# "Onlayn Azərbaycan" genişlənir və razılıqla qarşılanır

## Ölkədə ev təsərrüfatı və biznes subyektlərinin 85 faizi genişzolaqlı internetlə əhatə olunub

**Son illər ölkəmizdə internetin inkişafı və internet sürətinin artırılması yönündə fəal tədbirlər həyata keçirilir. Regionların, xüsusən paytaxtdan uzaqda yerləşən və nisbətən ucqar sayılan rayonların fiber-optik internetlə təmin edilməsi üçün isə ciddi addımlar atılır.**

Azərbaycanda genişzolaqlı internetin sürəti 2022-ci ilin dekabrında 27.15 Mbit/s olduğu halda, 2023-cü ilin eyni dövründə artaraq ortalama 35,25 Mbit/s-i keçib. Bu isə cəmi 12 ay ərzində olduqca yüksək nəticənin əldə edilməsi deməkdir. Hazırda Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən həyata keçirilən "Onlayn Azərbaycan" layihəsi çərçivəsində müxtəliftutumlu mis kabellər və əvvəlki dirəklər istismardan çıxarılaraq kütləvi şəkildə müasir standartlara cavab verən fiber-optik kabellərlə və yeni dirəklərlə əvəzlənir. Burada əsas məqsəd bir neçə telekommunikasiya operatorunun birgə səyləri nəticəsində sürətli internetlə əksər regionları əhatələyən genişzolaqlı şəbəkə qurmaqdan ibarətdir. Dövlət-özəl tərəfdaşlıq modelinə əsaslanan layihənin icraçıları "Aztelekom" MMC, "Bakı Telefon Rabitəsi" MMC, "Azeronline LTD", "Smart Systems Tecnology" və "MegaLink" şirkətləridir.

"Aztelekom" MMC də layihə çərçivəsində telekommunikasiya infrastrukturunun yenilənməsi və müasir beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində genişmiqyaslı işlər görür. Gəncədə sürətli və kəsintisiz internet xidməti göstərən fiber-optik GPON (Gigabit Passive Optical Networks) şəbəkəsinin tikintisi ilə əlaqədar zəruri avadanlıqlar montaj olunaraq istifadəyə verilib, GPON texnologiyası əsasında layihələndirmə işləri həyata keçirilib. Şəhərin 90 faizdən çox hissəsi yüksəksürətli internetlə əhatə olunub. Hazırda şəhər ərazisində 20 mindən çox ev təsərrüfatı və biznes subyekti xidmətlərdən yararlanır. Yeni qoşulmalar davam etdirilir.

Şamaxı rayonunda da mövcud ev təsərrüfatı və biznes subyektlərinə GPON texnologiyası ilə yüksəksürətli internetə qoşulma imkanı yaradılıb. Belə ki, Şamaxı şəhərində şəbəkənin tikintisi yekunlaşıb. Şəhər mərkəzində 9125 təsərrüfatdan 3093 ev təsərrüfatı və biznes subyekti GPON xidmətlərindən yararlanır. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən bildirilib ki, rayonun Muğanlı, Meysəri, Böyük Xınıslı, Şəhriyar, Avaxıl, Ərçiman, Dəmirçi, Səfalı, Qaleybuğurd, Əngəxaran, Muğanlı, Şərədil, Güneşli, Şirvanzadə, Qurdtəpə, Mirikənd, Qaravəli, Məlcək, Kərkənc, İkinci Cabanı, Qonaqkənd, Cabanı, Həmyə, İkinci Çaylı, Çarhan, Adnalı, Sabirli, Nüydi, Göylər, Məlikçobanlı, Dağ Bağırlı, Birinci Çaylı, Laləzar, Quşçu, Bağırlı, Ovçulu, Hacıqədirli, Göylər Çöl kəndləri və Pirqulu, Mədrəsə, Sabir, Yusif Məmmədəliyev qəsəbələrində 12214 təsərrüfat üçün şəbəkənin tikintisi başa çatdırılıb. Ümumilikdə rayonda mövcud təsərrüfatların 80 faizdən çoxunun genişzolaqlı internetə çıxışı təmin olunub. Hazırda rayon ərazisində 8860 təsərrüfat GPON xidmətlərindən istifadə edir.

"Onlayn Azərbaycan" layihəsi üzrə "Aztelekom" MMC tərəfindən Şabran şəhərində şəbəkənin tikintisi başa çatdırılıb. Şəhər mərkəzində 5989 təsərrüfatdan 2334 ev təsərrüfatı və biznes subyekti GPON xidmətlərindən istifadə edir. Rayonun Dəvəçikənd, Surra, Taxtalar, Sincanboyad, Dəvəçi, Mollakamallı, Ağalıq, Daşlıyataq, Söhbətli, Ağbaş kəndlərində 4557 təsərrüfat üçün şəbəkənin tikintisi tamamlanıb. Ümumilikdə isə rayonda mövcud təsərrüfatların 70 faizinin genişzolaqlı internetə çıxışı təmin edilib. Hazırda rayon ərazisində 3459 təsərrüfat GPON xidmətlərindən yararlanır və burada da yeni qoşulmalar davam etdirilir.

Masallı şəhərində GPON texnologiyası əsasında fiber-optik şəbəkə yaradılıb. Masallı rayonunun İkinci Səmədxanlı, Bədəlan, Yusifli, Dəlləkoba, Çayqıraq, Aşurlu, Dəmirçi, Babaser, Qızılavar, Köhnə Alvadı, Təzə Alvadı, Böyük Kolatan, Bala Kolatan, Meşəkənarı, Böyük Xocavar, Banbaşı, Yeyənkənd, Abasbəyli və Xəlfələr kəndlərində işlər yekunlaşıb. Masallı şəhər mərkəzində 4538, rayonda isə 9857 ev təsərrüfatı və biznes subyekti genişzolaqlı internet xidmətlərindən yararlanır.



Ümumilikdə Masallı rayonu ərazisində 20403 ev təsərrüfatı və biznes subyekti yüksəksürətli internetlə əhatə olunub, 14000-dən çox abunəçi xidmətlərdən faydalanır və yeni qoşulmalar üçün çoxsaylı müraciətlər var.

"Onlayn Azərbaycan" layihəsi çərçivəsində "Aztelekom" MMC İsmayıllı rayonunda da xeyli işlər görüb. İsmayıllı şəhərində şəbəkənin tikintisi yekunlaşıb. Şəhər mərkəzində 10235 təsərrüfatdan 6994 ev təsərrüfatı və biznes subyekti GPON xidmətlərindən yararlanır. Rayonun Xələnc, Talıstan, Cülyan, Xanagah, Göytəpə, Mücühəftəran, Ruşan, Vəng, Hacıhətəmli, Kürd Eldarbəyli, Mollisaqlı, Gideyli, Qalagah, Soltanbayramlı, Enişdibi, Talış, Qarakolluq, Hapıtlı, Yenikənd, Şükürçü, Uştalqışlaq, Girk, Kəlbənd, Lahıc, Qaraqaya, Gəndov, Namazgah, Ərəgit, Əhən, Topçu, Buynuz, Qurbanəfəndi, Qubaxəlilli, Gərəybəyli, Əyyubbəyli, Xəlilli, "Kölüllü 1", "Kölüllü 2", Aşağı Zərnəva, Diyallı, Yuxarı Diyallı, Sədiyan, Güyüm, Təzəkənd, İkinci Yeniyol, Birinci Yeniyol, Ağbulaq, Qoşakənd, Tircan və Maçaxı kəndlərində 15442 təsərrüfat üçün şəbəkənin tikintisi başa çatdırılıb. Ümumilikdə rayonda mövcud təsərrüfatların 80 faizdən çoxunun genişzolaqlı internetə çıxışı təmin olunub. Hazırda rayon ərazisində 12393 təsərrüfat GPON xidmətlərindən yararlanır və yeni qoşulmalar aparılır.

Müasir texnologiyaların tətbiqi istiqamətində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin həyata keçirdiyi "Onlayn Azərbaycan" layihəsi çərçivəsində ölkənin digər bölgələrində də yüksəksürətli internetin təmin edilməsi üçün müvafiq işlər planlı şəkildə davam etdirilir. Ümumilikdə 2,49 milyona yaxın təsərrüfat genişzolaqlı internetlə əhatə olunub. Bu, ölkədə mövcud ev təsərrüfatı və biznes subyektlərinin 85 faizini təşkil edir.

*Qurban MƏMMƏDOV,*
*"Azərbaycan"*






# Gənclik






● Gələcəyə dəstək

**Hər bir ölkənin gələcəyi onun gənclərinin düşüncə tərzi, intellektual səviyyəsi, milli ruhu əsasında formalaşır. Azərbaycan gəncliyi xalqımızın əsrlər boyu yaratdığı dövlətçilik ənənələrini, milli mədəniyyəti gələcəyə daşıyan böyük qüvvədir. Onlar dövlətimizin həm bu günü, həm də gələcəyidirlər.**



## Vətənpərvərlər

Son illərdə ardıcıllıqla qəbul edilmiş və hazırda uğurla həyata keçirilməkdə olan "Azərbaycan gənclərinin inkişaf strategiyası (2015-2025-ci illər)", müxtəlif dövlət proqramları, xüsusilə gənclərin azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında tərbiyəsinə, onlar arasında milli-dini dözümlülük, sülhsevərlik, humanizm dəyərlərinin təbliğinə və s. məsələlərə yeni imkanlar yaradır.

Bu gün Azərbaycanda həyata keçirilən gənclər siyasətinin, onlara göstərilən diqqət və qayğının əsasında ölkə üçün layiqli vətəndaş və sağlam nəslin yetişdirilməsi, cəmiyyətdə vətənpərvərlik ruhunun daim yüksək olması məqsədi dayanır. Belə bir ruh Azərbaycanda regionun ən qüdrətli ordusunu formalaşdırıb. Hər addımında insanlarımızın sevgisini, dəstəyini duyan bu ordu sıralarında xidmət edən gənclərimizin vətən sevgisinin gücü ilə nələrə qadir olduqlarını 2016-cı ilin Aprel zəfərində sübuta yetirdilər. Bununla həm də Azərbaycanda necə cəsur, vətənpərvər bir gəncliyin yetişdiyini görürük. Müstəqillik dövründə böyümüş gənclik Qarabağ müharibəsinin, itirilmiş torpaqlarımızın dərslərini yaxşı mənimsəyir. Bu işdə vətənpərvərlik təbliğatı aparan insanlarımızın da böyük əməyi vardır.

Prezident İlham Əliyevin tarixi tədbirlərdəki çıxışları cəmiyyət üçün əsl vətənpərvərlik tərbiyəsi, həmişə gəncliyə çağırış xarakteri daşıyırdı: "Azərbaycan getdikcə güclənəcək. Biz inkişaf yolundayıq. Bizim qarşımızda bütün yollar açıqdır, üfüqlər aydındır. Bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedəcək. Ermənistan bizimlə heç cür rəqabət apara bilməz və bilməyəcək. Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, iqtisadi güc bizdədir, hərbi güc bizdədir, vətənpərvərlik ruhu bizdədir ".

44 günlük Vətən müharibəsinin ən ağır yükü də cəbhədə misilsiz qəhrəmanlıqlar göstərən, ərazi bütövlüyümüz naminə şəhid olan, yaralanan, hər yüksəkliyin, kəndin, qəsəbənin, şəhərin azadlığı üçün silah yoldaşları ilə birgə böyük əziyyətlər çəkən gənc əsgər və zabitlərimizin üzərinə düşdü. Qarabağın tacı, ruhumuzun şəhəri olan Şuşanın azad edilməsi üçün qayalardan dırmanaraq yüngül silahlarla - bıçaqla, avtomatla tankın, topun üzərinə atılan, bu igidliyi dünyanın hərb tarixinə düşən Azərbaycan gəncliyinin qəhrəmanlığını unutmaq olarmı?!

Vətən müharibəsi ərəfəsində, hərbi əməliyyatların gedişində hər yeri bayraqlarımızla bəzəyən, öz coşqusu ilə cəmiyyətimizi qələbə ovqatına kökləyən, inam yaradan da əsasən gənclərimiz idi. Prezidentin səfərbərlik çağırışına on minlərlə gənc qətiyyətlə cavab verdi. Hamı döyüşə getmək üçün könüllü yazılırdı. Gənclərimiz yerli səfərbərlik orqanlarından dərhal orduya aparılmalarını israrla tələb edirdilər. Hər vəchlə cəbhədəki dostlarının, həmyaşıdlarının yanında olmağa, düşməndən qisas almağa can atırdılar. Hərb meydanına, qanlı savaşa sevinə-sevinə yollanırdılar. Düşmənlə üz-üzə yalnız qələbə barədə düşünür, vətənpərvərlikləri, döyüş ruhları, hazırlıqları, əzmkarlıqları ilə işğalçının qorxulu yuxusuna çevrilirdilər. Onların azad edilmiş məskənlərimizdə üçrəngli bayrağımızı qaldırmaları, Dövlət himnimizi oxumaları Azərbaycan gəncliyinin Vətən qarşısındakı müstəsna xidmətlərinin tarixdə əbədiləşmiş mənzərəsidir. Bu mənzərədə tarix hər zaman Azərbaycan xalqının yenilməzliyini görəcək.

44 günlük Vətən müharibəsi gedişində cəmiyyətdə, ölkəmizin ərazi bütövlüyü kimi taleyüklü məsələdən sonra gələn bütün müzakirə mövzuları arxa plana keçirildi. Xalq böyük qələbə üçün imkanlarını tam səfərbər etdi. Əsgər və zabitlərimiz ön cəbhədə düşmənlə üz-üzə əlindəki silahı ilə, cəmiyyət həyatının müxtəlif sahələrində çalışan əmək adamlarımız arxa cəbhədəki fəaliyyəti ilə, informasiya savaşında iştirak imkanı olan hər kəs səsi-sözü ilə, milli həqiqətlərimizi çatdırmağı ilə qələbəyə öz töhfəsini verməyə çalışdı. İndi hamı deyir, Vətən müharibəsində qazandığımız qələbə milli birliyimizin qələbəsidir. Ona görə bu qələbə bizim üçün bu qədər parlaq, dəyərli və tarixidir.

Azərbaycan gəncliyi öz missiyasını bu gün də davam etdirir. Azad edilmiş torpaqlarımızı göz bəbəyi kimi qoruyur.

Vətən müharibəsində şücaət göstərmiş Azərbaycan gənclərinin qəhrəmanlığı layiqincə qiymətləndirilir. Azərbaycan Respublikasının Prezidenti on minlərlə gəncimizi Vətən müharibəsindəki xidmətlərinə görə dövlətimizin ali orden və medalları ilə təltif edib. Onlar hər zaman bu orden və medalları sinələrində şərəflə daşıyacaqlar. Elin-obanın, gələcək nəsillərin qürur yeri olacaqlar. Vətən müharibəsində şəhid olmuş gənclərimizin məzarları ən müqəddəs and yerimizdir. Dövlətimiz şəhid ailələrinin, müharibədə sağlamlığını itirmiş əsgər və zabitlərimizin, mülki vətəndaşlarımızın hər zaman yanındadır. Onların sosial müdafiəsi üçün lazımi tədbirlər görülür. Azərbaycan gəncləri də müxtəlif vətəndaş təşəbbüsləri ilə bu məsələlərdə dövlətimizə dəstək olmağa çalışır.

Vətənə böyük zəfərlər qazandırmış bu gənclik ölkəmizin möhtəşəm nailiyyətləri ilə tariximizin yeni şanlı səhifələrini yaradır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

● Peşəsinin vurğunu

## Dövlətimiz gənclər üçün geniş imkanlar yaradıb

**"Babam ibtidai sinif müəllimi idi. Onun öz peşəsinə sevgisi bütün nəslə təsir etmişdi. Qohum-əqrəba peşə seçimi edəndə çox fikirləşməli olmurdu. Pedaqoji sahəyə üstünlük verirdilər. Mən də kiçik yaşlarımdan həyatımı uşaqlara həsr edəcəyim barədə qərarlı idim. Öz hücrəmə çəkilib gah müəllim, gah da həkim olurdum... Orta məktəbdə kimya, biologiya dərslərini keçəndən sonra daha çox uşaq həkimi olacağım barədə fikirləşirdim. Uşaqlar bir ailənin sevinci, bir nəslin davamçısı, bir millətin gələcəyidir. Qəbul imtahanı zamanı seçim edəndə Tibb Universitetinin pediateriya, formokologiya və Bakı Dövlət Universitetinin Biologiya fakültələrini göstərdim..."**



Söhbət redaksiyamızın qonağı olan gənc həkim Reqina İlqar qızı Nemətovadan gedir.

O, 1988-ci il yanvarın 25-də Bakı şəhərində anadan olub. 2005-ci ildə 145 saylı məktəbi fərqlənmə diplomi ilə bitirərək elə həmin il ATU-nın Pediatriya fakültəsinə qəbul olunub. 2011-ci ildə ATU-nu da fərqlənmə diplomu ilə bitirən gənc həkim rezidentura təhsilini K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunda alıb.

Həkimlik fəaliyyətinə bu institutda başlayan Reqina Nemətova 2018-ci ildə Yenidoğulanların reanimasiya və intensiv terapiya şöbəsinə müdir təyin edilir. Gənc həkim Rusiya, Türkiyə, Latviya, Kipr və bir sıra xarici ölkələrdə keçirilən konqres və simpoziumlarda ölkəmizi təmsil edib.

Reqina xanım uşaq həkimliyinin spesifik xüsusiyyətlərindən də bəhs etdi: "Bütün peşələrin özünəməxsus çətinlikləri var. Mən deyərdim ki, pediateriya tibbin ən çətin sahəsidir. Nəzərə alın ki, pasiyent dilsiz-ağızsız yeni doğulan körpədir. Uşaq bədən dili, baxışları ilə özü hər şeyi ifadə edir".

Həkim pasiyentin bədən ifadəsinə, səsin tembrinə görə xəstəliyi müəyyən etməyi bacarmalıdır. Bunun üçün həkimdə güclü hissiyyat olmalıdır. Əgər hissiyyatın yoxdursa, gündə 100 kitab oxusan belə xəstəliyi müəyyən edə bilməyəcəksən. Buna altıncı hiss deyilir. Bu, olmasa həkim olmaq mümkün deyil.

Reqina xanımla qeysəriyyə əməliyyatı ilə doğulan uşaqlar barədə də söhbət etdik. O dedi:

- Uşaq həm qeysəriyyə, həm də təbii doğuş yolu ilə dünyaya gəlir. Çox təəssüf ki, bu gün dünyaya gələn körpələrin çoxu qeysəriyyə əməliyyatı ilə doğulur. Bunun da müxtəlif səbəbləri var. İlk növbədə analara təbii doğuşun faydası düzgün izah edilmir. Bəzən həkim özünü yormaq istəmir, bəzən ana özü qorxur. Məlumatsızlıqdan gənc analar qeysəriyyəyə üstünlük verirlər. Bircə faktı deyim, təbii doğuş olanda uşaqların ağ ciyərində olan maye sızılma nəticəsində tənəffüs yollarından xaric olur. Belə uşaqlarda tənəffüs çatışmazlığı xəstəliyi olmur. Təbii doğuş olanda uşaq ananın mikroflorası ilə tanış olur. Çox təəssüf ki, bizə gələn xəstə uşaqların əksəriyyəti qeysəriyyə ilə doğulanlardır.

Qeysəriyyə kəsiyi ilə doğulan uşaqlar ilk anda ananı tanımır. Ana əməliyyatda olduğu üçün uşaq ilk dəfə gözünü açanda anasını yox, tibb bacısını görür, tibb bacısı ilə "tanış" olur.

Reqina həkim deyir ki, xəstə uşağın sağlamlığında həkimdən çox valideynin inamı böyük rol oynayır. Körpələri xəstə doğulan valideynlərdə xəstənin sağalacağına inam itəndə sanki körpə onu hiss edir. Valideynin, atanın, ananın inamı telepatik yolla uşağa keçib ona güc verir.

Reqina xanım bizimlə söhbətində çox vacib bir məsələyə də toxundu: "Gənclərə müraciətlə demək istəyirəm ki, insanın ən güclü müdafiəçisi onun savadı, inamı, qətiyyətidir. Heç kim düşünməsin ki, savadlı olub inkişaf etmək üçün mütləq güclü arxası, himayədarı olmalıdır. Dövlətimiz bu gün savadlı, gənc kadrlar üçün geniş imanlar yaradıb. Müəllim ailəsindən çıxmışam. Dövlətimizin gənclərə olan qayğısı və özümün çalışqanlığım, biliyim, bacarığım sayəsində çoxlarının ömrü boyu xəyal etmədiyi bir mərhələdəyəm. Qazandığım uğurlara görə məni yetişdirən valideynlərimə, imkanlarımdan düzgün istifadə etdiyinə görə institutumuzun rəhbərliyinə, tutduğum mövqeyə görə gənclərə meydan verən dövlətimə minnətdaram".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Təlim proqramı Milanda davam edib

**ADA Universitetinin Milan Politexnik Universiteti ilə birgə təklif etdiyi sertifikatlaşdırılmış praktiki təlim proqramının ikinci modulu Milanda davam edib.**



Universitetdən bildirilib ki, bu modulun əsas məqsədi tarixi və memarlıq binalarının yeni təyinat üzrə bərpası və urbanistik kontekstdə canlandırılması ilə bağlı çoxsaylı nümunələr əsasında nəzəri və praktik bilik verməkdir.

Modulun ilk günündə Milan Politexnik Universitetinin beynəlmiləlləşmə üzrə prorektoru İlarya Valente proqramda iştirak edən 20-dək gənc memarla Şəki kampusu barədə fikir mübadiləsi aparıb, tövsiyələrini bölüşüb.

Proqram iştirakçıları mühazirə və qrup işləri ilə yanaşı, Milan, habelə Breşia, Berqamo və Piaçenza şəhərlərinə səfər edib və tarixin müxtəlif dönəmlərində xəstəxana, kilsə, sallaqxana, kazarma və başqa məqsədlər ilə inşa edilmiş və fəaliyyət göstərmiş, hazırda isə təhsil ocağı kimi fəaliyyət göstərən çoxsaylı nümunələrlə tanış olublar.

Bundan əlavə, iştirakçılar UNESCO-nun maddi-mədəni irs siyahısına daxil olan "Cresdi d'ADDA" şəhərciyinə səfər edib, şəhərin kimliyinin qorunması ilə bağlı aparılan siyasət barədə məlumatlandırılıblar. İştirakçılar Milan, Genuya, Turin kimi böyük sənaye və kiçik dağ şəhərlərinin urbanizasiya çətinliklərini aradan qaldırmaq üçün verdiyi qərarlar və yürütdüyü sosialyönümlü siyasətlə tanış olublar. Təlim iştirakçıların Milan Politexnik Universitetinin aidiyyəti laboratoriyalarına baş çəkməsi və qrup işi ilə yekunlaşıb.

● Sənət dünyası

## İncəsənət bütün insanları birləşdirir



**Bir müddət öncə Bakının mərkəzində fəaliyyətə başlayan, açılışında ölkə Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın da iştirak etdikləri Crescent Mall-da çoxşahəli ticarət şəbəkəsi, 140 dildə yazılı, Azərbaycan, rus, ingilis dillərində isə şifahi məlumat verə bilən "Leyli" süni intellekt bələdçisindən əlavə, maraq doğuran digər məqam da yuxarı açıq məkana qalxan hissədəki böyük sütunda yaradılmış Azərbaycanın mədəni irsinə istinadlı, milli elementlərdən ibarət incəsənət nümunəsi oldu.**

Və şübhəsiz ki, həmin gün və sonradan bura üz tutan sakinlər müxtəlif çeşidli geyim ləvazimatları, aksesuarlar, dadlı təamlarla yanaşı, bu sənət əsərindən də bəhrələnməkdədirlər.

Söhbət Crescent Mall-un daxilində mərkəzdə yerləşən çoxmərtəbəli sütun üzərində dizayn edilmiş və milli elementləri özündə əks etdirən "Həyat Ağacı" adlı divar rəsmindən gedir. Ölkəmizin, xalqımızın mədəni irsinə və tarixinə dayanan ornamentlərlə zənginləşdirilimiş bu dayaq-müstəviyə ağac, nar və Şah Abbas kimi milli elementlər həkk edilmişdir. Divar rəsmində təsvir edilən naxışlar və formalar sanki Orta əsrin milli xalçalarından birbaşa sütuna köçmüş həyat və birlik simvoludur. Milli ornamentlər və quşlar ilə zaman dinamikasında bir araya gələn "Həyat ağacı" isə sürətlə inkşaf edən, ənənələrimizə sadiq qalaraq gələcəyə doğru inamla hərəkət edən, birlik və azadlıq rəmzini özündə cəmləyən Azərbaycan xalqının ifadəsidir.

Ticarət mərkəzindəki divar rəsmlərinə çoxlu sayda tamaşaçı heyranlıqla baxdı, bəlkə də əksəriyyət bütün bunların gənc rəssam Məhərrəm Əli tərəfindən ərsəyə gətirildiyinin fərqinə varmadı. Biz isə dünyaya səs və iz salmış klassik boyakarlığımızın fonunda ənənə ilə müasirliyi qovuşduran divar rəsmlərinin cazibəsində istedadlı sənət adamı ilə görüşüb həmsöhbət olduq. Müəllif təvazökarcasına söylədi ki, Crescent Mall-un interyerindəki çalışmaları indiyə qədərki fəaliyyətinin davamıdır: "Bu günədək divar rəsmləri silsiləsindən çoxsaylı əsərlərimizi - Balaxanıda, İçərişəhərdə, Bəşir Səfəroğlu, Əlövsət Quliyev küçələrində və digər yerlərdəki əl işlərimizi görüb-bəyənənlərdən zaman-zaman belə təkliflər, dəvətlər gəlir. Ticarət mərkəzindəki layihədə bir neçə dəfə müzakirə edildi və nəhayət, "Həyat ağacı" üzərində dayanıldı".




Məhərrəm Əli deyir ki, Prezident İlham Əliyevin gəncləri və ümumiyyətlə, sənət adamlarını ətrafına toplayaraq fikirlərini dinləməsi, yeni layihələrin həyata keçirilməsi barədə göstərişlər verməsi yaradıcı gəncliyə olan diqqət və qayğının bariz nümunəsidir: "Təkcə Heydər Əliyev Fondunun təşəbbüsü ilə hər il yüzlərlə sərgilər təşkil olunur. Yerli və beynəlxalq simpoziumlar keçirilir. İstedadlı gənc rəssamların sənət əsərləri dünyaşöhrətli qalereyalarda sərgilənir. Odlar yurdunda incəsənətin tarixi eramızdan əvvəlki minilliklərə söykənir. Qobustanda qaya üzərindəki insan təsvirlərindən tutmuş, yaşı yüz illərlə ölçülən qədim xalçalarımız mədəni irsimizin tarixiliyini, milli kimliyimizin orijinallığını qürurla əks etdirir. Müasir dövr təsviri sənətimiz dövlətimizin dəstəyilə Azərbaycanın mədəni şöhrətini bütün dünyaya yayır".

Bəs niyə daha çox Street art? Müsahibim əlavə edir ki, rəssamlar cəmiyyətin önəmli və həssas təbəqəsidir: "Sadə dilə desəm, geyindiyimiz paltardan tutmuş, yaşadığımız evlərə, istifadə etdiyimiz minik avtomobilləri, gündəlik məişət əşyaları bir sözlə, bizi əhatə edən bütün maddi aləmdə rəssamların vacib əməyi var. Konseptual xalçaçı rəssam və Street art rəssamı kimi istər öz yaradıcılığımda, istərsə də şəhərin mərkəzi küçələrindəki divar rəsmlərində klassik və müasir incəsənəti üz-üzə qoyub məni narahat edən suallara cavab tapmağa çalışıram. Yaradıcılıq - olan və yaxud olmayan bir şeyi fərqli, fərdi tərzdə ifadə edə bilmək bacarığıdır".

Məhərrəm Əliyev 1992-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda dünyaya göz açıb. Uşaqlıqdan sehrinə düşdüyü rənglər aləmində öz kiçik palitrasını yaradıb, daim yaradıcı hiss və duyğularla böyük sənətə can atıb. Elə bu arzularla da rəssam olmağı qərarlaşdırıb, orta məktəbi bitirdikdən sonra sənədlərini Azərbaycan Dövlət Rəssamlıq Akademiyasına təqdim edib. 2012-2016-cı illərdə bu təhsil ocağında tanınmış müəllimlərdən, sənət ustadlarından dərs alıb. 2020-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür.

2013-2017-ci illərdə "Xeyirə Vəsilə" layihəsinin 5 sərgisində, 2018-ci ildə Kastamonu-Bakı dostluq sərgisində, 2021-də "Naxçıvan - bəşəriyyətin beşiyi" simpoziumunda, "Art Zone Qəbələ", "Atr Zone Masallı", "Art Zone Tovuz" (2022) sərgilərində, "Müharibə uşaqlarına xeyriyyə yardımı", Özbəkistan və Azərbaycan Prezidentlərinin də qatıldığı Xivə və Daşkənd şəhərlərində keçirilən "Özbəkistan Azərbaycan rəssamlarının gözü ilə" simpoziumunda, Karvan art qrupun "Heydər Əliyev ili" çərçivəsində "Qarabağ" (2023) sərgisində "Muzey mərkəzi Şuşa", "İrsin izi ilə", "Qarabağ" (2024) art simpoziumlarda uğurla iştirak edib.

*Qurban MƏMMƏDOV,*
*"Azərbaycan"*

## Norveçdə təhsil alan azərbaycanlı gənc Fizika İnstitutunun qonağı olub

**Norveçdə IB məktəb proqramı üzrə təhsil alan azərbaycanlı Səbinə Quliyeva Fizika İnstitutunun qonağı olub.**



İnstitutdan bildirilib ki, görüşün məqsədi Fizika İnstitutunda aparılan elmi-tədqiqat işləri, elmi müəssisədə mövcud olan müasir maddi-texniki baza haqqında məlumat əldə etmək və təhsil dövründə qazandığı biliklərin real tədqiqat mühitində yerini müəyyənləşdirmək olub.

İnstitutun elmi katibi Afət Kərimova və Elmi innovasiyalar və xarici əlaqələr şöbəsinin müdiri Rüstəm Rüstəmov Səbinə Quliyeva ilə görüşüblər. Görüşdə qonağa institutun fəaliyyət istiqamətləri, elmi araşdırmaları barədə məlumat verilib, gələcək əməkdaşlıq imkanları haqqında müzakirə aparılıb. Vurğulanıb ki, Fizika İnstitutu perspektivli və həvəsli gənclərə hər zaman dəstək olmağa hazırdır.

Səbinə Quliyeva İngiltərə və Norveçdə bir neçə aparıcı universitetlərdə təhsilini davam etdirmək üçün müraciət edəcəyini bildirib. O, fizika elminə böyük marağı olduğunu vurğulayıb. Səbinə Quliyeva bu istiqamət üzrə bakalavriat təhsilini davam etdirmək istədiyindən Fizika İnstitutu ilə tanış olduğunu söyləyib. O, Azərbaycanda fizika və riyaziyyat fənləri üzrə bir sıra olimpiadalarda iştirak etdiyini və mükafata layiq görüldüyünü bildirib. Qeyd edib ki, Norveçdə regional səviyyədə təşkil olunmuş olimpiadanın da qalibi olub.

Daha sonra institutun əməkdaşları Səbinə Quliyevaya laboratoriyalarda aparılan tədqiqatlar, istifadə olunan avadanlıqlar haqqında məlumat veriblər.

# 32 ildən sonra nəşi tapılan şəhid Məmməd Mirzəyev Ağdamda torpağa tapşırılıb

**Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan Məmməd Hüseyn oğlu Mirzəyevin meyitinin qalıqları Ağdam rayonunda dəfn edilib.**

AZƏRTAC xəbər verir ki, Quzanlı qəsəbəsində Ağdam Dram Teatrının qarşısında rayon sakinlərinin, şəhidin ailə üzvlərinin, Ağdam Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının əməkdaşlarının, ictimaiyyət nümayəndələrinin iştirakı ilə vida mərasimi keçirilib.

Vida mərasimindən sonra şəhid Quzanlı qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib, ruhuna dualar oxunub.




Qeyd edək ki, Məmməd Mirzəyev 1967-ci ildə Ağdam rayonunun Güllücə kəndində anadan olub. O, 1992-ci il fevralın 17-də Xocavəndin Qaradağlı kəndi işğal olunan zaman itkin düşüb.

Şəhidin meyitinin qalıqları Vətən müharibəsindən sonra Qaradağlı kəndi ərazisində aşkar edilib.

# "YAŞAT" Fondu şəhid övladları üçün Antalyada düşərgə təşkil edir

**"YAŞAT" Fondunun, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin, Türkiyə Respublikasının Gənclik və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə Vətən müharibəsi şəhidlərinin övladları üçün Antalya şəhərində yay düşərgəsinə başlanılıb. Düşərgə iştirakçıları iyulun 14-də Bakıdan yola düşüblər.**




Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən AZƏRTAC-a verilən məlumata görə, şəhidlərimizin 18-22 yaş aralığındakı qız övladlarının qatıldığı yay düşərgəsi iyulun 21-dək davam edəcək. Layihənin ikinci hissəsində şəhidlərimizin oğlan övladları iştirak edəcəklər. Həmin düşərgə isə iyulun 29-dan avqustun 3-dək olan günləri əhatə edəcək. Proqram çərçivəsində müxtəlif idman növləri üzrə yarışlar, təlimlər və əyləncəli oyunların keçirilməsi nəzərdə tutulur.

Düşərgənin əsas məqsədi gənclərin mədəniyyət və təcrübə mübadiləsində iştirakı, yeni dostluqların qurulması və beynəlxalq mühitin öyrənilməsidir. Düşərgə Türkiyənin Gənclik və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən Alaaddin Keykubat Kampında keçirilir. Burada şəhid övladları ilə birgə Türkiyənin fərqli bölgələrindən olan gənclər də iştirak edirlər.

Şəhidlərimizin müxtəlif yaş kateqoriyasına uyğun övladları üçün "YAŞAT" Fondu tərəfindən mütəmadi olaraq düşərgələr, kurslar, layihələr, təlimlər təşkil edilir, onların yüksəksəviyyəli təhsilinə dəstək göstərilir.

Xatırladaq ki, "YAŞAT" Fondunun təşkilatçılığı ilə şəhid övladlarından ibarət daha bir qrup yay məktəbində iştirak məqsədilə Londona gedib.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Azərbaycan xalqı və dövləti ilk dəqiqələrdən bu xəyanəti şiddətlə qınamışdır
Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana
Uğurlu yolun yeni mərhələsi
Azərbaycanın dostları və strateji tərəfdaşları durmadan artır
Prezident Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirir
İlham Əliyev paytaxtda əsaslı şəkildə yenidən qurulan Nərimanov parkının açılışında iştirak edib
"Sağlam məhəllə" layihəsinin həyata keçirilməsi üçün vəsait ayrılması haqqında
Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
Prezident İlham ƏLİYEV: "Trampa qarşı siyasi zorakılıq aktını şiddətlə qınayırıq"

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Qanvermə aksiyası təşkil olunub

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyindəki Azərbaycan İlahiyyat İnstitutunda qanvermə aksiyası keçirilib.

AZƏRTAC xəbər verir ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü və təşkilatçılığı, Gənclər Fondu, Milli QHT Forumu, Azərbaycan Könüllü Təşkilatları İttifaqının dəstəyi ilə keçirilən aksiyada Dövlət Komitəsinin sədri Ramin Məmmədov, VI çağırış Milli Məclisin deputatları Əziz Ələkbərli, Ceyhun Məmmədov, 43 qeyri-hökumət təşkilatının üzvləri, idmançılar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Aksiya iştirakçıları ölkəmizdə Məhərrəm ayında kütləvi olaraq təşkil edilən könüllü qanvermə ənənəsinin əhəmiyyətini vurğulayıblar. Aşura günündə zorakılıq etmək, özünə xəsarət yetirmək əvəzinə qanvermənin daha mütərəqqi bir seçim olduğunu bildirərək, Kərbəla şəhidlərinin xatirəsinə qan verilməsi təşəbbüsünün cəmiyyətdə təqdir edildiyini qeyd ediblər.



* * *

Abşeron Rayon Mərkəzi Xəstəxanasında qanvermə aksiyası təşkil olunub. Abşeron Rayon İcra Hakimiyyətinin, Rayon Mərkəzi Xəstəxanasında və Milli Hematologiya və Transfuziologiya Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən qanvermə aksiyasında könüllü iştirak edən rayon sakinləri ehtiyacı olan xəstələr üçün qan veriblər.



Xüsusi ayrılmış tibb briqadası müraciət edənlərin sağlamlıq durumunu qiymətləndirib, daha sonra onlardan qan ehtiyatı götürülüb.

Donorlar bu cür aksiyanın keçirilməsinin vacibliyini nəzərə alaraq digər şəxsləri də qanvermədə fəal iştirak etməyə səsləyiblər.

# "Ceyranları qoruyaq!" adlı ekoloji yay düşərgəsi

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə start verilən "Ceyranların Qafqazda tarixən məskunlaşdıqları ərazilərə reintroduksiyası" proqramının gənclərin maarifləndirilməsi və inkişafı istiqaməti üzrə "Ceyranları qoruyaq!" adlı növbəti ekoloji yay düşərgəsi iyulun 10-12-də Göygöl rayonunda keçirilib.**









IDEA İctimai Birliyi, Azərbaycan Respublikasının Gənclər Fondu, Təhsil Nazirliyinin Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi və Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycan nümayəndəliyinin təşkilatçılığı ilə keçirilən düşərgəyə Göygöl, Gəncə və Samux rayonlarından ümumilikdə 30 məktəbli qoşulub.

IDEA İctimai Birliyindən AZƏRTAC-a bildirilib ki, "Ceyranları qoruyaq!" adlı ekoloji yay düşərgəsinin keçirilməsində əsas məqsəd ceyranların reintroduksiya edildiyi ərazilərdə, o cümlədən onların məskunlaşdığı təbii areallara yaxın yerlərdə yaşayan gənc nəslin maarifləndirilməsidir.

Düşərgə zamanı məktəblilər ceyranların həyat tərzi, ölkəmizdə məskunlaşma tarixi, yayıldığı ərazilər və təbiətdəki rolu, nadir canlı növünün populyasiyasının bərpası üzrə görülən işlər və uğurlar haqda təqdimat, təlim və ekskursiyalarda iştirak edib, o cümlədən müxtəlif ekoloji müsabiqələrə və ətraf mühitlə bağlı əyləncəli bilik yarışlarına qoşulublar. Uşaqlarla təbiətdə komandalararası ekoloji oyunlar, fauna növlərimizin ayaq izləri əsasında təyin edilməsi üzrə çalışmalar keçirilib, təbiət ərazilərində təhlükəsizlik qaydaları izah edilib.

Sonda iştirakçılara sertifikatlar və xatirə hədiyyələri təqdim olunub.

Qeyd edək ki, "Ceyranların Qafqazda tarixən məskunlaşdıqları ərazilərə qaytarılması" proqramı 2010-cu ildə Heydər Əliyev Fondu tərəfindən başladılıb və hazırda IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF Azərbaycan nümayəndəliyinin birgə əməkdaşlığı çərçivəsində uğurla icra olunmaqdadır. Bu illər ərzində 370 baş ceyran Şirvan Milli Parkından Azərbaycan və Gürcüstandakı tarixən məskunlaşdıqları ərazilərə reintroduksiya edilib, onların daimi monitorinqi və mühafizə işləri həyata keçirilməkdədir. Ceyranların sayının artırılmasını və onların mühafizəsini nəzərdə tutan proqramın əsas istiqamətlərindən biri də ictimaiyyət arasında maarifləndirmənin artırılmasıdır. Bu məqsədlə məktəblilər üçün təşkil edilən bu cür yay düşərgələri mühüm əhəmiyyət daşıyır. Uğurlu işlər nəticəsində hazırda Azərbaycanda ceyran populyasiyasının sayının 9 min başa qədər olduğu müəyyən edilib.



# "Birləşdik - 2024" təlimi çərçivəsində bir sıra tədbirlər keçirilib

"Birləşdik - 2024" beynəlxalq əməliyyat-taktiki komanda-qərargah təlimi çərçivəsində "Багдар" taktiki səmti müəyyənetmə, atıcılıq və bir sıra idman növləri üzrə yarışlar, həmçinin hərbi qulluqçuların mədəni-asudə vaxtının səmərəli təşkili məqsədilə digər tədbirlər təşkil edilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, yarışlarda Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan respublikalarının hərbi qulluqçuları güclərini sınayıblar.

Yarışların nəticəsinə əsasən, qaliblərə kuboklar, medallar, fəxri fərmanlar və hədiyyələr təqdim edilib.

Sonda təlim iştirakçıları üçün konsert proqramı təşkil edilib.





## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

ASCO-nun struktur idarələrinə tələb olunan fərdi mühafizə vasitələrinin 4 (dörd) lot üzrə satın alınması məqsədilə

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 23 iyul 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az


## ALLAH RƏHMƏT ELƏSİN!

Dövlət Gömrük Komitəsinin kollektivi iş yoldaşları Vüsalə Rəcəbovaya anası

**ADİLƏ HƏMİDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Dövlət Universiteti Tarix fakültəsinin dekanlığı və Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının kollektivi kafedra müdiri Elmira Hüseynovaya həyat yoldaşı

**CAVİD MİRXƏLİL OĞLU HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 3398
Sifariş 1567
Qiyməti 60 qəpik